# HEYDƏR ƏLİYEV
# VƏ
# AzərTAc

Bakı - 2005

Müəllif:
**Aslan Aslanov**

Redaktorlar:
**Vaqif Musayev**
**Dağbəyi İsmayılov**

A.Aslanov. Heydər Əliyev və AzərTAc.
Bakı, 2005, 178 səh.

Xalqımızın ümummilli lideri Heydər Əliyev ölkəmizdə mətbuatın rolunu həmişə yüksək qiymətləndirmiş və onun inkişafına böyük qayğı göstərmişdir. Onun respublikamıza rəhbərlik etdiyi bütün illərdə Azərbaycan Dövlət Teleqraf Agentliyi - AzərTAc da bu diqqət və qayğıdan kənarda qalmamışdır. Azərbaycan müstəqillik qazandıqdan sonra isə AzərTAc-ın rəsmi dövlət agentliyi kimi formalaşması və tədricən dünya informasiya məkanına çıxması bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır.

Kitabda ulu öndərimiz Heydər Əliyevin və Azərbaycan Prezidenti İlham Əliyevin müxtəlif illərdə AzərTAc-la bağlı fərman və sərəncamları, onların icrası ilə əlaqədar Nazirlər Kabinetinin qəbul etdiyi qərarlar, ümummilli liderimizin əksər xarici səfərlərinin iştirakçısı olmuş müəllifin son illərdə dərc edilmiş məqalə və müsahibələri toplanmışdır.

$\frac{4702000000}{N-098-2005}$ **Qrifli nəşr**

© «Nurlan», 2005
© AzərTAc 2005.



# Ön söz əvəzi

Ulu öndərimiz, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin siyasi irsinin, dövlətçilik fəaliyyətinin tədqiqatçıları yaxşı bilirlər ki, çağdaş dünya tarixində mətbuatın cəmiyyətə təsir gücünün əhəmiyyətini onun qədər yüksək dəyərləndirən ikinci bir lider olmamışdır.

1993-cü ildən 2003-cü ilədək ümummilli liderimizin xarici ölkələrə səfərlərinin, onun respublikamızda keçirdiyi tədbirlərin, görüşlərin, apardığı danışıqların böyük əksəriyyətində iştirak edən bir jurnalist kimi tam cəsarətlə deyə bilərəm ki, ulu öndərimiz Heydər Əliyevin müxtəlif mövzulara dair söylədiyi dərin məzmunlu, aydın məntiqli, əhatəli nitqləri və çıxışlarının hər biri siyasi publisistikanın son dərəcə mükəmməl, təkrarsız və orijinal nümunələridir. Bütün bunlar dönə-dönə nəzərdən keçirilməli, təhlil edilməli, diqqətlə öyrənilməlidir. İnamla demək olar ki, Heydər Əliyevin siyasi publisistikası bu gün Azərbaycan jurnalistikası üçün əvəzsiz xəzinədir və 50-100 il bundan sonra da belə olacaqdır.

Heydər Əliyev bir çox sahələrdə olduğu kimi,

jurnalistika sahəsində də böyük bir məktəb yaratmışdır. Ümummilli liderimiz respublikaya rəhbərliyi dövründə mətbuata həmişə böyük yaradıcılıq sərbəstliyi və demokratik mühitdə işləmək imkanı yaratmış, eyni zamanda onun ictimai nüfuzunun artmasına, fəaliyyət dairəsinin genişlənməsinə xüsusi qayğı və diqqət göstərmiş, həqiqi mənada azad sözün təminatçısı olmuşdur.

Mübaliğəsiz demək olar ki, bu il 85 illiyini qeyd etdiyimiz AzərTAc özünün əsil inkişaf yoluna ulu öndərimizin ötən əsrdə respublikamıza rəhbərlik etdiyi 1970-1980-ci illərdə qədəm qoymuşdur. Həmin illərdə Azərbaycanda gedən genişmiqyaslı quruculuq işlərinin canlı şahidləri olan bizim nəslin nümayəndələri yaxşı xatırlayırlar ki, mətbuatın, o cümlədən AzərTAc-ın qaldırdığı hər hansı bir təşəbbüs Heydər Əliyevin diqqətindən kənarda qalmırdı. Məhz o illərdə Azərbaycan mətbuatına milli ruh qayıtmış, milli ideologiyanın, azərbaycançılığın təbliği jurnalistlərin yaradıcılığında mühüm yer tutmuşdur.

Heydər Əliyevin böyük qayğısı və diqqəti sayəsində hələ 1970-1980-ci illərdə o dövrün ən mükəmməl informasiya texnologiyaları və avadanlığı ilə təchiz edilən AzərTAc keçmiş sovet respublikalarının informasiya agentlikləri arasında həm maddi-texniki bazasının mükəmməlliyinə, həm də yüksək yaradıcılıq potensialına görə sayılıb seçilmişdir. Sovet İttifaqında SİTA-dan və Ukrinformdan sonra tamamilə kompüterləşdirilən ilk informasiya agentliyi Azərinform olmuşdur.

Lakin 1987-ci ildə Heydər Əliyevin Sovet İttifaqının





ali rəhbərliyindən kənarlaşdırılmasından sonra Azərbaycanda baş verən hadisələr mətbuata da öz təsirini göstərdi. Maddi, mənəvi, siyasi və ideoloji dayaqlardan məhrum olan Azərbaycan mətbuatı, o cümlədən AzərTAc çətin problemlərlə üz-üzə qaldı. Həmin ağır illərdə Azərbaycanda baş verən hadisələrə keçmiş İttifaq məkanında və ümumən dünyada formalaşmış qərəzli münasibətin əsas səbəblərindən biri də bu idi.

Ulu öndərimizin xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra AzərTAc-ın da həyatında yeni mərhələ başlandı. AzərTAc-a dövlət agentliyi statusu verildi, onun maddi-texniki bazası bütünlüklə yeniləşdirildi. Qlobal informasiya məkanına sürətlə inteqrasiya edən AzərTAc hazırda dünyanın bir sıra nüfuzlu agentlikləri ilə sıx əməkdaşlıq edir. Agentliyimiz hər gün 80-dən çox ölkəyə ingilis və rus dillərində xəbərlər göndərir və qəbul edir.

AzərTAc-ın gün ərzində dünya üzrə 6-8 mindən çox müraciət olunan yeniləşdirilmiş saytı BMT-nin Cenevrə ofisinin informasiya mərkəzinin internet səhifəsində yerləşdirilmişdir. AzərTAc 2004-cü ildə Asiya və Sakit okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) tamhüquqlu üzvü olmuşdur.

Danılmaz həqiqətdir ki, Heydər Əliyev vaxtilə respublikamız ətrafında yaranmış informasiya blokadasının yarılmasında misilsiz xidmətlər göstərmişdir. O, Azərbaycan həqiqətlərinin dünyaya yayılması üçün hər bir imkandan istifadə edirdi. Fəxr edirik ki, ulu öndərimizin bu fəaliyyətinə AzərTAc da öz töhfəsini verməyə çalışmışdır.

Ulu öndərimizin qurub yaratdığı, siyasi memarı olduğu müasir müstəqil Azərbaycanın nüfuzunun daha da yüksəldilməsi, ölkəmizin daha dinamik sürətlə inkişaf etdirilməsi üçün bu gün respublikamızda çox böyük işlər görülür. Ümummilli liderimizin siyasi xəttini, milli inkişaf konsepsiyasını, ideoloji məfkurəsini böyük uğurla davam etdirən Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində AzərTAc yeni-yeni uğurlar qazanmaq, prezidentimizin həyata keçirdiyi ardıcıl və məqsədyönlü tədbirlərin informasiya təminatı, respublikamız haqqında həqiqətlərin dünyada daha geniş yayılması üçün bundan sonra da bütün imkanlarını səfərbər edəcəkdir.

Oxuculara təqdim etdiyimiz bu kitabda biz ulu öndərimiz Heydər Əliyevin və möhtərəm Prezidentimiz İlham Əliyevin AzərTAc-la bağlı fərman və sərəncamları, ümummilli liderimizin Azərbaycan mətbuatına, o cümlədən agentliyin kollektivinə göstərdiyi diqqət və qayğıdan bəhs edən məqalələr, müsahibələr toplanmışdır.

***Müəllifdən***



# Fərmanlar, Sərəncamlar, Qərarlar, Məktublar...

## Azərbaycan Teleqraf Agentliyinin (AzərTAc-ın) yenidən təşkil edilməsi haqqında AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Dövlət səviyyəsində rəsmi xəbərlərin xalqa çevik çatdırılmasında, Azərbaycan haqqında obyektiv məlumatların beynəlxalq miqyasda geniş yayılmasında AzərTAc-ın imkanlarından daha dolğun istifadə edilməsi məqsədi ilə qərara alıram:

1. Azərbaycan Teleqraf Agentliyinin (AzərTAc-ın) əsasında Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Teleqraf Agentliyi yaradılsın və onun ənənəvi AzərTAc adı saxlanılsın.

2. Müəyyən edilsin ki, AzərTAc 1995-ci il yanvarın 1-dən əsasən dövlət büdcəsindən maliyyələşdirilməyə keçirilsin.

3. Nazirlər Kabinetinə tapşırılsın ki, AzərTAc-ın maddi-texniki bazasının müasir tələblərə uyğunlaşdırılması və onun dünya standartları səviyyəsində fəaliyyət göstərməsi üçün lazımi tədbirlər həyata keçirsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabineti bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

**Heydər Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 3 mart 1995-ci il.





## Azərbaycan Teleqraf Agentliyinin (AzərTAc-ın) yenidən təşkil edilməsi haqqında AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Azərbaycan Teleqraf Agentliyinin (AzərTAc-ın) yenidən təşkil edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1995-ci il 3 mart tarixli 291 nömrəli Fərmanını rəhbər tutaraq, dövlət səviyyəsində rəsmi xəbərlərin xalqa çevik çatdırılmasında və Azərbaycan haqqında obyektiv məlumatların beynəlxalq miqyasda geniş yayılmasında AzərTAc-ın imkanlarından daha dolğun istifadə edilməsi, agentliyin maddi-texniki bazasının müasir tələblərə uyğunlaşdırılması və onun dünya standartları səviyyəsində fəaliyyət göstərməsinin təmin edilməsi məqsədi ilə, Azərbaycan Respublikası Nazirlər Kabineti qərara alır:

1. Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Dövlət Teleqraf Agentliyi (AzərTAc) haqqında Nizamnamə təsdiq edilsin (əlavə olunur).

2. Müəyyən edilsin ki, AzərTAc 1995-ci il yanvarın 1-dən əsasən dövlət büdcəsindən maliyyələşdirilməyə keçirilsin.

3. Azərbaycan Respublikası Maliyyə Nazirliyinə tapşırılsın ki, AzərTAc-ın 1 iyul 1995-ci il tarixədək müxtəlif idarə və təşkilatlara əmələ gəlmiş kreditor borclarının 1995-ci ildə agentliyə büdcədə nəzərdə

tutulmuş vəsait hesabına silinməsi məsələsinə baxıb həll etsin.

4. Azərbaycan Respublikası Maliyyə Nazirliyinə tapşırılsın ki, təqdim olunmuş smeta əsasında AzərTAc-ın maddi-texniki bazasının müasir tələblərə uyğunlaşdırılmasını, eləcə də, binanın əsaslı təmiri və digər zəruri ehtiyaclarını təmin etmək məqsədi ilə AzərTAc-a lazımi vəsait ayrılmasını nəzərdə tutsun.

5. AzərTAc Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi ilə birlikdə AzərTAc-ın ABŞ-da, İranda, Almaniyada, Türkiyədə, Londonda və Aşqabad, Tbilisi, Moskva, Daşkənd şəhərlərində müxbir məntəqələrinin yaradılması məsələsinə baxıb müvafiq qaydada həll etsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasının dövlət informasiya agentliyi haqqında" 1991-ci il 28 iyun tarixli 195 nömrəli qərarı qüvvəsini itirmiş hesab edilsin.

7. Bu qərarın icrasına nəzarət Azərbaycan Respublikası Nazirlər Kabineti İşlər İdarəsinin əlaqədar şöbələrinə həvalə edilsin.

**F.Quliyev**
**Baş nazir**
Bakı şəhəri, 3 iyul 1995-ci il.





Azərbaycan Respublikası Nazirlər Kabinetinin 3 iyul 1995-ci il tarixli 157 nömrəli qərarı ilə təsdiq edilmişdir

## Azərbaycan Respublikası Nazirlər Kabineti Yanında Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) NİZAMNAMƏSİ

1. Azərbaycan Teleqraf Agentliyi Azərbaycan Respublikası Nazirlər Kabineti yanında yaradılan Milli Teleqraf Agentliyidir. Onun informasiya fəaliyyəti dairəsi respublika və xarici ölkə auditoriyasını əhatə edir.

2. AzərTAc hüquqi şəxsdir, üzərində Azərbaycan Respublikasının Dövlət Gerbi təsvir edilmiş, öz adı yazılmış möhürə, həmçinin digər möhür və ştamplara malikdir. Agentliyin öz emblemi vardır.

3. AzərTAc-ın iqamətgahı Bakı şəhəri, Bülbül prospekti, 18 ünvanda yerləşir.

4. AzərTAc öz fəaliyyətində respublikanın qüvvədə olan qanunvericiliyini, kütləvi informasiya vasitələri haqqında Azərbaycan Respublikası tərəfindən imzalanmış beynəlxalq sazişləri, habelə bu nizamnaməni rəhbər tutur.

5. AzərTAc-ın əsas vəzifəsi informasiya toplamaqdan və onu respublikanın və xarici ölkələrin kütləvi informasiya vasitələrinə, ölkənin

dövlət orqanlarına, idarələr, müəssisələr və ictimai təşkilatlara çatdırmaqdan ibarətdir.

AzərTAc ölkənin daxili və xarici siyasətinin ən mühüm hadisələri haqqında, daxili ictimai-siyasi, regional və beynəlxalq hadisələr barədə xəbərləri, Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Parlamentinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və başqa hakimiyyət və idarəetmə orqanlarının rəsmi bəyanatlarını respublikanın və xarici ölkələrin kütləvi informasiya vasitələri və əhali üçün yayır.

AzərTAc informasiyanın toplanması və yayılması sahəsində öz fəaliyyətini xalqın və dövlətin mənafelərini əsas tutmaqla, ölkədə və xaricdə baş verən hadisələri obyektiv və hərtərəfli işıqlandırmaq prinsiplərini rəhbər tutaraq həyata keçirir.

AzərTAc fəaliyyətində respublikanın bütün vətəndaşlarının istənilən məsələ barəsində, ən əvvəl Azərbaycan Respublikası ali dövlət hakimiyyət və idarəetmə orqanlarının fəaliyyəti, daxili və xarici siyasət ilə bağlı doğru-düzgün və səhih informasiya almaq üçün qanuni hüquqlarını təmin edir.

6. Öz vəzifələrinə uyğun olaraq AzərTAc:

rəsmi və başqa respublika xəbərlərini və xarici informasiyanı toplayır, onları öz kanalları ilə respublikada və xaricdə yayır;

öz qəzetlərini, jurnallarını, informasiya məcmuələrini, digər çap, kompüter, foto,





audiovizual və başqa məhsullarını nəşr edir və onları respublikada və xaricdə abunə, pərakəndə satış və fərdi sifarişlər yolu ilə yayır;

respublika qanunvericiliyi ilə müəyyən olunmuş qaydada dövlətin siyasətinə uyğun olaraq və mövcud imkanlar daxilində respublikada və xaricdə öz informasiya xidmətlərini (müxbir məntəqələrini) təsis edir, yenidən qurur və ləğv edir;

informasiya toplanması və yayılması üzrə xarici ölkələrin informasiya agentlikləri ilə əməkdaşlıq edir;

mübadilə və ya kommersiya şərtləri ilə informasiya verilməsi (əldə edilməsi) haqqında xarici agentliklərlə və digər kütləvi informasiya orqanları ilə müqavilələr bağlayır;

müəyyən olunmuş qaydada xarici iqtisadi fəaliyyət, o cümlədən informasiya sahəsində ixrac-idxal əməliyyatları aparır, təmsilçilik və vasitəçilik fəaliyyəti göstərir, kommersiya fəaliyyəti ilə məşğul olur.

7. AzərTAc qüvvədə olan qanunvericiliyə uyğun yaradıcılıq və təsərrüfat müstəqilliyinə malikdir. Öz plan və proqramlarını hazırlayır, ixtiyarındakı dövlət əmlakı tam təsərrüfat səlahiyyətindədir, ondan istifadə edir və onun barəsində qanunvericilikdə nəzərdə tutulan qaydada sərəncam verir, yaradılmış məhsuldan, əldə olunmuş mənfəətdən qarşısında duran vəzifələri əsas tutaraq müstəqil surətdə istifadə edir.

8. AzərTAc-ın bank müəssisəsində hesablaşma hesabı və valyuta hesabı var.

AzərTAc öz fəaliyyətini əsasən dövlət büdcəsindən ayrılan vəsait və başqa mənbələrdən əldə etdiyi gəlir hesabına həyata keçirir.

AzərTAc-ın vəsaiti aşağıdakı mənbələr hesabına yaranır:

büdcədən ayrılan vəsait;

təsərrüfat fəaliyyətindən əldə olunan mənfəət;

respublikanın və xarici ölkələrin təşkilatlarının, firma və müəssisələrinin, idarələrinin və ayrı-ayrı vətəndaşların pul vəsaiti, maddi və mənəvi sərvətlər, daşınmaz əmlak şəklində könüllü verdikləri paylar, hədiyyələr, varidat və ayırmalar;

qanunvericiliyə zidd olmayan digər gəlirlər hesabına.

9. AzərTAc-ın baş direktoru Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə, müavinləri isə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə vəzifəyə təyin edilir və azad olunurlar.

Baş direktorun üç müavini, o cümlədən, bir nəfər birinci müavin olur. AzərTAc-ın Kollegiyasının tərkibini Azərbaycan Respublikası Nazirlər Kabineti təsdiq edir.

Baş direktor:

qüvvədə olan qanunvericiliyə müvafiq surətdə agentliyin fəaliyyətinə ümumi rəhbərliyi həyata keçirir, kollektivin qarşısında duran vəzifələrin yerinə yetirilməsini təşkil edir. AzərTAc-ın bütün





xidmət və bölmələri, onun tabeliyindəki müəssisə və təşkilatlar tərəfindən hökmən icra edilməli olan əmrlər, sərəncamlar, göstərişlər verir, struktur vahidlərini, onun tabeliyində müəssisə və təşkilatlar yaradır, onları yenidən qurur və ləğv edir;

ştat cədvəlini təsdiq edir, agentliyin əməkdaşlarının, respublika və xaricdəki müxbir məntəqələri işçilərinin say tərkibini və əmək haqqını (əməyin ödənilməsi üçün mövcud olan vəsait daxilində) müəyyənləşdirir;

10. Kollegiya AzərTAc-ın kollegial idarəetmə orqanıdır. O, agentliyin baş direktorundan (Kollegiyanın sədri), onun müavinlərindən və AzərTAc-ın digər struktur xidmətləri və bölmələrinin rəhbərlərindən ibarətdir.

Kollegiya müntəzəm olaraq keçirilən iclaslarında AzərTAc-ın dövlət və xalq mənafeyini əks etdirən fəaliyyətinin başlıca məsələlərini müzakirə edir, o cümlədən cari və perspektiv vəzifələri müəyyənləşdirir. AzərTAc-ın strukturlarının inkişaf etdirilməsi, maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı məsələləri nəzərdən keçirir, xidmət və bölmə rəhbərlərinin hesabatlarını dinləyir. Kollegiya rəhbərlərin və digər məsul işçilərin hesabatlarını müzakirə edir. Kollegiya öz iclaslarında müzakirə edilən məsələlər üzrə agentliyin bütün əməkdaşları, xidmət və bölmələri tərəfindən yerinə yetirilməli olan qərarlar qəbul edir. Kollegiyanın qərarı bir qayda olaraq baş direktor tərəfindən imzalanır.

11. Yenidən təşkil və ləğvetmə:

AzərTAc-ın yenidən təşkili və ləğv olunması Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir.





**Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) işinin yaxşılaşdırılması haqqında**

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Dövlət səviyyəsində rəsmi xəbərlərin xalqa çatdırılmasında və Azərbaycan haqqında həqiqətlərin beynəlxalq miqyasda yayılmasında AzərTAc-ın imkanlarından daha dolğun istifadə edilməsi, agentliyin fəaliyyətinin gücləndirilməsi, onun maddi-texniki bazasının və əməkdaşlarının maddi vəziyyətinin yaxşılaşdırılması məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

- Maliyyə Nazirliyi ilə birlikdə AzərTAc-ın yeni ştat cədvəlini təsdiq etsin və agentliyin işinin spesifik xüsusiyyətlərini, müasir dövrdə dövlət siyasətinin həyata keçirilməsində rəsmi informasiya işinin böyük əhəmiyyətini nəzərə alaraq müstəsna hal kimi işçilərin əmək haqqını AzərTAc rəhbərliyinin təqdim etdiyi dərəcələr səviyyəsində müəyyən etsin, bu məqsədlə lazımi vəsait ayırsın.

Xarici işlər və Maliyyə nazirlikləri ilə birlikdə AzərTAc-ın xarici ölkələrdə müxbir məntəqələrinin açılması və onların fəaliyyətinin maliyyələşdirilməsi məsələlərini 1996-cı ilin ikinci yarısında həll etsin;

- Maliyyə Nazirliyi ilə birlikdə AzərTAc-ın

maddi-texniki bazasını müasir tələblərə uyğunlaşdırmaq, onun yerləşdiyi binanın əsaslı təmirini təmin etmək, nəqliyyat və digər zəruri ehtiyaclarını ödəmək məqsədi ilə AzərTAc-ın təqdim etdiyi smeta üzrə ona 1996-cı ilin ikinci yarısında lazımi vəsait ayrılmasını təmin etsin;

- bu sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

2. Bakı Şəhər İcra Hakimiyyəti AzərTAc-ın icarəsində olan binalardakı qeyri-yaşayış sahələrinin agentliyin balansına keçirilməsi məsələsinə baxıb həll etsin.

3. Şəhər və rayonların icra hakimiyyəti başçıları AzərTAc-ın zona informasiya mərkəzlərinin fəaliyyəti üçün lazımi şərait yaratsınlar.

**Heydər Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 iyun 1996-cı il.





**Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) işinin yaxşılaşdırılması haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI**

"Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) işinin yaxşılaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 29 iyun tarixli 360 nömrəli Sərəncamının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabineti QƏRARA ALIR:

1. Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) yeni strukturu təsdiq edilsin.

2. AzərTAc-ın işinin spesifik xüsusiyyətləri, müasir dövrdə dövlət siyasətinin həyata keçirilməsində rəsmi informasiya işinin böyük əhəmiyyəti nəzərə alınaraq, müstəsna hal kimi, işçilərin əmək haqqı AzərTAc rəhbərliyinin təqdim etdiyi dərəcələr səviyyəsində müəyyən olunsun.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

nəzərdə tutsun ki, AzərTAc-ın bütün xərclərinin 80 faizi dövlət büdcəsi hesabına, 20 faizi isə Agentliyin öz gəlirləri hesabına ödənilir;

AzərTAc-ın maddi-texniki bazasını müasir

tələblərə uyğunlaşdırmaq, yerləşdiyi binanı əsaslı təmir etmək üçün Agentliyin təqdim etdiyi smeta üzrə ona 1996-cı ilin ikinci yarısında və 1997-ci ildə lazımi vəsait ayırsın:

AzərTAc-ın nəqliyyat vasitələrinin istismar müddətinin çoxdan qurtardığını nəzərə alaraq Agentliyə iki ədəd mikroavtobus və iki ədəd minik avtomaşını alınması üçün vəsait ayırsın;

MDB ölkələrinin dövlətlərarası informasiya mübadiləsini yaxşılaşdırmaq haqqında MDB-nin sənədlərində nəzərdə tutulan tədbirləri həyata keçirmək məqsədi ilə AzərTAc-ın RİTA-SÖTA Agentliyinin bülletenlərinə abunə yazılması üçün hər il vəsait ayırsın;

AzərTAc-ın materiallarının Moskvaya, Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı səfirliyinə müntəzəm ötürülməsini təmin etmək və rabitə xərclərini ödəmək üçün 1996-cı ilin 4-cü rübündən etibarən hər il lazımi vəsait ayırsın;

Rabitə Nazirliyi ilə birlikdə AzərTAc-ın rabitə qovşağının müasir tələblər səviyyəsində qurulması üçün tədbirlər həyata keçirsin, Agentlikdə informasiyanın qəbulu, işlənməsi və yayılması üzrə müasir standartlar səviyyəsində avtomatlaşdırılmış sistem yaradılması üçün valyuta vəsaitinin ayrılmasını təmin etsin.

4. AzərTAc:

Xarici İşlər Nazirliyi ilə birlikdə Nazirlər Kabinetinin 1995-ci il 3 iyul tarixli 157 nömrəli





qərarının 5-ci bəndində nəzərdə tutulan Agentliyin xarici ölkələrdə, habelə Fransada müxbir məntəqələrinin fəaliyyətini təmin etsin.

5. Şəhər və rayonların icra hakimiyyəti orqanları AzərTAc-ın zona informasiya mərkəzlərinin və müxbirlərinin fəaliyyəti üçün lazımi şərait yaratsınlar.

6. Bu qərarın icrasına nəzarət Azərbaycan Respublikası Nazirlər Kabineti İşlər İdarəsinin elm, mədəniyyət və xalq təhsili şöbəsinə həvalə edilsin.

**A.Rasizadə**
**Baş nazirin birinci müavini**

Bakı şəhəri, 31 oktyabr 1996-cı il.

## Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) fəaliyyətinin təkmilləşdirilməsi haqqında AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikasının beynəlxalq əlaqələrinin genişlənməsi, müstəqil dövlətimizin dünya miqyasında nüfuzunun getdikcə artması, ölkəmizdə gedən hüquqi dövlət quruculuğuna beynəlxalq aləmdə olan maraq dairəsinin böyüməsi respublikamızın kütləvi informasiya vasitələrinin fəaliyyətinin təkmilləşdirilməsini tələb edir.

Dövlətimizin ictimai-siyasi, iqtisadi və mədəni həyatı haqqında məlumatların daha çevik və operativ yayılmasında Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) xüsusi əhəmiyyətini nəzərə alaraq və onun imkanlarından daha dolğun istifadə edilməsi məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Teleqraf Agentliyi (AzərTAc) "Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc)" adlandırılsın.

2. Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbərinə tapşırılsın ki, bir ay müddətində AzərTAc-ın Əsasnaməsinin layihəsini təsdiq edilmək üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.





3. AzərTAc-ın tərkibində xarici dillərdə xəbərlər hazırlayan və yayan baş redaksiya yaradılsın.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

- AzərTAc-ın fəaliyyətinin genişləndirilməsi ilə əlaqədar onun ştat vahidlərinin son həddinin 8 vahid artırılmasını;
- maddi-texniki bazasının müasir tələblər səviyyəsinə çatdırılması üçün zəruri texniki avadanlığın alınmasını;
- AzərTAc-ın xarici ölkələrdəki müxbir məntəqələrində zəruri iş yerlərinin açılmasını və onların texniki avadanlıqla təchiz olunmasını;
- AzərTAc-ın beynəlxalq əlaqələrinin xeyli genişlənməsini nəzərə alaraq, gələcəkdə dövlət büdcəsi layihələrini tərtib edərkən ona ayrılmış rabitə xərclərinin artırılmasını və güzəştli rabitə xidməti göstərilməsini təmin etsin.

5. AzərTAc-ın işinin spesifik xüsusiyyətlərini və müasir dövrdə dövlət səviyyəsində rəsmi informasiya işinin böyük əhəmiyyətini nəzərə alaraq, AzərTAc-ın əməkdaşlarının əmək haqları əsasən əlli faiz artırılsın.

6. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi AzərTAc-ın materiallarının Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirlikləri və nümayəndəlikləri tərəfindən geniş istifadə olunmasını təmin etsin.

7. "Azərbaycan Teleqraf Agentliyinin (AzərTAc-ın) yenidən təşkil edilməsi haqqında" Azərbaycan

Respublikası Prezidentinin 1995-ci il 3 mart tarixli 291 saylı Fərmanının birinci bəndində "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Teleqraf Agentliyi" sözləri "Azərbaycan Dövlət Teleqraf Agentliyi" sözləri ilə əvəz edilsin.

8. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**Heydər Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 17 yanvar 2000-ci il.





## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HEYDƏR ƏLİRZA OĞLU ƏLİYEVƏ

Möhtərəm cənab Prezident!

"Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) fəaliyyətinin təkmilləşdirilməsi haqqında" bu il 17 yanvar tarixli Fərmanınızı AzərTAc-ın kollektivi ölkəmizin kütləvi informasiya vasitələrini müstəqil dövlətimizin və xalqımızın mənafelərini daha böyük əzmkarlıq və qətiyyətlə qorumağa və təbliğ etməyə, əsil vətəndaş qeyrəti nümayiş etdirməyə çağıran tarixi sənəd kimi qarşılamışdır. Azərbaycan mətbuatının 125 illiyinin qeyd olunacağı 2000-ci ilin başlanğıcında imzaladığınız bu dəyərli Fərman milli jurnalistikamızı yüksək vətənpərvərlik amallarına səsləyən bir sənəd kimi tarixə düşəcəkdir.

Azərbaycanda hüquqi demokratik dövlət quruculuğu, respublikamızın beynəlxalq əlaqələrinin getdikcə daha geniş vüsət alması, müstəqil ölkəmizin dünya miqyasında nüfuzunun daim artması Sizin apardığınız uzaqgörən daxili və xarici siyasətin bəhrəsidir. Bütün bunları təkcə ölkə daxilində deyil, həm də beynəlxalq aləmdə çevik, dəqiq və operativ işıqlandırmaq bizdən peşəkarlıqla yanaşı vətənə, xalqa, dövlətə hədsiz sədaqət, əsil fədakarlıq tələb edir. Sizin Fərmanınız biz jurnalistləri məhz bu vəzifələrə istiqamətləndirir,

rəsmi informasiya işinin böyük əhəmiyyətini xüsusilə nəzərə çarpdırır.

Tarixi Fərmanınızı müdrik dövlət başçısının kollektivimizə həm inamının, həm qanuni tələbkarlığının, həm də yüksək qayğısının təzahürü kimi qəbul edirik. Dərk edirik ki, ölkəmizin maliyyə imkanlarının məhdud olduğu indiki şəraitdə AzərTAc-ın əməkdaşlarının əmək haqqının əlli faiz artırılması bizim üzərimizə böyük məsuliyyət qoyur. Bu diqqətə və qayğıya cavab olaraq agentliyimizin beynəlxalq informasiya məkanında öz layiqli yerini tutmasına nail olacaq, ölkəmiz və xalqımız haqqında həqiqət sözünü bütün dünyaya yayacaq, Sizin etimadınızı doğrultmağa çalışacağıq.

Sizə dərin minnətdarlığımızı bildirir, xalqımızın səadəti naminə titanik fəaliyyətinizdə yeni, böyük uğurlar, uzun və sağlam ömür arzulayırıq.

Dərin hörmətlə,

**AzərTAc-ın kollektivi**
19 yanvar 2000-ci il.





**Ş.M.Şahməmmədovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında**

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan mətbuatının inkişafındakı xidmətlərinə görə Şamil Məmməd oğlu Şahməmmədov "Şöhrət" ordeni ilə təltif edilsin.

**Heydər Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 29 fevral 2000-ci il.

**Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) əməkdaşlarına "Azərbaycan Respublikasının Əməkdar Mədəniyyət İşçisi" Fəxri adının verilməsi haqqında**
**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) 80 illiyi münasibətilə agentliyin aşağıdakı əməkdaşlarına Azərbaycan mətbuatının inkişafındakı xidmətlərinə görə "Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi" fəxri adı verilsin:

1. Aslanov Aslan Əhməd oğlu
   - baş direktorun birinci müavini
2. Yusifov Sabir Hacı oğlu
   - baş redaktorun müavini
3. Məmmədov (Aydınoğlu) Oqtay Aydın oğlu
   - baş redaktor
4. Niftəliyev Ağaqulu Məmmədqulu oğlu
   - müxbir
5. Cəfərli Elman Hüseyn oğlu
   - baş redaktorun müavini

**Heydər Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 29 fevral 2000-ci il.





**AZƏRBAYCAN DÖVLƏT TELEQRAF AGENTLİYİNİN (AzərTAc-IN) KOLLEKTİVİNƏ**

Azərbaycanın dövlətçilik tarixində mühüm rol oynamış Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) 80 illiyi tamam olur. 1920-ci il mart ayının 1-də Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaranmış AzərTAc fəaliyyətə başladığı gündən xalqımızın azadlıq arzularının carçısına çevrilmiş, onun ictimai-siyasi amallarının, milli-mənəvi dəyərlərinin və müstəqil dövlətçilik qayğılarının yorulmaz təbliğatçısı missiyasını yerinə yetirmişdir. AzərTAc Xalq Cümhuriyyətinin süqutundan sonra da öz fəaliyyətini davam etdirmiş və sovet quruluşu çərçivəsində xalqımızın SSRİ və dünya səviyyəsində tanıdılmasında, Azərbaycanda həyata keçirilən quruculuq işlərinin işıqlandırılmasında öz önəmli rolunu oynamışdır.

1991-ci ildə dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikası hüquqi, demokratik və dünyəvi dövlət quruculuğu yolu ilə inamla irəliləyir. Müstəqilliyimizin daha da möhkəmləndirilməsində, ölkəmizin ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrini əhatə edən köklü islahatların, baş verən mütərəqqi dəyişikliklərin, Ermənistanın respublikamıza qarşı hərbi təcavüzü ilə yaranmış mürəkkəb sosial-iqtisadi və insani problemlərin açılmasında, beynəlxalq aləmə

yayılmasında AzərTAc-ın fəaliyyəti mühüm əhəmiyyət kəsb edir.

Son illər AzərTAc-ın fəaliyyətində xüsusi dönüş yaranmış, onun maddi-texniki bazasının gücləndirilməsi, işinin təkmilləşdirilməsi və daha operativ, səmərəli təşkili üçün mühüm tədbirlər görülmüşdür. Lakin elmi-texniki tərəqqinin media üçün, xüsusən elektron informasiya vasitələrinin hüdudsuz inkişafı üçün yaratdığı bütün imkanlar hər gün yeniləşməni və dünya elminin bu sahədəki nailiyyətlərinin geniş tətbiqini tələb edir. Odur ki, AzərTAc-ın kollektivi milli jurnalistikamızın nəcib vətənpərvərlik ənənələrini ləyaqətlə davam etdirməklə bərabər dünya informasiya məkanında layiqli yer tutmaq üçün daha əzmlə çalışmalıdır.

Bu gün Azərbaycan dövləti ölkə konstitusiyasında təsbit olunmuş fikir və söz azadlığı, siyasi plüralizm prinsiplərinə sadiq qalaraq, kütləvi informasiya vasitələrinin inkişafı üçün hərtərəfli şərait yaratmış və bu sahədəki səylər bundan sonra da dönmədən davam etdiriləcəkdir.

Əmin olduğumu bildirirəm ki, bütün imkanlardan istifadə edərək agentliyin kollektivi gənc, müstəqil dövlətimizin möhkəmlənməsi və çiçəklənməsi naminə Azərbaycan həqiqətlərinin ölkə ictimaiyyətinə və beynəlxalq aləmə çevik və dolğun şəkildə çatdırılmasında yüksək peşəkarlıq nümayiş etdirəcək, vətənimizə və xalqımıza sədaqətlə xidmət edəcəkdir.





80 illik yubileyi münasibətilə AzərTAc-ın bütün kollektivini səmimi qəlbdən təbrik edir, öz müqəddəs və şərəfli missiyalarının yerinə yetirilməsində yeni-yeni uğurlar arzulayıram.

**Heydər Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 fevral 2000-ci il.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HEYDƏR ƏLİRZA OĞLU ƏLİYEVƏ

Möhtərəm cənab Prezident!

Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) 80 illiyi münasibətilə kollektivimizə ünvanladığınız dərin məzmunlu, sonsuz qayğı və diqqətlə aşılanmış səmimi təbrik məktubunuza, agentliyin bütün heyətinin əməyinə yüksək qiymət verdiyinizə, eləcə də bir qrup əməkdaşımızı respublikamızın fəxri adlarına və mükafatına layiq gördüyünüzə görə Sizə - müstəqil dövlətimizin müdrik və qədirbilən başçısına, xalqımızın XX və XXI əsrlər tarixində əzəmətli yeri olan görkəmli şəxsiyyətə hədsiz minnətdarlığımızı və təşəkkürümüzü bildiririk.

Sizin məktubunuzun hər bir cümləsi, hər bir kəlamı AzərTAc-ın kollektivində qanuni iftixar və sonsuz fərəh hissi doğurmaqla bərabər, agentliyimizin əməkdaşları üçün, eləcə də Azərbaycanın bütün kütləvi informasiya vasitələrinin işçiləri üçün konkret fəaliyyət istiqamətidir, xalqımızın və dövlətimizin bu gününə və gələcəyinə öz nurlu zəkası ilə işıq saçan rəhbərin milli mənafelərimizi göz bəbəyi kimi qorumağa hərarətli çağırışıdır. Biz bu vəzifələri və tövsiyələri əməli işimiz - yaradıcılıq və yayıcılıq fəaliyyətimiz üçün tələbkarlıq və xeyirxahlıq nümunəsi olan





dəqiq proqram kimi qəbul edirik və onları Sizin tələblərinizə uyğun səviyyədə yerinə yetirməyə çalışırıq.

Hörmətli cənab Prezident!

Dərin minnətdarlıq duyğuları ilə dərk edirik ki, Siz xalqımızın dövlətçilik tarixinə, milli yaddaşına həmişə böyük diqqət və ehtiramla yanaşaraq, müdrik dövlət başçısı və xalqımızın sədaqətli oğlu kimi mənəvi dəyərlərimizin bərpa və inkişafına daim qayğı göstərirsiniz. Agentliyimizin Azərbaycan Xalq Cümhuriyyəti dövründə təşəkkül tapmış ənənəvi AzərTAc adını bərpa etməyiniz bu qayğının parlaq ifadələrindən biridir. Azərbaycanın dövlətçilik tarixində AzərTAc-ın mühüm roluna verdiyiniz dəyərli qiymət, son illər agentliyin fəaliyyətində xüsusi dönüş yaranmasına diqqət yetirməyiniz bizim üçün başucalığı və iftixar mənbəyidir. Bütün bunlar məhz Sizin həssas, qayğıkeş və tələbkar rəhbərliyinizin, AzərTAc barəsində verdiyiniz mühüm fərmanların və sərəncamların sayəsində mümkün olmuşdur.

Biz bilirik ki, Sizin yüksək etimadınıza layiq olmaq üçün fəaliyyətimizi daim təkmilləşdirməli, dövlət səviyyəsində rəsmi xəbərlərin respublika əhalisinə daha dolğun və əhatəli şəkildə çatdırılmasında, xüsusən də Azərbaycanda Sizin rəhbərliyinizlə müstəqil, hüquqi, demokratik dövlət quruculuğu, həyatımızda baş verən mütərəqqi dəyişikliklər haqqında, xalqımızın Ermənistan

tərəfindən məruz qaldığı hərbi təcavüzün ağır nəticələri haqqında həqiqətlərin bütün dünyaya çevik, operativ və inandırıcı şəkildə yayılmasında elektron informasiya vasitələrinin imkanlarından mükəmməl istifadə etməliyik. AzərTAc-ın fəaliyyətinin təkmilləşdirilməsi haqqında Sizin bu il 17 yanvar tarixli Fərmanınız da kollektivimizi məhz bu vəzifələrə istiqamətləndirir. Sizi əmin edirik ki, AzərTAc-ın əməkdaşları bu müqəddəs vəzifələrin əhəmiyyətini lazımınca dərk edir və bu sahədə səylərini günbəgün artıracaq, vətənimizə, dövlətimizə və xalqımıza daim sədaqətlə və fədakarlıqla xidmət edəcəklər.

Əziz Prezidentimiz!

AzərTAc-ın kollektivi müstəqil dövlətçiliyimizin inkişaf addımlarının, Sizin titanik fəaliyyətinizin salnaməçisi olması ilə xalqımızın müasir tarixini tam obyektiv şəkildə sənədləşdirməsi ilə fəxr edir. Bəli, biz tarix yazırıq. Bu tarixin yaradıcısı Azərbaycan xalqı, baş memarı isə uzaqgörən Prezidentimiz Heydər Əlirza oğlu Əliyevdir.

Agentliyimizin yubileyi münasibətilə göndərdiyiniz təbrik məktubunuzu AzərTAc-ın 80 illik tarixində ən dəyərli bir sənəd kimi qəbul edir, əməkdaşlarımızın zəhmətini yüksək qiymətləndirdiyinizə görə Sizə bir daha minnətdarlığımızı yetiririk.

Möhtərəm Prezident!

Sizə möhkəm cansağlığı arzulayırıq, uzun ömür





diləyirik. Xalqımızın xoşbəxt gələcəyi, Azərbaycanın qüdrətli dövlətə çevrilməsi naminə gərgin və səmərəli fəaliyyətinizdə ulu Tanrı Sizə daim yar olsun!

Dərin hörmət və ehtiramla,

**AzərTAc-ın kollektivi**
3 mart 2000-ci il.

## Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) fəaliyyətinin təkmilləşdirilməsi haqqında AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) fəaliyyətinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 17 yanvar tarixli, 260 nömrəli Fərmanının 4-cü və 5-ci bəndlərinin icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti QƏRARA ALIR:

1. "Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) işinin yaxşılaşdırılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1996-cı il 31 oktyabr tarixli, 152 nömrəli qərarının adından və mətnindən, həmin qərarla təsdiq edilmiş "Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) yeni strukturu"ndan, eləcə də "Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Dövlət Teleqraf Agentliyi işçilərinin əmək haqqı dərəcələri"ndən "Respublikası Nazirlər Kabineti yanında" sözləri çıxarılsın.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1996-cı il 31 oktyabr tarixli, 152 nömrəli





qərarı ilə təsdiq edilmiş "Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) yeni strukturu"na "15. Xarici dillərdə xəbərlər hazırlayan və yayan Baş redaksiya" sözləri, "işçilərin sayı" qrafasına "8" rəqəmi əlavə edilsin və "144" rəqəmi "152" rəqəmi ilə əvəz edilsin.

3. "AzərTAc-ın tərkibində yeni yaradılan "Xarici dillərdə xəbərlər hazırlayan və yayan Baş redaksiya" işçilərinin əmək haqqı müvafiq olaraq AzərTAc-ın strukturunda fəaliyyət göstərən Azərbaycan və Rus dillərində informasiya baş redaksiyaları işçilərinin əmək haqlarına uyğun olaraq müəyyən edilsin.

4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın:

AzərTAc-ın maddi-texniki bazasının müasir tələblər səviyyəsinə çatdırılması, o cümlədən AzərTAc-ın xarici ölkələrdəki müxbir məntəqələrinin texniki avadanlıqla təchiz olunması məqsədi ilə 2000-ci ilin dövlət büdcəsində nəzərdə tutulmuş Ehtiyat Fondundan 500.0 milyon manat, 2000-ci il yanvarın 17-dən etibarən AzərTAc-ın əməkdaşlarının əmək haqqının əsasən əlli faiz artırılması ilə əlaqədar 373,5 milyon manat - cəmi 873,5 milyon manat ayrılmasını təmin etsin, Agentliyin maddi-texniki təchizatı üzrə zəruri olan vəsaitin qalan hissəsinin isə 2001-ci ilin dövlət büdcəsi layihəsində nəzərə alınması üçün lazımi tədbirlər görsün;

AzərTAc-ın beynəlxalq əlaqələrinin xeyli genişlənməsi ilə əlaqədar, gələcəkdə dövlət büdcəsi layihələrini tərtib edərkən Agentliyə ayrılan rabitə xərclərinin artırılmasını nəzərə alsın.

5. Azərbaycan Respublikasının Rabitə Nazirliyinə tapşırılsın ki, Azərbaycan Dövlət Teleqraf Agentliyinə (AzərTAc-a) büdcə təşkilatları üçün nəzərdə tutulmuş tariflər əsasında rabitə xidmətlərinin göstərilməsini, eyni zamanda Agentliyin internet rabitəsi xidmətindən istifadə etməsi məqsədi ilə qlobal internet şəbəkəsinə qoşulmasını və bu şəbəkədə WEB səhifəsinin yerləşdirilməsini təmin etsin.

6. Bu qərarın icrasına nəzarət Azərbaycan Respublikası Nazirlər Kabineti İşlər İdarəsinin elm, mədəniyyət, xalq təhsili və sosial problemlər şöbəsinə həvalə edilsin.

**A.Rasizadə**
**Azərbaycan Respublikasının Baş naziri**
Bakı şəhəri, 15 mart 2000-ci il.





## "Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) fəaliyyətinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli 260 saylı Fərmanına müvafiq olaraq qərara alıram:

"Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

**Heydər Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 29 iyun 2001-ci il.

Azərbaycan Respublikası
Prezidentinin 2001-ci il "29"
iyun tarixli 516 nömrəli
Fərmanı ilə təsdiq edilmişdir

**Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) haqqında**

## ƏSASNAMƏ

### I. Ümumi müddəalar

1. Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) Azərbaycan Respublikası Prezidentinin 1995-ci il 3 mart tarixli 291 saylı və 2000-ci il 17 yanvar tarixli 260 saylı fərmanları əsasında fəaliyyət göstərir və Azərbaycan Respublikasının Prezidentinə tabedir.

2. AzərTAc ölkənin ictimai-siyasi, iqtisadi, sosial və mədəni həyatı barədə informasiya toplayan, onu kütləvi informasiya vasitələrinə (o cümlədən xarici ölkələrin informasiya vasitələrinə), Azərbaycan Respublikasının dövlət orqanlarına, idarə, təşkilat və müəssisələrə, ictimai birliklərə operativ surətdə çatdıran dövlət orqanıdır.

3. AzərTAc öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikası tərəfindən imzalanmış beynəlxaq müqavilələri və sazişləri, habelə bu Əsasnaməni rəhbər tutur.





4. AzərTAc hüquqi şəxsdir, müstəqil balansı, operativ idarəçilik hüququ ilə dövlət mülkiyyəti, müvafiq bank hesabları, Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri, Agentliyin Azərbaycan və ingilis dillərində adı əks olunmuş möhürü, müvafiq ştampları, öz emblemi və firma nişanı vardır.

5. AzərTAc-ın fəaliyyətinin maliyyələşdirilməsi Azərbaycan Respublikasının dövlət büdcəsi və qanunvericiliklə qadağan olunmayan digər mənbələr hesabına həyata keçirilir.

6. AzərTAc Bakı şəhərində yerləşir. Onun hüquqi ünvanı:

370000, Bakı şəhəri, Bülbül prospekti, 18.

### II. AzərTAc-ın vəzifələri və funksiyaları

7. AzərTAc-ın əsas vəzifəsi dövlət səviyyəsində rəsmi xəbərləri xalqa çatdırmaqdan və Azərbaycan Respublikası haqqında obyektiv məlumatları beynəlxalq miqyasda geniş yaymaqdan ibarətdir.

8. AzərTAc informasiyanın toplanması və yayılması sahəsində öz fəaliyyətini ölkədə və xaricdə baş verən hadisələri obyektiv və hərtərəfli işıqlandırmaq prinsipləri əsasında həyata keçirir.

9. AzərTAc öz fəaliyyətində Azərbaycan Respublikası Prezidentinin və Azərbaycan Respublikası vətəndaşlarının dövlət hakimiyyəti orqanlarının fəaliyyəti, daxili və xarici siyasət ilə bağlı doğru-düzgün və operativ informasiya almaq sahəsində qanuni hüquqlarını təmin edir.

10. AzərTAc bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrə uyğun olaraq aşağıdakı funksiyaları həyata keçirir:

10.1. Ölkənin daxili və xarici siyasətinin ən mühüm hadisələri haqqında, ictimai-siyasi, regional və beynəlxalq hadisələr barədə xəbərləri və fotoşəkilləri, Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və başqa dövlət hakimiyyəti orqan-larının rəsmi materiallarını kütləvi informasiya vasitələri, arzu edən bütün hüquqi və fiziki şəxslər üçün öz kanalları ilə və beynəlxalq internet şəbəkəsi vasitəsilə yayır;

10.2. Özünün nəşrlərini (qəzet, jurnal), informasiya bülletenlərini, çap, kompüter, foto, vizual və digər məhsullarını buraxır və onları Azərbaycan Respublikasında və xaricdə abunə, pərakəndə satış və fərdi yolu ilə, eləcə də internet şəbəkəsi vasitəsilə yayır;

10.3. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada, dövlətin siyasətinə uyğun olaraq və mövcud imkanlar





daxilində ölkədə və xaricdə özünün informasiya xidmətlərini (müxbir məntəqələrini, informasiya mərkəzlərini) təsis edir, yenidən qurur və ləğv edir;

10.4. Xarici ölkələrin informasiya agentlikləri və digər kütləvi informasiya orqanları ilə mübadilə və ya kommersiya şərtləri əsasında informasiya verilməsi (əldə edilməsi) haqqında müqavilələr bağlayır;

10.5. Müəyyən olunmuş qaydada informasiya sahəsində ixrac-idxal əməliyyatları aparır, təmsilçilik fəaliyyəti göstərir, kommersiya fəaliyyəti ilə məşğul olur;

10.6. Qanunvericiliyə uyğun olaraq müxtəlif idarə, təşkilat və müəssisələr ilə, Azərbaycan Respublikasında işləyən xarici şirkətlərlə birgə fəaliyyət haqqında müqavilələr bağlayır;

10.7. AzərTAc-ın maddi-texniki bazasının müasir tələblər və dünya standartları səviyyəsində inkişafı üçün tədbirlər görür;

10.8. Öz vəzifələrinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər funksiyaları həyata keçirir.

## III. AzərTAc-ın hüquqları

11. AzərTAc bu Əsasnamə ilə müəyyən edilmiş vəzifə və funksiyaları həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:

11.1. Dövlət hakimiyyəti orqanlarının

bəyanatlarını, rəsmi məlumatlarını almaq və onların adından yaymaq;

11.2. Dövlət hakimiyyəti orqanlarının fəaliyyəti ilə bağlı onlardan dəqiq və operativ məlumat almaq və AzərTAc-ın adından yaymaq;

11.3. Dövlətin və xalqın mənafeyi ilə bağlı ən mühüm mövzularda və günün aktual məsələləri barəsində dövlət hakimiyyəti orqanlarına sorğu və ya suallarla müraciət edib müvafiq məlumatlar və cavablar almaq və yaymaq;

11.4. AzərTAc-ın vəzifələrinə və funksiyalarına aid olmayan məlumatların və informasiyaların qəbulundan və yayılmasından imtina etmək;

11.5. Dövlətin siyasi, iqtisadi, sosial və xarici siyasətinin aktual məsələlərinə dair mətbuat konfransları və brifinqlər keçirmək;

11.6. Qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

### IV. AzərTAc-ın fəaliyyətinin təşkili

12. AzərTAc Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradıcılıq və təsərrüfat müstəqilliyinə malikdir. Öz plan və proqramlarını hazırlayır, idarəçiliyində olan dövlət əmlakından (balansında olan qeyri-yaşayış sahələrindən, əsas və dövriyyə vəsaitindən, habelə digər sərvətlərdən), qazandığı mənfəətdən qanunvericiliyə uyğun olaraq müstəqil istifadə edir.





13. AzərTAc-ın maliyyə vəsaiti aşağıdakı mənbələr hesabına formalaşır:

13.1. Dövlət büdcəsindən ayrılan vəsait;

13.2. İnformasiya və təsərrüfat fəaliyyətindən əldə olunan gəlir;

13.3. Azərbaycan Respublikasının və xarici ölkələrin təşkilatlarının, müəssisələrinin və ayrı-ayrı şəxslərin verdikləri pul vəsaiti, hər cür material (maddi) qiymətliləri;

13.4. Qanunvericiliyə zidd olmayan digər gəlirlər.

14. Azərbaycan Dövlət Teleqraf Agentliyinə (AzərTAc-a) Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin olunan Baş direktor rəhbərlik edir. Baş direktor AzərTAc-ın qarşısında duran vəzifələrin yerinə yetirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

15. AzərTAc-ın Baş direktorunun Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad edilən bir birinci müavini və iki müavini vardır.

16. Baş direktor:

16.1. Qanunvericiliyə və bu Əsasnaməyə müvafiq olaraq AzərTAc-ın işini təşkil edir;

16.2. AzərTAc-ın bütün xidmət və bölmələri, strukturları tərəfindən icra edilməli olan əmrlər, sərəncamlar, göstərişlər verir, qanunvericiliklə müəyyən edilmiş qaydada AzərTAc-ın struktur vahidlərini, xidmət və bölmələrini yaradır, onları

yenidən qurur və ləğv edir;

16.3. Müavinləri arasında vəzifə bölgüsü aparır;

16.4. AzərTAc-ın işçilərini vəzifəyə təyin və vəzifədən azad edir;

16.5. Qanunvericiliklə müəyyən olunmuş qaydada AzərTAc-ın əməkdaşları barəsində həvəsləndirmə və ya intizam tənbehi tədbirlərini həyata keçirir;

16.6. İşçilərin müəyyən olunmuş say tərkibi və əmək haqqı fondu həddində AzərTAc-ın ştat cədvəlini, onun saxlanması xərclərinin smetasını təsdiq edir.

17. AzərTAc-da Baş direktordan (kollegiyanın sədri), onun müavinlərindən, struktur bölmələrinin rəhbərlərindən ibarət olan və Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilən Kollegiya (cəmi 7 nəfər) yaradılır.

18. Kollegiya öz iclaslarında AzərTAc-ın fəaliyyətinin başlıca məsələlərini müzakirə edir, o cümlədən cari və perspektiv vəzifələri müəyyənləşdirir, müvafiq strukturların inkişaf etdirilməsi, Agentliyin maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı məsələləri nəzərdən keçirir, rəhbərlərin və digər məsul işçilərin hesabatlarını müzakirə edir.

19. Kollegiya öz iclaslarında müzakirə olunan məsələlər üzrə Agentliyin bütün əməkdaşları, xidmət və bölmələri tərəfindən yerinə yetirilməli olan qərarlar qəbul edir.

20. Kollegiyanın iclasları onun üzvlərinin





yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Kollegiyanın qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir.

21. Kollegiyanın qərarları bir qayda olaraq Baş direktor tərəfindən imzalanır və onun əmri ilə bağlı həyata keçirilir.

22. AzərTAc mühasibat uçotu, operativ uçot və statistika uçotu aparır, istehsal-təsərrüfat fəaliyyətinin bütün növləri üzrə müəyyən olunmuş qaydada hesabatlar hazırlayıb təqdim edir, hesabatların və balansların səhihliyini təmin edir.

**Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) işçilərinin maddi təminatının yaxşılaşdırılması haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) işçilərinin maddi təminatının yaxşılaşdırılması məqsədi ilə qərara alıram:

1. Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) Baş direktorunun aylıq vəzifə maaşı nazirin aylıq vəzifə maaşı, Baş direktorun 1-ci müavininin aylıq vəzifə maaşı nazirin 1-ci müavininin aylıq vəzifə maaşı, Baş direktorun müavininin aylıq vəzifə maaşı isə nazir müavininin aylıq vəzifə maaşı səviyyəsində müəyyən edilsin.

2. AzərTAc-ın digər işçilərinin aylıq vəzifə maaşları 1,5 dəfə artırılsın.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

- AzərTAc-ın iş fəaliyyətinin istirahət və bayram günləri (gecə növbəsi də daxil olmaqla) fasiləsizliyini təmin etmək məqsədi ilə onun işçilərinin əmək haqlarına əlavələrin və digər ödənişlərin məbləğini müəyyən etsin;

- AzərTAc-ın işçilərinin ştat sayının son həddini müəyyənləşdirib təsdiq etsin;





- bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

4. Bu Sərəncam 2003-cü il yanvarın 1-dən qüvvəyə minir.

**Heydər Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 28 dekabr 2002-ci il.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HEYDƏR ƏLİRZA OĞLU ƏLİYEVƏ

Möhtərəm cənab Prezident!

Sizi - yeni müstəqil Azərbaycan dövlətinin, dövlətçiliyinin banisini, siyasi memarını, yorulmaz təşkilatçısını və xalqımızın xilaskarını təşəbbüsçüsü və müəllifi olduğunuz 31 dekabr - Dünya azərbaycanlılarının həmrəyliyi günü və yeni - 2003-cü il münasibətilə təbrik etməkdən sonsuz fərəh və qürur hissi duyuruq.

Zati-aliləri, bu bayramların qəlbimizdə doğurduğu iftixar və sevinc hisslərinə kollektivimizə göstərdiyiniz daha bir atalıq qayğınız - "Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) işçilərinin maddi təminatının yaxşılaşdırılması haqqında" 2002-ci il 28 dekabr tarixli Sərəncamınız dərin minnətdarlıq duyğuları da əlavə etmişdir.

Cənab Prezident, Siz müstəqil ölkəmizdə demokratiyanın inkişafı, o cümlədən mətbuat və söz azadlığının təmin olunması üçün hər cür şərait yaratmısınız və bu proses getdikcə dərinləşməkdədir. Qətiyyətlə deyə bilərik ki, bu gün müstəqil Azərbaycan Respublikası Sizin qüdrətli zəkanız sayəsində bir çox başqa sahələrdə olduğu kimi, insan hüquqları və azadlıqlarının, bunun tərkib hissəsi olan mətbuat və söz azadlığının təmin edilməsi sahəsində də dünyanın əksər ölkələrindən





çox-çox irəliyə getmişdir və əslində, tarixi baxımdan zəngin ənənələri olan dövlətlərlə bir sıradadır. Buna görə də Sizin jurnalistlərin dostu olmağınız tamamilə qanunauyğun və təbiidir.

Möhtərəm cənab Prezident!

Sizin ölkəmizdə kütləvi informasiya vasitələrinə daimi diqqət və qayğınız AzərTAc-ın timsalında özünün ən bariz təzahürünü tapmışdır. Sizin 1995-ci ildən bəri AzərTAc-la bağlı imzaladığınız fərmanlar və sərəncamlar agentliyin işinin yaxşılaşdırılması, fəaliyyətinin təkmilləşdirilməsi üçün hərtərəfli zəmin yaratmışdır. Məhz Sizin sayənizdə ilk dəfə olaraq, AzərTAc-ın xarici ölkələrdə müxbirləri fəaliyyətə başlamış, beləliklə, ölkəmiz bu sahədə də beynəlxalq aləmə yol açmışdır.

Cənab Prezident, kollektivimiz Sizin göstərdiyiniz diqqət və qayğını həm də üzərinə düşən yüksək məsuliyyət kimi qəbul edir. Ölkəmizin həyatının bütün sahələrində islahatların uğurla aparılması və gözəl bəhrələr verməsi, xüsusilə neft strategiyasının həyata keçirilməsi, müstəqil Azərbaycanımızın beynəlxalq aləmdə nüfuzunun gündən-günə artması Sizin müdrik daxili və xarici siyasətinizin nəticəsidir. Bütün bunları təkcə respublikamızda deyil, həm də beynəlxalq miqyasda dəqiq və operativ işıqlandırmaq, doğma Azərbaycanımızı təbliğ etmək, Azərbaycan həqiqətlərini dünyaya yaymaq bizim bilavasitə vəzifəmiz, eyni zamanda Vətən, xalq qarşısında,

cənab Prezident, Sizin qarşınızda bocrumuzdur. Sizi əmin edirik ki, bu vəzifəni, bu borcu şərəflə, ləyaqətlə, qarşımıza qoyduğunuz yüksək tələblər səviyyəsində yerinə yetirmək üçün bütün imkanlardan istifadə edərək fədakarcasına işləyəcək, kollektivimizə göstərdiyiniz böyük etimadı doğruldacağıq.

2003-cü il ölkəmizin həyatında çox mühüm bir ictimai-siyasi hadisə - növbəti Prezident seçkilərinin keçirilməsi ilə əlamətdar olacaqdır. Kollektivimiz birmənalı şəkildə əmindir ki, bəzi bədxahların böhtan və iftiralarının əksinə olaraq, bu seçkilərdə də xalqımız Sizə, özünün ümummilli liderinə, zəmanəmizin qüdrətli siyasi və dövlət xadiminə, doğma Vətənimizin xoşbəxt gələcəyinin təminatçısına yekdilliklə səs verəcəkdir. AzərTAc-ın kollektivi isə seçki kampaniyasının informasiya təminatının ön cərgəsində gedəcək, sevimli və əziz Prezidentimizə ümumxalq dəstəyinin layiqincə işıqlandırılması və təbliği üçün bütün imkanlarını səfərbər edəcəkdir.

Əziz Prezidentimiz!

Sizi 31 dekabr - Dünya azərbaycanlılarının həmrəyliyi günü və qarşıdan gələn yeni - 2003-cü il münasibətilə kollektivimiz adından bir daha ürəkdən təbrik edir, Sizə, Azərbaycan xalqının ümidgahına Ulu Tanrıdan uzun ömür, möhkəm cansağlığı, ailə səadəti diləyir, müstəqil dövlətimizin tərəqqisi, ölkəmizin ərazi bütövlüyünün təmin





olunması naminə məqsədyönlü və yorulmaz fəaliyyətinizdə daha böyük uğurlar arzulayırıq.

Sizə sonsuz sevgi və məhəbbət hissləri bəsləyən və sədaqətini əməli işi ilə sübut etməyə çalışan AzərTAc-ın kollektivi adından dərin hörmət və ehtiramla,

**Aslan Aslanov**
**Baş direktor**
30 dekabr 2002-ci il.

**Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) işçilərinin əməyinin ödənilməsi şərtlərinin və ştat sayının tənzimlənməsi haqqında**
**AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİNİN QƏRARI**

"Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) işçilərinin maddi təminatının yaxşılaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 28 dekabr tarixli 1110 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti QƏRARA ALIR:

1. AzərTAc-ın işçilərinin (Baş direktor, Baş direktorun 1-ci müavini və Baş direktorun müavini vəzifələri istisna olmaqla) 1,5 dəfə artırılmış aylıq vəzifə maaşları bu qərarın 1 nömrəli əlavəsinə müvafiq olaraq müəyyən edilsin.

2. AzərTAc-ın yaradıcı işçilərinə kütləvi informasiya vasitələri üçün hazırladıqları materiallara görə ödənilən qonorarların məbləğləri bu qərarın 2 nömrəli əlavəsinə müvafiq olaraq müəyyən edilsin.

3. AzərTAc-ın işçilərinə hər il ən azı bir aylıq vəzifə maaşları həcmində maddi yardım və bir aylıq vəzifə maaşları həcmində mükafat ödənilsin.

4. AzərTAc-ın rəhbərinə ixtiyar verilsin ki,





əməyin ödənilməsi üçün nəzərdə tutulmuş vəsaitlər dairəsində vəzifə maaşlarına qanunvericiliklə müəyyən olunmuş əlavələr istisna edilməklə işçilərinə əməkdə yüksək nəticələrinə, xüsusi lazımi işləri vaxtında yerinə yetirmələrinə görə onların vəzifə maaşlarının 25 faizindən çox olmamaqla əlavələr təyin etsin.

5. AzərTAc-ın iş fəaliyyətinin fasiləsizliyini təmin etmək məqsədi ilə:

istirahət və bayram günlərində onun işə cəlb edilən işçilərinin gündəlik vəzifə maaşları üçqat məbləğdə müəyyən edilsin:

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 5 aprel tarixli 74 nömrəli qərarının 1-ci bəndindən fərqli olaraq gecə vaxtı və çoxnövbəli iş rejiminin axşam və gecə növbəsində yerinə yetirilən işin hər saatına görə işçiyə ödənilən əlavə haqq AzərTAc-ın işçiləri üçün saatlıq tarif (vəzifə) maaşının müvafiq olaraq 30 faizi, 30 faizi və 60 faizi həddində müəyyən olunsun.

6. AzərTAc-ın rəhbərliyi Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə razılaşdırmaqla AzərTAc-ın işçilərinin mükafatlandırılması qaydalarını, yaradıcı işçilərinin iş həcmi normalarını və kütləvi informasiya vasitələri üçün hazırlanan materiallara görə qonorarların verilmə qaydalarını hazırlayaraq 2 ay müddətində təsdiq etsin.

7. AzərTAc-ın iş fəaliyyətinin istirahət və bayram

günlərində fasiləsizliyi nəzərə alınaraq işçilərinin ştat sayının son həddi 168 vahid təsdiq edilsin.

8. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki:

AzərTAc-ın bu qərarla müəyyən edilmiş işçilərinin ştat sayına və əməyin ödənilməsi şərtlərinə uyğun olaraq maliyyə məsələlərini həll etsin;

AzərTAc-ın iş fəaliyyətinin fasiləsizliyini təmin etmək məqsədi ilə nəqliyyat vasitələri üçün tələb olunan əlavə yanacaq və rabitə xərcləri, o cümlədən dövlət rəhbərlərinin xarici ölkələrə səfəri zamanı AzərTAc-ın ezam edilən əməkdaşlarına mobil telefon rabitəsi üçün əlavə vəsaitin ayrılmasını təmin etsin.

9. AzərTAc Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Maliyyə Nazirliyi ilə birlikdə AzərTAc-ın 2003-cü il dövlət büdcəsində xarici ölkələrdə fəaliyyət göstərən müxbir məntəqələrinin maliyyələşməsi üzrə nəzərdə tutulan vəsait dairəsində Ukrayna Respublikasında yeni yaradılan müxbir məntəqəsinin fəaliyyətini təmin etsin.

10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1996-cı il 31 oktyabr tarixli 152 nömrəli "Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) işinin yaxşılaşdırılması haqqında" qərarın 1-ci, 2-ci və 3-cü bəndləri, "Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın)





fəaliyyətinin təkmilləşdirilməsi haqqında" 2000-ci il 15 mart tarixli 44 nömrəli qərarının 2-ci bəndi qüvvədən düşmüş hesab edilsin.

11. Bu qərar 2003-cü il yanvarın 1-dən qüvvəyə minir.

**A.Rasizadə**
**Azərbaycan Respublikasının Baş naziri**
Bakı şəhəri, 1 fevral 2003-cü il.

**"Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) və Rusiya Federasiyasının İnformasiya Teleqraf Agentliyi (İTAR-TASS) arasında informasiya sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə**

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. "Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) və Rusiya Federasiyasının İnformasiya Teleqraf Agentliyi (İTAR-TASS) arasında informasiya sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) baş direktoru Aslan Əhməd oğlu Aslanova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) baş direktoru Aslan Əhməd oğlu Aslanova verilməsi barədə Rusiya Federasiyası tərəfinə müvafiq bildiriş göndərsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 4 fevral 2004-cü il.





**2004-cü il fevralın 6-da Moskva şəhərində imzalanmış "Azərbaycan Respublikasının Dövlət Teleqraf Agentliyi (AzərTAc) və Rusiya Federasiyasının İnformasiya Teleqraf Agentliyi (İTAR-TASS) arasında informasiya sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə**

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. 2004-cü il fevralın 6-da Moskva şəhərində imzalanmış "Azərbaycan Respublikasının Dövlət Teleqraf Agentliyi (AzərTAc) və Rusiya Federasiyasının İnformasiya Teleqraf Agentliyi (İTAR-TASS) arasında informasiya sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Dövlət Teleqraf Agentliyinə (AzərTAc) tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 12 aprel 2004-cü il.

## "Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) işçilərinin əməyinin ödənilməsi şərtlərinin və ştat sayının tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 1 fevral tarixli 15 nömrəli qərarında dəyişiklik edilməsi barədə AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti QƏRARA ALIR:

1. "Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) işçilərinin əməyinin ödənilməsi şərtlərinin və ştat sayının tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 1 fevral tarixli 15 nömrəli qərarının 7-ci bəndində "168" rəqəmi "173" rəqəmi ilə əvəz edilsin.

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**A.Rasizadə**
**Azərbaycan Respublikasının Baş naziri**
Bakı şəhəri, 23 iyun 2004-cü il.





## "Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) və Bolqarıstan Teleqraf Agentliyi (BTA) arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. "Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) və Bolqarıstan Teleqraf Agentliyi (BTA) arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) baş direktoru Aslan Əhməd oğlu Aslanova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) baş direktoru Aslan Əhməd oğlu Aslanova verilməsi barədə Bolqarıstan Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 7 oktyabr 2004-cü il.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Möhtərəm cənab Prezident!

Sizə məruzə edirəm ki, 2005-ci il martın 1-də Azərbaycan Dövlət Teleqraf Agentliyinin - AzərTAc-ın 85 illiyi tamam olur.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkəmizdə demokratiyanın inkişafı, o cümlədən mətbuat və söz azadlığının təmin olunması üçün yaratdığı şərait və Sizin uğurla həyata keçirdiyiniz siyasət nəticəsində indi Azərbaycan bu sahədə dünyanın tarixi baxımdan zəngin ənənələri olan dövlətləri ilə bir sırada durur.

Ulu öndərimiz Heydər Əliyev AzərTAc-a daim böyük diqqət və qayğı göstərmişdir. Onun 1995-ci il 3 mart tarixli Fərmanı ilə dövlət informasiya agentliyi kimi AzərTAc-ın statusu müəyyən edilmişdir. Ümummilli liderimizin həmin vaxtdan sonra AzərTAc-la bağlı imzaladığı bir sıra fərman və sərəncamlar agentliyin işinin yaxşılaşdırılması, maddi-texniki bazasının möhkəmləndirilməsi, fəaliyyətinin təkmilləşdirilməsi, işçilərin rifahının yüksəldilməsi üçün hərtərəfli zəmin yaratmışdır. Kollektivimiz bu sənədlərin hər birini müdrik dövlət başçısının Azərbaycan mətbuatına böyük qayğısı və etimadının parlaq təzahürü, müstəqil respublikamız haqqında həqiqətləri dünyaya daha





geniş yaymaq barədə mübariz göstəriş kimi qəbul etmiş və bu məsul vəzifənin yerinə yetirilməsi üçün səylərini əsirgəməmişdir. Bütün bunların sayəsində AzərTAc dünya informasiya məkanına çıxmağa, ulu öndərimizin memarı olduğu müstəqil Azərbaycan haqqında həqiqətləri beynəlxalq aləmə daha operativ çatdırmağa başlamış, agentliyin xarici ölkələrdə ilk müxbir məntəqələri açılmışdır.

Ümummilli liderimizin AzərTAc-a göstərdiyi diqqət və qayğının bu gün Sizin tərəfinizdən davam etdirilməsi kollektivimizi daha səylə işləməyə ruhlandırır. Hazırda AzərTAc hər gün dünyanın 81 ölkəsinə Azərbaycan, ingilis və rus dillərində xəbərlər göndərir və eyni zamanda qəbul edir.

İndiyədək AzərTAc-ın Türkiyədə, ABŞ-da, Rusiyada, Fransada, Almaniyada, İranda, Ukrayna, Moldova və Belarusda, Gürcüstanda, Qazaxıstan və Orta Asiyada müxbir məntəqələri açılmışdır.

Sizin yorulmaz səyləriniz nəticəsində respublikamızın beynəlxalq nüfuzunun getdikcə artmasını, Avropaya inteqrasiyasının güclənməsini nəzərə alaraq, AzərTAc-ın Çində, Avstriyada, Polşada, İtaliyada, Baltikyanı respublikalarda və Səudiyyə Ərəbistanında da müxbir məntəqələrinin açılması məqsədəuyğun olardı.

Möhtərəm cənab Prezident,

Agentliyimiz üçün əlamətdar hadisənin - 85 illik yubileyin qeyd olunmasına razılıq verilməsini,

habelə kollektivin üzvlərindən bir qrupunun mükafatlandırılması məsələsinin nəzərdən keçirilməsini xahiş edirik.

Cənab Prezident, Sizə uzun ömür, möhkəm cansağlığı, müstəqil Azərbaycanın və xalqımızın xoşbəxt gələcəyi naminə ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq.

Dərin hörmət və ehtiramla,

**Aslan Aslanov**
**Baş direktor**
1 fevral 2005-ci il.





**"Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) və İtaliya Milli Mətbuat Birliyi Agentliyi (ANSA) arasında informasiya mübadiləsi və əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə**

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. "Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) və İtaliya Milli Mətbuat Birliyi Agentliyi (ANSA) arasında informasiya mübadiləsi və əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc) Baş direktoru Aslan Əhməd oğlu Aslanova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc) Baş direktoru Aslan Əhməd oğlu Aslanova verilməsi barədə İtaliya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 23 fevral 2005-ci il.

**Azərbaycan Dövlət Teleqraf Agentliyi - AzərTAc-ın əməkdaşlarının təltif edilməsi haqqında**
**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

Azərbaycan Dövlət Teleqraf Agentliyinin - AzərTAc-ın 85 illiyi münasibətilə AzərTAc-ın aşağıdakı əməkdaşları informasiya işinin təşkili və mətbuatın inkişafındakı xidmətlərinə görə "Tərəqqi" medalı ilə təltif edilsin:

Aslanov Aslan Əhməd oğlu
Musayev Vaqif Məmməd oğlu
İsmayılov Dağbəyi Mirzəxan oğlu
Məmmədov Oqtay Aydın oğlu
Cəfərli Elman Hüseyn oğlu
Əliyeva Elmira İsmayıl qızı
Bayramov Oqtay Eldar oğlu
İbrahimov Əsgər Əli oğlu
Sadıqova Nərgiz Murtuz qızı
Xəlilov Yaşar Əbdülrəhman oğlu
Yusifov Sabir Hacı oğlu
Niftəliyev Ağaqulu Məmmədqulu oğlu
Bağırov Azər Sadıq oğlu

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 28 fevral 2005-ci il.





**Azərbaycan Dövlət Teleqraf Agentliyi - AzərTAc-ın əməkdaşlarına Fəxri adların verilməsi haqqında**
**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

Azərbaycan Dövlət Teleqraf Agentliyinin - AzərTAc-ın 85 illiyi münasibətilə AzərTAc-ın aşağıdakı əməkdaşlarına informasiya işinin təşkili və mətbuatın inkişafındakı xidmətlərinə görə "Əməkdar mədəniyyət işçisi" fəxri adı verilsin:

Rzayeva Gülnarə Nazim qızı
Xıdırov Nazim Vəli oğlu
Höcətova Sevil Höcət qızı
Dadaşova Ülviyyət Mustafa qızı
Flamina Aleksandra Nikolayevna

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 28 fevral 2005-ci il.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Möhtərəm cənab Prezident!

Azərbaycan Dövlət Teleqraf Agentliyinin - AzərTAc-ın 85 illik yubileyi ərəfəsində agentliyin əməkdaşlarından bir qrupunun "Tərəqqi" medalı ilə təltif edilməsi və "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülməsi haqqında imzaladığınız Sərəncamlarla kollektivimizin sevincinə daha bir sevinc bəxş etdiniz. Biz bunu təkcə AzərTAc-ın kollektivinin əməyinə deyil, həm də zəngin ənənələri olan, bu il 130 illiyini qeyd edəcək Azərbaycan mətbuatının müstəqil dövlətimizin, xalqımızın milli mənafelərinə sədaqətlə xidmət edən, jurnalist adını uca tutan bütün həmkarlarımızın işinə verilən yüksək qiymət kimi qəbul edirik.

Zati-aliləri, bu yüksək mükafata görə Sizə - müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ulu öndərimiz Heydər Əliyevin müdrik siyasətinin layiqli davamçısına, ümummilli liderimizdən sonra xalqımızın öz taleyini etibar etdiyi Prezidentimizə bütün kollektivimiz adından sonsuz minnətdarlığımızı bildiririk.

Möhtərəm cənab Prezident, xalqımızın dahi oğlu Heydər Əliyev respublikamızda mətbuat və söz azadlığının təmin olunması üçün hər cür şərait yaratmışdı və jurnalistlərin onu özlərinin dostu





hesab etməsini yüksək qiymətləndirirdi. Tam əminliklə deyə bilərik ki, bu, dövlət başçısı ilə KİV nümayəndələri arasında münasibətlər baxımından, bəlkə də dünya təcrübəsində nadir hallardan biri idi. Ümummilli liderimiz respublikaya rəhbərlik etdiyi bütün dövrlərdə AzərTAc-a da daim böyük diqqət və qayğı göstərmişdir. Onun 1995-ci ildən etibarən AzərTAc-la bağlı imzaladığı Fərman və Sərəncamlar agentliyin işinin yaxşılaşdırılması və fəaliyyətinin təkmilləşdirilməsi üçün hərtərəfli zəmin yaratmışdır. Məhz bunun sayəsində AzərTAc dünya informasiya məkanına çıxmağa başlamış, xarici ölkələrdə ilk müxbir məntəqələrini açmışdır.

Hörmətli cənab Prezident, ulu öndərimizin AzərTAc-a göstərdiyi diqqət və qayğının Sizin tərəfinizdən də davam etdirilməsi kollektivimizi daha səylə işləməyə, Azərbaycan həqiqətlərini dünyada geniş yaymaq üçün yeni yollar və vasitələr axtarmağa sövq edir. AzərTAc beynəlxalq əlaqələrini getdikcə genişləndirir, dünyanın aparıcı informasiya agentlikləri ilə ikitərəfli səviyyədə və regional qurumlar çərçivəsində əməkdaşlıq yaradır. Fərəhlə bildiririk ki, hazırda AzərTAc hər gün dünyanın 60-dan çox ölkəsinə Azərbaycan, ingilis və rus dillərində xəbərlər göndərir.

Zati-aliləri cənab Prezident, əmin ola bilərsiniz ki, dahi Heydər Əliyevin siyasi xəttinin bütün istiqamətlərdə davam etdirilməsi, beynəlxalq

aləmdə Azərbaycanın nüfuzunun daha da yüksəldilməsi, respublikamızın dinamik sosial-iqtisadi inkişafına nail olunması sahəsində Sizin həyata keçirdiyiniz ardıcıl və məqsədyönlü tədbirlərin informasiya təminatı, müstəqil respublikamız haqqında həqiqətlərin dünyada daha geniş yayılması üçün kollektivimiz bundan sonra da bütün imkanlarını səfərbər edəcəkdir.

Möhtərəm cənab Prezident, kollektivimizin əməyinə verdiyiniz yüksək qiymətə görə Sizə bir daha minnətdarlığımızı bildirir, müstəqil Azərbaycanımızın hər cəhətdən güclü dövlətə çevrilməsi, xalqımızın xoşbəxt gələcəyi naminə çətin və şərəfli işinizdə yeni-yeni uğurlar diləyirik.

AzərTAc-ın kollektivi adından dərin hörmət və ehtiramla

**Aslan Aslanov**
**Baş direktor**
1 mart 2005-ci il.





**2004-cü il oktyabrın 7-də Bakı şəhərində imzalanmış Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) və Bolqarıstan Teleqraf Agentliyi (BTA) arasında "Əməkdaşlıq haqqında Saziş"in nəzərə alınması barədə**

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. 2004-cü il oktyabrın 7-də Bakı şəhərində imzalanmış Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) və Bolqarıstan Teleqraf Agentliyi (BTA) arasında "Əməkdaşlıq haqqında Saziş" nəzərə alınsın.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 23 mart 2005-ci il.

Unudulmaz anlar...





































# Məqalələr,
# Müsahibələr,
# Xatirələr...

# Heydər Əliyev və AzərTAc

2005-ci il martın 1-də Azərbaycan Dövlət Teleqraf Agentliyinin - AzərTAc-ın 85 illiyi tamam olmuşdur. Agentliyin 85 illik ömrünün tam bir qərinəsi bilavasitə ümummilli liderimiz Heydər Əliyevin siyasi hakimiyyətdə olduğu dövrə təsadüf edir. Bu gün AzərTAc-ın beynəlxalq əlaqələrinin genişlənməsi, dünya informasiya məkanına çıxması məhz ulu öndərimizin qayğısı sayəsində mümkün olmuşdur.

Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyev həm də müasir mətbuatımızın inkişafında əvəzsiz xidmətlər göstərmiş, onun böyük qayğıkeşi və himayədarı olmuşdur. Bu bir həqiqətdir ki, Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbərliyə başlayanda respublikamız uzun illər tərkibində olduğu Sovetlər İttifaqında o qədər də tanınmırdı. Doğrudur, xalqımız bütün dövrlərdə dünya şöhrətli ədəbiyyat, mədəniyyət, elm xadimləri yetirmişdi və onların xidmətləri həmin sahələrin mütəxəssislərinə yaxşı bəlli idi. Lakin bütövlükdə Azərbaycanın bir ölkə,





respublika kimi həm keçmiş İttifaqda, həm də getdikcə dünyada tanınması Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun müdrik, uzaqgörən siyasəti, yorulmaz fəaliyyəti, doğma xalqına sonsuz məhəbbəti sayəsində 1970-80-ci illərdə respublika nəinki gerilikdən, ətalətdən xilas oldu, İttifaqda ön sıralara çıxdı, eyni zamanda, Azərbaycan dünyanın diqqətini cəlb etməyə başladı.

Qətiyyətlə demək lazımdır ki, Azərbaycan mətbuatının, xüsusilə də Azərbaycan Dövlət Teleqraf Agentliyinin - keçmiş Azərinformun inkişafı da yüksəliş yoluna qədəm qoymuş respublikamızın əldə etdiyi uğurlarla sıx bağlı olmuşdur. Yəni iqtisadiyyatı, sənayesi ildən-ilə görünməmiş sürətlə inkişaf edən, bütünlüklə yenidən qurulan Azərbaycanda mətbuat, xüsusilə də informasiya agentliyi diqqətdən kənarda qala bilməzdi. Heydər Əliyev Azərinformun rəhbərliyi ilə müntəzəm olaraq görüşür, respublikanın informasiya siyasətinin təkmilləşdirilməsi ilə əlaqədar konkret tapşırıqlar verir, dəqiq fəaliyyət istiqamətini müəyyənləşdirirdi. Bununla yanaşı o, Azərinformun maddi-texniki bazasının möhkəmləndirilməsinə, iş şəraitinin yaxşılaşdırılmasına, problemlərin vaxtında həll olunmasına da xüsusi diqqət yetirirdi. Təsadüfi deyil ki, məhz o dövrdə Azərinformun işçilərinin böyük bir hissəsi mənzillə təmin olundu, dövlət mükafatları ilə təltif edildi.

Respublika rəhbərinin köməyi sayəsində

Azərinform çox nüfuzlu bir quruma çevrildi. Heydər Əliyevin diqqəti, qayğısı ilə əhatə olunmuş agentliyin əməkdaşları respublikanın əzəmətli yüksəlişindən bəhs edən xəbərləri ilə böyük sovet imperiyasının əsas informasiya qurumunun - SİTA-nın teletayp lentlərində daha çox yer tutmağa nail olurdular. Azərbaycandakı misli görünməmiş quruculuq işləri haqqında informasiyalar "SİTA xəbər verir" qrifi ilə Moskvanı aşıb bütün dünyaya da yol açırdı. Əlbəttə, o dövrdə bu, heç də asan məsələ deyildi. Lakin Heydər Əliyevin şəxsi nüfuzu, qüdrəti bütün sədləri aşmağa imkan verirdi. SİTA kimi dünyanın nəhəng informasiya maşınının sükançıları artıq SSRİ rəhbərliyinin də böyük rəğbət bəslədiyi, hesablaşdığı Heydər Əliyevin sayəsində Azərbaycanın qazandığı böyük uğurlar barədə xəbərləri, həm də dünyaya yaymağa, Azərinforma hər cür kömək göstərdiklərini sübut etməyə çalışırdılar. Məhz 1970-ci illərdə SİTA özünün Moskvadakı baş ofisini ilk dəfə tam kompüterləşdirməyə başlayanda Heydər Əliyevə hörmət əlaməti kimi İttifaq respublikaları arasında birinci olaraq Azərinformu o dövrün müasir "Videoton", bir qədər sonra isə "Olivetti" markalı kompüterləri ilə təchiz etdilər. Beləliklə, Azərinform da SİTA-nın müttəfiq respublikalardakı filialları arasında ön mövqeyə çıxmağa nail oldu. Azərinformun xəbərləri SİTA-nın gündəlik lentlərində müntəzəm yer alırdı.





Lakin çox təəssüf ki, 1987-ci ildə Heydər Əliyev Siyasi Büronun üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən istefa verdikdən sonra Azərinformun həyatında da tənəzzül dövrü başlandı. Azərbaycana səriştəsiz, idarəetmə bacarığı olmayan, xalqdan uzaq insanların rəhbərlik etdiyi illərdə Azərinform vaxtilə gərgin səylər hesabına qazandığı nüfuzunu itirirdi. 1990-cı ildə sovet qoşunları Bakıda 20 Yanvar qırğını törətdilər, Ermənistan silahlı qüvvələri Azərbaycan torpaqlarını işğal etdilər, 1992-ci ildə Xocalı yer üzündən silindi. Lakin Azərinform xalqın haqq səsini dünyaya çatdıra bilmədi. Azərbaycan, sözün əsil mənasında, informasiya blokadasında qaldı, ermənilərin yalan və uydurmaları isə bütün dünyaya yayılırdı.

Ayrı-ayrı siyasi oyunbazların diqqətindən kənarda qalmış AzərTAc o dövrün çətinliklərinə tab gətirməyərək daha da ağır vəziyyətə düşdü, hətta dövlət büdcəsindən maliyyələşdirmədən də çıxarılaraq, əslində, heç bir statusu olmayan bir quruma çevrildi.

Heydər Əliyev 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə Azərbaycanda yenidən siyasi rəhbərliyə gəldikdən sonra AzərTAc-a münasibət dəyişdi və birinci növbədə, bu informasiya qurumunun statusunun müəyyənləşdirilməsi və onun normal fəaliyyətinin təmin edilməsi üçün təsirli tədbirlər görüldü.

Qətiyyətlə deyə bilərik ki, mətbuatın cəmiyyətdə rolunu, təsir gücünü Azərbaycanda dövlət rəsmilərindən ilk dəfə məhz Heydər Əliyev lazımınca qiymətləndirmişdir. Doğrudur, sovet dövründə indiki anlamda azad mətbuat yox idi. Müstəqil qəzetlərdən, özəl telekanallardan söhbət belə gedə bilməzdi. Həddindən artıq ciddi senzura fəaliyyət göstərirdi, xüsusən tənqidi yazılarda müəyyən edilmiş çərçivələrdən kənara çıxmaq olmazdı. Lakin Heydər Əliyev Azərbaycanda yerli mətbuata imkan daxilində sərbəstlik verir, onun ictimai mövqeyinin möhkəmlənməsinə, nüfuzunun artmasına qayğı göstərirdi. Mətbuatın hər hansı ciddi çıxışı onun diqqətindən yayınmırdı.

Heydər Əliyevin Azərbaycan mətbuatı qarşısındakı ən böyük xidmətlərindən biri ondan ibarətdir ki, o, mətbuatımızın həmişə milli ruhlu olması barədə düşünür, yeri gələndə cürbəcür təzyiqlərdən qoruyurdu.

Bu mənada onun 1997-ci ilin oktyabrında Azərbaycan yazıçılarının X qurultayında dediyi sözlər çox xarakterikdir: "...Məsələn, mən "Qobustan" jurnalını xatırlayıram. O yarananda əleyhinə nə qədər hərəkətlər oldu. Mənim xatirimdədir, biri gəlirdi ki, nə bilim, millətçilik ideyaları yayır, biri gəlirdi ki, bizim quruluşun əleyhinə ideyalar yayır, biri o tərəfdən, biri bu tərəfdən gəlirdi. Mən də götürürdüm, baxırdım bu "Qobustan" jurnalına. Görürdüm burada bunların





dedikləri şey yoxdur, amma bizim üçün lazım olan şeylər çoxdur. Ona görə də "Qobustan" jurnalı yaşadı. Bu gün məmnuniyyət hissi ilə deyirəm - "Qobustan" jurnalı o vaxt çox böyük işlər gördü.

Amma təkcə "Qobustan" jurnalı deyildi. "Azərbaycan" jurnalını, "Ulduz" jurnalını götürün. Bunlar dövlət jurnalları idi, amma bu jurnallarda siz nə istəyirdiniz, onu da dərc edirdiniz, heç bir məhdudiyyət yox idi. Kim nə istəyirdi, onu da dərc edirdi. Mən bu gün iftixar hissi ilə deyə bilərəm: 1969-cu ildən - Azərbaycanın rəhbəri olduğum zamandan indiyə qədər bir şairin, bir yazıçının əsəri qadağan edilməyibdir, bir şairin, bir yazıçının əsərinin qarşısı alınmayıbdır".

Bu, Heydər Əliyevin milli ideyaya - azərbaycançılığa bağlılığını göstərən məqam olmaqla yanaşı, onun həm də milli mətbuata, Azərbaycanın milli mənəvi dəyərlərini yayan və təbliğ edən kütləvi informasiya vasitələrinə qayğısının bir nümunəsidir. Yeri gəlmişkən, həmin qurultaydan az sonra Prezident Heydər Əliyevin imzaladığı Fərmanla "Azərbaycan", "Qobustan", "Ulduz", "Literaturnı Azerbaydjan" jurnalları və "Ədəbiyyat qəzeti" dövlət büdcəsinin vəsaiti hesabına nəşr edilməyə başladı. Bu, postsovet məkanında ilk belə hadisə idi.

"Mən o jurnalistə minnətdar olacağam ki, nöqsanları üzə çıxarsın və biz də işimizdə bundan istifadə edək", - deyən Heydər Əliyev bununla azad

mətbuata həm də güclü mənəvi dəstək verir, KİV işçilərini mövcud nöqsanların aradan qaldırılması işində fəal iştirak etməyə çağırırdı. Bu, dövlətin söz və fikir azadlığına, mətbuatın roluna verdiyi böyük ictimai dəyər kimi qiymətləndirilməlidir.

Heydər Əliyevin ölkədə söz və mətbuat azadlığının tam bərqərar olması istiqamətində atdığı ən ciddi addımlardan biri senzuranın ləğv edilməsi idi. Prezidentin 1998-ci il avqustun 6-da imzaladığı "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Fərman kütləvi informasiya vasitələrinin sərbəst inkişafı, onların cəmiyyətin dinamik şəkildə demokratikləşməsinə təsir edən qüdrətli vasitəyə çevrilməsi yolunda dövlət siyasətinin həyata keçirilməsində əhəmiyyətli bir addım oldu.

Eyni zamanda, həmin Fərmanla Nazirlər Kabinetinə kütləvi informasiya vasitələrinin maddi-texniki vəziyyətinin yaxşılaşdırılmasını, onlara dövlət qayğısının artırılmasını nəzərdə tutan tədbirlər proqramının layihəsini hazırlamaq tapşırılmışdı. Nəticədə, kütləvi informasiya vasitələri 1998-ci ilin sonundan etibarən əlavə dəyər vergisindən azad olundu. Onu da deyək ki, bu güzəştin illik məbləği 7 milyard manat təşkil edirdi. Bu, bütün MDB məkanında bənzəri olmayan bir hadisə idi. Prezident Heydər Əliyevin 2000-ci il martın 6-da imzaladığı Sərəncamla isə "2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması haqqında tədbirlər Proqramı" təsdiq olundu.





2001-ci il dekabrın 18-də Prezident Heydər Əliyev ölkənin əsas kütləvi informasiya vasitələrinin və jurnalist təşkilatlarının rəhbərlərini qəbul edərək, mətbuatın problemləri barədə geniş fikir mübadiləsi aparmışdı. Həmin görüşdən sonra müstəqil qəzetlərin "Azərbaycan" nəşriyyatına olan borclarının ödənilməsi "donduruldu", qəzet kağızı idxalına dövlət rüsumunun ləğvi, qəzetlərin iqtisadi müstəqilliyinin artırılması, onlara güzəştli kreditlərin verilməsi kimi vacib məsələlər həll edildi.

Ümumiyyətlə, ümummilli liderimiz müstəqil Azərbaycanda mətbuatın problemlərinin həlli ilə bağlı 10-dək Sərəncam və Fərman imzalamışdır.

Bütün bunların nəticəsidir ki, Azərbaycan Prezidenti Heydər Əliyev 2001-ci ildə "Jurnalistlərin dostu" mükafatına layiq görüldü. Bu qərar 62 respondent - kütləvi informasiya vasitələrinin və jurnalist təşkilatlarının rəhbərləri və ekspertləri arasında keçirilmiş sorğunun nəticələrinə görə qəbul edilmişdi. Ulu öndərimizin təqdimat mərasimində dediyi "Azərbaycanın böyük tarixi var. Bu böyük tarixə nəzər salsaq görərik ki, heç vaxt Azərbaycanda söz bu qədər azad olmayıbdır, fikir bu qədər azad olmayıbdır, mətbuat bu qədər azad olmayıbdır", - sözləri indi də aktual səslənir.

Xüsusi vurğulamaq istərdim ki, ümummilli liderimizin siyasi hakimiyyətdə olduğu illərdə Azərbaycan jurnalistləri onunla ünsiyyət sayəsində yeni bir məktəb də keçmişlər. Bu gün bu məktəbi haqlı olaraq, Heydər Əliyevin jurnalistika məktəbi adlandırırlar.

Ulu öndərimizin 1995-ci ildən etibarən Azərbaycan Dövlət Teleqraf Agentliyi ilə bağlı imzaladığı Fərman və Sərəncamlar AzərTAc-ın işinin yaxşılaşdırılması və fəaliyyətinin təkmilləşdirilməsi üçün hərtərəfli zəmin yaratmışdır.

"Azərbaycan Teleqraf Agentliyinin (AzərTAc-ın) yenidən təşkil edilməsi haqqında" Prezidentin 3 mart 1995-ci il tarixli Fərmanının məqsədi dövlət səviyyəsində rəsmi xəbərlərin xalqa çevik çatdırılmasında, Azərbaycan haqqında operativ məlumatların beynəlxalq miqyasda geniş yayılmasında agentliyimizin imkanlarından daha dolğun istifadə edilməsinə şərait yaratmaq idi.

Bu Fərmanla Azərbaycan Teleqraf Agentliyi əsasında Nazirlər Kabineti yanında Dövlət Teleqraf Agentliyi yaradıldı. Bu, hər şeydən əvvəl, AzərTAc-a rəsmi dövlət informasiya orqanı statusu verilməsi demək idi. Fərmanda Nazirlər Kabinetinə AzərTAc-ın maddi-texniki bazasının müasir tələblərə uyğunlaşdırılması və onun dünya standartları səviyyəsində fəaliyyət göstərməsi üçün lazımi tədbirlər görmək tapşırılmışdı.

Fərmanın icrası ilə bağlı Nazirlər Kabineti





iyulun 3-də "Azərbaycan Teleqraf Agentliyinin (AzərTAc-ın) yenidən təşkil edilməsi haqqında" qərar qəbul etdi. Agentlik, əsasən dövlət büdcəsindən maliyyələşdirilməyə keçirildi. Bundan əlavə, Maliyyə Nazirliyinə agentliyin maddi-texniki bazasının müasir tələblərə uyğunlaşdırılmasını və digər zəruri ehtiyacları təmin etmək məqsədi ilə lazımi vəsait ayrılması tapşırıldı. AzərTAc-ın Türkiyədə, ABŞ-da, İranda, Almaniyada, İngiltərədə, Türkmənistanda, Rusiyada, Gürcüstanda və Özbəkistanda müxbir məntəqələrinin açılmasına icazə verildi.

Ümummilli liderimiz AzərTAc-ın müasir tələblər səviyyəsində fəaliyyət göstərməsini, işçilərin maddi təminatının yaxşılaşdırılmasını daim diqqət mərkəzində saxlayırdı. 1996-cı il iyunun 29-da "Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) işinin yaxşılaşdırılması haqqında" Sərəncamda Nazirlər Kabinetinə tapşırıldı ki, agentliyin işinin spesifik xüsusiyyətlərini, müasir dövrdə dövlət siyasətinin həyata keçirilməsində rəsmi informasiya işinin böyük əhəmiyyətini nəzərə alaraq, müstəsna hal kimi, işçilərin əmək haqqını AzərTAc-ın rəhbərliyi tərəfindən təqdim olunmuş dərəcələr səviyyəsində müəyyən etsin və bu məqsədlə lazımi vəsait ayırsın. Sənədə görə, xarici ölkələrdə müxbir məntəqələrinin açılması və onların fəaliyyətinin maliyyələşdirilməsi məsələləri 1996-cı ilin ikinci

yarısında həll edilməli idi. Şəhər və rayonların icra hakimiyyəti başçılarına isə AzərTAc-ın zona informasiya mərkəzlərinin fəaliyyəti üçün lazımi şərait yaratmaq tapşırıldı. Sərəncamın icrasını təmin etmək üçün respublika hökuməti oktyabrın 31-də müvafiq qərar qəbul etdi.

Prezident Heydər Əliyevin müdrik daxili və xarici siyasəti sayəsində respublikamızın beynəlxalq əlaqələri genişlənir, müstəqil dövlətimizin dünya miqyasında nüfuzu getdikcə artır, ölkəmizdə gedən hüquqi dövlət quruculuğuna beynəlxalq aləmdə maraq güclənirdi. Belə bir şəraitdə Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması üçün agentliyin fəaliyyətinin günün tələbləri səviyyəsində təkmilləşdirilməsi tələb olunurdu. Bunu nəzərə alan ümummilli liderimiz 2000-ci il yanvarın 17-də "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) fəaliyyətinin təkmilləşdirilməsi haqqında" Fərman verdi. Həmin Fərmanla AzərTAc Nazirlər Kabinetinin tabeliyindən çıxarılaraq, Prezidentə tabe olan müstəqil qurum - Azərbaycan Dövlət Teleqraf Agentliyi adlandırıldı, agentliyin tərkibində xarici dillərdə xəbərlər hazırlayan və yayan baş redaksiya yaradıldı, digər müvafiq tədbirlər görüldü.

Həmin il martın 1-də agentliyimizin 80 illiyi tamam olurdu. Şübhəsiz ki, bu əlamətdar hadisə Heydər Əliyev kimi həssas insanın diqqətindən





yayına bilməzdi. Ulu öndərimiz fevralın 29-da Azərbaycan Dövlət Teleqraf Agentliyinin kollektivinə təbrik məktubu ünvanladı. Məktubda deyilirdi: "Son illər AzərTAc-ın fəaliyyətində xüsusi dönüş yaranmış, onun maddi-texniki bazasının gücləndirilməsi, işinin təkmilləşdirilməsi və daha operativ, səmərəli təşkili üçün mühüm tədbirlər görülmüşdür". Məktubda kollektivin vəzifələri də konkret şəkildə müəyyənləşdirilirdi: "AzərTAc-ın kollektivi milli jurnalistikamızın nəcib vətənpərvərlik ənənələrini ləyaqətlə davam etdirməklə bərabər, dünya informasiya məkanında layiqli yer tutmaq üçün daha əzmlə çalışmalıdır. Bu gün Azərbaycan dövləti ölkə Konstitusiyasında təsbit olunmuş fikir və söz azadlığı, siyasi plüralizm prinsiplərinə sadiq qalaraq, kütləvi informasiya vasitələrinin inkişafı üçün hərtərəfli şərait yaratmışdır və bu sahədəki səylər bundan sonra da dönmədən davam etdiriləcəkdir".

Martın 15-də Nazirlər Kabineti Prezidentin 17 yanvar tarixli Fərmanının icrası ilə bağlı müvafiq qərar qəbul etdi. Qərara əsasən, AzərTAc-ın maddi-texniki bazasının müasir tələblər səviyyəsinə çatdırılması, o cümlədən xarici ölkələrdəki müxbir məntəqələrinin texniki avadanlıqla təchiz olunması məqsədi ilə 500 milyon manat, 2000-ci il yanvarın 17-dən etibarən əməkdaşların əmək haqqının 50 faiz artırılması ilə əlaqədar 373,5 milyon manat vəsait ayrıldı.

2001-ci il iyunun 29-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Fərman imzaladı.

Qayğıkeş insan, müdrik siyasətçi təkcə agentliyin maddi-texniki bazasının möhkəmləndirilməsinə yox, həm də işçilərin maddi təminatına da diqqət yetirirdi. 2002-ci il dekabrın 28-də "Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) işçilərinin maddi təminatının yaxşılaşdırılması haqqında" Sərəncam bunun bariz nümunəsi idi. Sərəncama görə baş direktorun, onun birinci müavini və müavininin aylıq vəzifə maaşı, müvafiq olaraq nazirin, onun birinci müavini və müavininin aylıq vəzifə maaşı səviyyəsində müəyyən edildi, digər işçilərin aylıq vəzifə maaşları 1,5 dəfə artırıldı. Bundan əlavə, istirahət və bayram günləri də daxil olmaqla, agentliyin gecə-gündüz fasiləsiz fəaliyyət göstərməsini təmin etmək məqsədi ilə işçilərin əmək haqlarına əlavələr və digər ödənişlər müəyyənləşdirildi.

Bütün bunların sayəsində agentliyin maddi-texniki bazası möhkəmləndirildi, ən müasir avadanlıq alındı. 2003-cü ilin martında AzərTAc üçün xaricdən respublikada oxşarı olmayan foto-laboratoriya alınıb quraşdırıldı.

Ulu öndərimizin bu diqqət və qayğısının onun layiqli varisi Prezident İlham Əliyev tərəfindən





davam etdirilməsi kollektivimizin üzvlərini bütün imkanlardan istifadə edərək daha böyük səylə çalışmağa ruhlandırır.

Müstəqil Azərbaycanın rəsmi informasiya agentliyinin dünya informasiya məkanına çıxması, Azərbaycan həqiqətlərinin daha geniş coğrafiyada yayılması Heydər Əliyevin ən böyük arzularından biri idi. Fərəhlə deyə bilərik ki, hazırda AzərTAc dünyanın İTAR-TASS, Anadolu Agentliyi, Sinxua, ANSA (İtaliya), BTA (Bolqarıstan) kimi tanınmış agentlikləri ilə ikitərəfli əməkdaşlıq haqqında sazişlər imzalamışdır. Bu sazişlərin bilavasitə tərəfdaşlarımızın təşəbbüsü ilə imzalanması AzərTAc-ın beynəlxalq miqyasda nüfuzunun getdikcə artmasının daha bir sübutudur.

2004-cü ilin sentyabrında isə agentliyimizin həyatında çox əlamətdar hadisə baş vermiş, AzərTAc Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) tam hüquqlu üzvü olmuşdur. Bunun sayəsində AzərTAc-ın informasiyaları OANA-nın xüsusi saytında yerləşdirilir və onlardan təşkilatın üzvü olan digər 34 ölkənin 39 informasiya agentliyi istifadə edə bilir. AzərTAc isə, öz növbəsində, həmin agentliklərin OANA-nın saytına daxil olan bütün informasiyalarından istifadə etmək imkanı qazanmışdır.

Xatırladaq ki, Azərbaycan informasiya agentliyi bu təşkilatda təmsil olunan dördüncü MDB

dövlətidir. Ümumiyyətlə, indi AzərTAc hər gün dünyanın 80-dən çox ölkəsinə Azərbaycan, ingilis və rus dillərində xəbərlər göndərir.

Ümummilli liderimizin qarşımıza qoyduğu tələblərdən biri xarici dövlətlərdəki səfirliklərimizə Azərbaycanın gündəlik həyatı barədə operativ informasiya əldə etmək imkanı yaratmaq idi. AzərTAc-ın yeniləşdirilmiş saytı bunu təmin etmişdir. Yeri gəlmişkən xatırladım ki, agentliyimizin saytına gün ərzində 1000-dən çox müraciət olur. AzərTAc-ın saytı BMT-nin Cenevrə ofisinin İnformasiya Mərkəzinin internet-səhifəsində yerləşdirilmişdir. AzərTAc İspaniyanın "Aktualidad" jurnalının təsis etdiyi "Nüfuz və keyfiyyətə görə" beynəlxalq mükafatına (2004-cü il), xüsusi keyfiyyət və yüksək texnologiya üçün Madriddəki Biznes Təşəbbüsü Mərkəzinin "Avropaya qapı" beynəlxalq qızıl mükafatına (2005-ci il) layiq görülmüşdür.

Azərbaycan xalqının ümummilli liderinin ruhu şad ola bilər, bu gün AzərTAc onun istədiyi səviyyəyə yaxınlaşmaqdadır. İnformasiyaların toplanması, hazırlanması və ötürülməsində maksimum operativliyə nail olmaq üçün yeni yollar axtarılır, texniki-təşkilati tədbirlər görülür. Bütün bunlar getdikcə öz bəhrəsini verir, gündəlik informasiyaların həcmi on dəfədən çox artmışdır. Daha bir neçə xarici ölkədə müxbir məntəqələrinin açılması nəzərdə tutulur.





Danılmaz həqiqətdir ki, xalqımızın, bütün türk dünyasının dahi oğlu Heydər Əliyev vaxtilə respublikamız ətrafında yaranmış informasiya blokadasının yarılmasında misilsiz xidmətlər göstərmişdir. O, Azərbaycan həqiqətlərinin dünyaya yayılması üçün hər bir imkandan istifadə edirdi. Fəxr edirik ki, ulu öndərin bu fəaliyyətinə AzərTAc da öz töhfəsini verməyə çalışmışdır.

Hazırda Azərbaycanda çoxsaylı qəzet və jurnallar çıxır, özəl informasiya agentlikləri fəaliyyət göstərir, bu, təbiidir. Amma arzu edərdim ki, həmkarlarımız faktlara, hadisələrə münasibətdə peşə etikasını gözləsinlər, kimlərinsə ambisiyasına, siyasi maraqlarına xidmət etməyə çalışmasınlar, şayiəni informasiyaya çevirməsinlər. Bu yol cəmiyyətə yalnız ziyan vurur.

Bu günlərdə AzərTAc öz həyatında əlamətdar bir hadisəni, ölkəmizdə ilk informasiya agentliyinin yaranmasının 85 illiyini qeyd etmişdir. Ölkə Prezidenti cənab İlham Əliyevin sərəncamları ilə əməkdaşlarımızdan bir qrupunun "Tərəqqi" medalı ilə təltif edilməsi və "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülməsi kollektivimizə daha bir sevinc bəxş etmişdir. Biz bunu təkcə AzərTAc kollektivinin əməyinə deyil, həm də zəngin ənənələri olan, bu il 130 illiyini qeyd edəcək Azərbaycan mətbuatının, müstəqil dövlətimizin, xalqımızın milli mənafelərinə sədaqətlə xidmət edən, jurnalist adını uca tutan bütün həmkarlarımızın işinə verilən

yüksək qiymət kimi qəbul edirik. Yüksək mükafata görə dövlətimizin başçısına sonsuz minnətdarlığımızı bildiririk. Ulu öndərimizin siyasi xəttinin bütün istiqamətlərdə davam etdirilməsi, beynəlxalq aləmdə Azərbaycanın nüfuzunun daha da yüksəldilməsi, respublikamızın dinamik sosial-iqtisadi inkişafına nail olunması sahəsində Prezidentimizin həyata keçirdiyi ardıcıl və məqsədyönlü tədbirlərin informasiya təminatı, müstəqil respublikamız haqqında həqiqətlərin dünyada daha geniş yayılması üçün kollektivimiz bundan sonra da bütün imkanlarını səfərbər edəcəkdir.

2005-ci il.





# Prezident Heydər Əliyevin jurnalistika dərsi

1875-ci ildə "Əkinçi" qəzetinin nəşrə başlaması mədəniyyət tariximizə əbədi həkk olunmuş böyük hadisələrdən biri idi. "Əkinçi" Azərbaycan üçün sadəcə qəzet deyildi, xalqın gələcəyinə tutulmuş nurlu çıraq idi. "Əkinçi"nin xidmətləri haqqında çox deyilib, çox yazılıb. Lakin Prezident Heydər Əliyevin imzaladığı "Azərbaycanda milli mətbuatın yaradılmasının 125 illiyi haqqında" Fərmandan bir məqamı xatırlatmaq kifayətdir: "Milli demokratik mətbuatın "Əkinçi" qəzeti tərəfindən bəyan edilmiş başlıca prinsipləri - maarifləşmə, müasirləşmə, məfkurə saflığı, ümummilli məqsədlərin təbliği, bəşəri dəyərlərin milli ənənələrlə vəhdəti, ədəbi dilin danışıq dilinə yaxınlaşdırılması, hadisələrin obyektiv işıqlandırılması Azərbaycanda milli demokratik mətbuatın inkişafı üçün təməl daşları rolunu oynadı".

Mətbuatımızın rolunu ilk növbədə həmin prinsiplərə əməl etməkdə görən, daha dəqiq desək, mətbuatımızı, jurnalistləri daim bu işə istiqamət-

ləndirən xalqımızın müdrik oğlu, görkəmli dövlət xadimi cənab Heydər Əliyev respublikamıza rəhbərlik etdiyi illərdə, xüsusən də müstəqil Azərbaycan dövlətinin Prezidenti kimi, 1993-cü ildən sonra özünəməxsus bir jurnalistika məktəbi yaratmışdır və Azərbaycan jurnalistlərinin böyük bir hissəsi bu məktəbdən dərs almışdır.

Mübaliğəsiz demək olar ki, Heydər Əliyevin jurnalistika məktəbi tarixi zərurətdən yaranmışdır. Çünki müasir dövrdə bütün dünyada kütləvi informasiya vasitələri hər bir cəmiyyətin həyatında son dərəcə mühüm rol oynayır. Ötən əsrin son onillikləri də daxil olmaqla, indi informasiya zəmanəsidir. Dünyada, hər bir cəmiyyətin, dövlətin həyatında gedən prosesləri kütləvi informasiya vasitələrinin fəal müdaxiləsindən, münasibətindən kənarda təsəvvür etmək mümkün deyildir.

Məhz buna görə də möhtərəm Prezidentimiz ölkəmizin, xalqımızın ən başlıca problemlərinə obyektiv mövqedən yanaşan, dövlətçiliyimizə xidmət edən, müstəqil Azərbaycanın həqiqətlərini dünya ictimaiyyətinə çatdıra bilən mətbuatımızın olmasını arzulayır. Nəinki arzulayır, həm də bunun üçün real imkan, şərait yaratmışdır. Bu baxımdan Azərbaycan Respublikası Konstitusiyasının verdiyi hüquqları, kütləvi informasiya vasitələri haqqında qanunu və nəhayət, ölkədə çıxan saysız-hesabsız və müxtəlif siyasi yönümlü mətbuat orqanlarını, sayı getdikcə artan özəl televiziya və radio kanallarını





xatırlamaq kifayətdir. Tam qətiyyətlə demək lazımdır ki, bütün bunlar məhz Prezident Heydər Əliyevin xidmətləri sayəsində mümkün olmuşdur.

Belə bir cəhəti də vurğulamaq lazımdır ki, mətbuatla bağlılıq, jurnalistlərlə sıx ünsiyyət istəyi heç də bütün siyasətçilərə, dövlət xadimlərinə xas deyildir. Azərbaycan Prezidenti Heydər Əliyev isə bu baxımdan tamamilə fərqlənən dövlət başçılarından biri, daha doğrusu, birincisidir.

Uzağa getməyək, keçmiş SSRİ məkanında elə bir ölkə başçısı yoxdur ki, jurnalistlər Heydər Əliyevlə olduğu qədər onunla ünsiyyətə can atsınlar. Zənnimcə, hələ blokada şəraitində olan Naxçıvanda yaşayarkən keçmiş İttifaqın müxtəlif yerlərindən, habelə dünyanın bir sıra ölkələrindəki nüfuzlu mətbuat orqanlarının təmsilçilərinin, jurnalistlərin Heydər Əliyevlə görüşmək, ondan müsahibə almaq, cərəyan edən mürəkkəb hadisələr haqqında bu müdrik insanın fikirlərini öyrənmək üçün necə çətinliklərə qatlaşaraq oraya getdiklərini xatırlamaq kifayətdir. Cənab Heydər Əliyev ilə hər bir görüş, yaxın ünsiyyət, heç şübhəsiz ki, jurnalist üçün nəinki unudulmaz anlar, həm də söhbətin mövzusundan asılı olaraq hadisələrə, ətrafda baş verən proseslərə tamamilə yeni baxışdır.

Cəsarətlə deyə bilərik ki, son dövrdə, yəni 1993-cü ildən bəri dövlətimizin başçısı ilə müntəzəm ünsiyyətdə olan, onun iştirak etdiyi çoxsaylı tədbirləri, keçirdiyi görüşləri, apardığı danışıqları

işıqlandıran Azərbaycan jurnalistləri, sözün həqiqi mənasında, yeni bir məktəb keçmiş, Prezident Heydər Əliyevin jurnalistika məktəbində formalaşmışlar. Bu, bir tərəfdən ölkəmizin müstəqilliyə qovuşmasının bəhrəsidirsə, ikinci tərəfdən və daha çox möhtərəm Prezidentin bilavasitə özünün mətbuata, jurnalistlərə göstərdiyi diqqətin nəticəsidir. Çünki əksər dövlət başçılarından fərqli olaraq Heydər Əliyev müxtəlif tədbirlərdə, çoxsaylı xarici ölkə rəhbərləri, nümayəndə heyətləri ilə görüşlərdə kütləvi informasiya vasitələri nümayəndələrinin imkan daxilində ətraflı məlumat əldə edə bilmələri üçün lazımi şərait yaradır. Şübhəsiz ki, bu, jurnalistlərimizin məsələlərə daha yaxından bələd olması və yazılarını geniş təhlil əsasında hazırlaması baxımından çox vacibdir.

Jurnalistlərimizə göstərilən diqqətin, xoş münasibətin nəticəsidir ki, dövlətimizin başçısı ölkədə olmayanda onlar həqiqətən darıxırlar. Prezident Heydər Əliyev xarici səfərlərdən qayıdanda, hava şəraitindən, vaxtın gecliyindən asılı olmayaraq, jurnalistlərimizin böyük bir qrupu hava limanına yığışıb respublikamızın rəhbərini səbirsizliklə gözləyirlər.

Prezident Heydər Əliyevin jurnalistika məktəbinin daha bir xüsusiyyəti barədə. Peşəkar jurnalistlər, adətən, öz sualları ilə söhbətin məzmununu özləri istiqamətləndirirlər. İndiki şəraitdə isə bizdə jurnalistlərin əksəriyyətini peşə və





həyat təcrübəsi az olan cavanlar təşkil etdiyinə, bəziləri isə müəyyən məsələlərdən baş çıxara bilmədiyinə görə söhbət zamanı Prezident özü onları istiqamətləndirir, hətta hansısa vacib məsələ barədə sual verməlerini xatırladır. Belə olan halda, adlarını jurnalist qoyan bəzi cızmaqaraçıların Prezidentin mətbuat nümayəndələrinə laqeydliyi, yalnız xarici jurnalistlərlə görüşməyə üstünlük verməsi barədə uydurmaları ən azı təəssüf doğurur.

Yeri gəlmişkən, dövlətimizin başçısının jurnalistlərə diqqətinin daha bir bariz nümunəsini xatırlatmaq istərdim. Aprelin 9-da Vaşinqtonda ABŞ Prezidenti Corc Buş ilə görüşdən sonra Prezident Heydər Əliyev Ağ evin qarşısında onu gözləyən jurnalistlərlə görüşüb onların suallarına cavab verdi. Ermənistan prezidenti isə jurnalistlərin gözünə görünmədən çıxıb getdi. Onu da deyək ki, bu, Amerika mətbuatının diqqətindən yayınmadı.

Azərbaycan Prezidenti jurnalistikamız, mətbuatımız qarşısında duran ən vacib məsələləri, xalqın, cəmiyyətin əksəriyyətinin qələm əhlindən nələr gözlədiyini zaman-zaman xatırladır. Bu, ilk növbədə dövlətimizin, xalqımızın taleyi, gələcəyi ilə bağlı məsələlərdir. İlk növbədə, müstəqil Azərbaycanın iqtisadi, siyasi, sosial problemlərindən, sərhədlərimizin toxunulmazlığının təmin olunmasından, ölkəmizin ərazi bütövlüyünün bərpasından, beynəlxalq aləmdə ölkəmizin demokratik imicinin formalaşmasına xidmətdən,

xalqımızı, cəmiyyətimizi narahat edən digər məsələlərdən söhbət gedir.

Dövlətimizin başçısı müasir Azərbaycan ədəbiyyatının, publisistikasının vəzifələrindən bəhs edərkən gənclərimizin milli ruhda, Vətənə, müstəqil ölkəmizə sədaqət ruhunda tərbiyəsi, ana dilimizin saflığının qorunması, onu mükəmməl bilməyin vacibliyi kimi ümdə məsələləri də ön plana çəkir. Ona görə də ictimai-siyasi yönümündən asılı olmayaraq, respublikamızın bütün kütləvi informasiya vasitələri bu tövsiyələrdən faydalanmalıdır. Əgər Prezidentimiz "biz dilimizi yaşatmışıq, nəinki yaşatmışıq, onu inkişaf etdirmişik. Bu, xalqımızın... ən böyük nailiyyətidir... Xarici ölkələrin nümayəndələri... dəfələrlə mənə deyiblər ki, sizin nə qədər gözəl diliniz var. Bəlkə də biz öz dilimizin gözəlliyini bir o qədər dərk edə bilmirik. Azərbaycan dili çox gözəl dildir! " - deyirsə və indi isə bəzi qəzetlərin bu gözəl dilimizi nə kökə saldıqlarını görürüksə, buna nə ad vermək olar?

Prezident Heydər Əliyevin mətbuat nümayəndələrinə ən mühüm tövsiyələrindən biri yazılarında ədalətli, obyektiv olmaqdır. Ümumiyyətlə, bu, bütün dövrlərdə və bütün ölkələrdə qəbul edilmiş prinsip olsa da, respublikamızda çoxları, xüsusən müxalifət yönümlü mətbuat buna məhəl qoymur, necə deyərlər, ucuz sensasiya dalınca qaçmağa, qəzetlərini satmaq naminə hər cür uydurmalara əl atırlar.





Bu baxımdan Prezident Heydər Əliyevin ötən ilin iyulunda, milli mətbuatımızın 125 illiyi münasibətilə jurnalistlərlə görüşdə dediyi sözləri bir daha xatırlatmaq yerinə düşər: "Mən məsləhət görürəm - bütün mənfi halları, qüsurları meydana çıxarın, yazın, amma ədalətli olun. Şayiələr, uydurmalar lazım deyil. İnsaflı olmaq, yaxşıya yaxşı, pisə də pis demək lazımdır".

Azərbaycan Prezidenti Heydər Əliyevin müxtəlif mövzulara dair söylədiyi dərin məzmunlu, aydın məntiqli, əhatəli nitqləri, ən yüksək səviyyədə apardığı danışıqları siyasi publisistikanın son dərəcə gözəl, təkrarsız nümunələridir. Bütün bunlar dönə-dönə nəzərdən keçirilməli, təhlil edilməli, diqqətlə öyrənilməlidir. İnamla demək olar ki, Heydər Əliyevin siyasi publisistikası bu gün də, 50-100 il bundan sonra da Azərbaycan jurnalistikası üçün əvəzsiz xəzinədir.

Dövlətimizin başçısı mətbuatımıza, jurnalistikaya münasibətini bayaq adını çəkdiyimiz görüşdə çox aydın açıqlamışdır: "Jurnalistikaya mənim hörmətimə, ehtiramıma şübhəniz olmasın. Mən hesab edirəm ki, lap o qatı yalan yazan jurnalistlər də jurnalistdir - qoy olsun. Azərbaycanda belə bir ifadə var: "Zaman hər şeyi saf-çürük edəcəkdir". Kim bu imtahandan, rəqabətdən keçəcək, həqiqətən hörmətli bir jurnalist olacaqsa, olacaq. Kimsə bu yolu keçə bilməyəcək, - yəqin ki, özünə başqa peşə axtaracaq.

Amma bu, ayrı-ayrı fərdlərə aiddir. Ümumiyyətlə isə, bu peşə çox vacib peşədir. Demokratik, hüquqi, dünyəvi dövlətdə, qanunlarla yaşayan dövlətdə jurnalistika çox vacib bir peşədir, mətbuat çox vacib bir sahədir. Bu, mənim fikrimdir və mən bu fikrimi heç vaxt dəyişməyəcəyəm".

Əksər dövlət başçılarının KİV nümayəndələri ilə yaxın ünsiyyəti o qədər də xoşlamamasının, bəzilərinin isə hətta onlardan mümkün qədər uzaq olmağa çalışmasının canlı şahidi kimi deyə bilərəm ki, mətbuata bu dərəcədə məhrəm münasibət bəsləyən, həmişə doğru yol göstərən Prezidentimiz Heydər Əliyevlə biz jurnalistlər həmişə fəxr edirik. Qısaca, sadaladığımız bütün bu məqamları ümumiləşdirib qətiyyətlə deyə bilərik ki, Prezident Heydər Əliyev respublikamıza rəhbərlik etdiyi uzun illər ərzində diplomatiyadan tutmuş bir çox digər sahələrdə olduğu kimi, mətbuat, jurnalistika sahəsində də böyük bir məktəb yaratmışdır. Bu məktəbin qayəsi, amalı müstəqillik yolu ilə işıqlı gələcəyə doğru inamla irəliləyən Azərbaycanımıza sədaqətlə xidmət etmək, xalqımızın, Vətənimizin adını hər yerdə ucaltmaqdır.

2001-ci il.





# AzərTAc-ın əsil dirçəliş dövrü Prezident Heydər Əliyevin adı ilə bağlıdır

*"Yeni Azərbaycan" qəzetinin müsahibi dövlətimizin informasiya siyasətinin formalaşdırılmasında xüsusi yeri və rolu olan AzərTAc-ın baş direktoru, 1993-cü ildən 2002-ci ilədək Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin xarici ölkələrə səfərlərində xüsusi müxbir kimi 90 dəfədən çox iştirak edən tanınmış jurnalist Aslan Əhməd oğlu Aslanovdur.*

***- Aslan müəllim, hazırda dünyada informasiya bolluğu yaranmışdır. Son vaxtlar isə, demək olar ki, bütün xəbər agentliklərinin diqqəti İraqda gedən proseslərə yönəlmişdir. Yəqin ki, bu, AzərTAc-ın işinə də öz təsirini göstərmişdir.***

- Həqiqətən də hazırda dünyada informasiya bolluğu yaranmışdır. Bu da təbiidir, çünki elm və texnikanın indiki səviyyəsi və bu zəmində qlobal

internet şəbəkəsinin yaranması dünyanın istənilən nöqtəsində baş verən bu və ya digər hadisə haqqında çox tez bir zamanda xəbər tutmağa imkan yaradır. Buna görə də indi informasiya qıtlığı problemi, əslində, aradan qalxmışdır.

Sualınızın ikinci hissəsinə gəldikdə isə, bəri başdan deyim ki, İraq məsələsi agentliyimizin işinə elə bir təsir göstərməmişdir. Əlbəttə, İraqda gedən müharibə son vaxtlar dünya informasiya vasitələrində əsas yer tutur. Lakin bu da faktdır ki, xəbərlər müxtəlif mövqelərdən təqdim olunduğuna görə əsil vəziyyəti daha dolğun, obyektiv təsəvvür etmək o qədər də asan deyildir. Biz bu barədə buraxılan xəbərlərə Azərbaycan dövlətinin həmin məsələ ilə bağlı bəyan edilmiş mövqeyi baxımından yanaşırıq.

***-Bir vaxtlar Azərbaycanın üzləşdiyi informasiya blokadasından tez-tez danışırdılar. Hətta həmin blokadanın bir sıra sahələrdə bu gün də davam etdiyini deyənlər vardır. Sizcə, vəziyyət indi necədir?***

- Sualınıza dolğun cavab vermək üçün əvvəlcə keçmişə - XX əsrin 60-cı illərinin sonuna qayıtmaq istərdim. Azərbaycanı, xalqımızı nəinki dünyada, hətta yarım əsr tərkibində olduğu İttifaqın heç də hər yerində əməlli-başlı tanımırdılar. Lakin 1969-cu ilin yayında cənab Heydər Əliyev respublikaya rəhbər seçildikdən sonra vəziyyət dəyişdi. O, Moskvanın Azərbaycanın hərtərəfli inkişafına yönəldilmiş xeyli və çox mühüm qərarlar qəbul





etməsinə nail oldu, onların həyata keçirilməsini təmin etdi. Bu, İttifaq büdcəsindən külli miqdarda vəsaitin ayrılması, respublikada yeni müasir sənaye müəssisələrinin, elm, təhsil, mədəniyyət, səhiyyə ocaqlarının istifadəyə verilməsi, geniş quruculuq işləri, xalqın güzəranının yaxşılaşması demək idi. Eyni zamanda Azərbaycanın, azərbaycanlıların İttifaq miqyasında, həm də onun hüdudlarından kənarda tanınmasına, nüfuzunun artmasına səbəb oldu.

Ona görə də qətiyyətlə deyə bilərəm ki, respublikaya rəhbərliyinin birinci dövründə cənab Heydər Əliyevin ən böyük xidmətlərindən biri Azərbaycanı və xalqımızı dünyaya tanıtması olmuşdur. O, Sovet İttifaqının ali rəhbərlərindən biri olduğu illərdə bu xidmətini daha yüksək səviyyədə davam etdirmişdir.

Təəssüf ki, ötən əsrin 80-ci illərinin axırlarında Heydər Əliyevin fitnə-fəsadla siyasi hakimiyyətdən uzaqlaşdırılması Azərbaycana çox baha başa gəldi. Üzləşdiyimiz problemlərin və faciələrin ən böyüyü, ən acınacaqlısı o dövrdə respublikaya rəhbərlik edənlərin öz doğma xalqına xəyanəti üzündən haqq işimizi dünyaya çatdırmaqdan məhrum olmağımız idi. Məhz o illərdə Azərbaycan, sözün əsil mənasında, informasiya blokadası girdabında boğulurdu. O dövrdə Azərbaycanda baş verən proseslərə keçmiş İttifaq məkanında, bütün dünyada münasibətin necə olduğu hamımızın yaxşı yadındadır...

Birmənalı şəkildə deyirəm: Azərbaycanı informasiya blokadasından Heydər Əliyev - xalqın, dövlətin çətin günündə Corc Vaşinqtonun, Bismarkın, Atatürkün, Nehrunun, Adenauerin, de Qollun fədakarlığını təkrar etmiş dahi şəxsiyyət çıxarmışdır. O, Naxçıvandan Bakıya dəvət edildiyi vaxtdan başlayaraq, Azərbaycanın haqq işini dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara bəyan etdi. Onun xarici həmkarları ilə görüşləri zamanı əlində xəritə ilə etdiyi söhbətləri heç birimiz unutmamışıq. 1993-cü il dekabrın 21-də Parisdə keçirdiyi mətbuat konfransı yadınızdadırmı? Cənab Prezident orada demişdi: “Mən burada olarkən daha çox yəqin etdim ki, Azərbaycan ilə Fransa arasında əlaqələr son dərəcə zəif olmuşdur. Fransada Azərbaycan barəsində məlumat olduqca azdır. Bəzən qeyri-obyektiv məlumat ölkəmiz, Azərbaycan dövlətinin tədbirləri barədə yalan-yanlış təsəvvür yaradır. Buna görə də hesab edirəm ki, Fransaya səfər iki ölkənin rəhbərləri arasında sıx qarşılıqlı əlaqələrin, ikitərəfli münasibətlərin gələcək inkişafı üçün bünövrə yaratmaqla yanaşı, Fransada Azərbaycanın daha yaxşı təsəvvür olunması mənasında böyük əhəmiyyətə malikdir”. Nəzərə alaq ki, Fransa dünyada güclü erməni diasporunun olduğu ölkələrdən biridir. Ona görə də Azərbaycanın bu ölkə ilə əlaqələr yaratması, dünya siyasətində böyük rolu olan Fransada respublikamız haqqında həqiqətin yayılmasına nail olmaq çox vacib idi.





Həmin dövrdə Prezidentimizin səfərlərdə olduğu ölkələrin müxtəlif dairələrinin nümayəndələri ilə keçirdiyi görüşlər Azərbaycan, xalqımızın üzləşdiyi problemlər, zorla cəlb olunduğumuz müharibə, onun ağır nəticələri, zəngin təbii ehtiyatlarımız, iqtisadi potensialımız barədə geniş təsəvvür yaradır, xarici iş adamlarının iqtisadiyyatımızın dirçəldilməsinə cəlb olunmasında böyük rol oynayırdı. Möhtərəm Heydər Əliyevin xarici səfərlər zamanı ən yüksək səviyyəli görüşlərdə, beynəlxalq tədbirlərdə etdiyi çıxışlar adi protokol çıxışları deyildi, müstəqillik yoluna qədəm qoymuş, çox ağır və mürəkkəb problemlərlə üzləşən, lakin gələcəyə böyük ümid və inam bəsləyən Azərbaycan haqqında hərtərəfli məlumat verən, dərin məzmunlu, güclü məntiqə və obyektiv faktlara söykənən klassik mühazirələr idi.

Azərbaycanın informasiya blokadasının yarılmasının iqtisadi baxımdan əhəmiyyətini də unutmaq olmaz. Artıq respublikamız dünyanın 15 ölkəsinin 30 iri neft şirkəti ilə təxminən 60 milyard dollarlıq 21 müqavilə imzalamışdır, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikintisinin təməli qoyulmuşdur. Bunları kimlərsə adi axarı ilə gedən dövlət siyasətinin nəticələri hesab edə bilər. Əslində isə, bundan ötrü daxildə ictimai-siyasi sabitlik yaratmaq, ölkəni demokratik inkişaf, bazar iqtisadiyyatı yoluna çıxarmaqla yanaşı, dünyanı Azərbaycanda gedən bu proseslərə inandırmaq da

lazım idi və cənab Heydər Əliyev həmin missiyanın öhdəsindən ən yüksək səviyyədə gəldi.

İnformasiya blokadasının yarılmasında, Azərbaycanın dünyaya tanıdılmasında kütləvi informasiya vasitələrinin rolunun artması da bu böyük şəxsiyyətin - Prezident Heydər Əliyevin adı ilə bağlıdır. Çünki dövlətimizin başçısı ölkədə söz, fikir, mətbuat azadlığının təmin olunması üçün hər cür şərait yaratmışdır və kütləvi informasiya vasitələrinə daim diqqət və qayğı göstərir. Digər tərəfdən, Prezident KİV təmsilçilərini daim əsas problemlərə istiqamətləndirir, fakt və hadisələrə obyektiv yanaşmaq üçün onlara dəyərli tövsiyələr verir. Cəsarətlə deyə bilərəm ki, dövlətimizin başçısı ilə müntəzəm ünsiyyətdə olan, onun iştirak etdiyi çoxsaylı tədbirləri, keçirdiyi görüşləri, apardığı danışıqları işıqlandıran jurnalistlərimiz yeni bir məktəb - Heydər Əliyevin jurnalistika məktəbində formalaşırlar. Ona görə də dövlətimizin başçısının "Jurnalistlərin dostu" adına layiq görülməsi tamamilə təbii və qanunauyğundur.

İndi Azərbaycanın kütləvi informasiya vasitələrinin bir çoxu ölkəmizdə baş verən hadisələri ictimaiyyətə daha obyektiv çatdırmaqla yanaşı, müstəqil dövlətimizin dünyada tanıdılması, Azərbaycanın bir daha informasiya blokadasına düşməməsi üçün səmərəli iş görür. Müstəqil respublikamız isə planetin hər yerində tanınır, dünya birliyində öz layiqli yerini tutmuşdur,





beynəlxalq aləmdə nüfuzu gündən-günə artır, möhkəmlənir.

Mənə elə gəlir ki, sualınızın ikinci hissəsinə də cavab verdim.

***- Mümkünsə, bir qədər AzərTAc-ın yaranması haqqında məlumat verin. Bu qurumun yaranmasını zərurətlə bağlayaq, yoxsa bu da keçmiş sovet məkanında gedən proseslərin nəticəsi idi? Müstəqillik qazandıqdan sonra bu qurumun adı da dəyişdi. "AzərTAc" nə deməkdir?***

- AzərTAc-ın yaranmasına gəldikdə, o, heç də keçmiş sovet məkanında gedən proseslərin nəticəsi deyildir. Bizim agentliyin 83 illik tarixi var.

Hələ Azərbaycan Xalq Cümhuriyyəti dövründə, 1919-cu il martın 3-də ölkəmizdə ayrıca informasiya agentliyi yaradılması haqqında qərar qəbul edilmiş, adı isə belə göstərilmişdir: Azərbaycan Teleqraf Agentliyi (AzərTAc). Amma hansısa səbəblərdənsə, o vaxt agentliyi təşkil etmək mümkün olmamışdır. Üstündən bir il ötəndən sonra, 1920-ci il fevralın axırlarında Azərbaycan Teleqraf Agentliyinin yaradılması barədə yeni qərar qəbul edilmişdir. Martın 2-də isə mətbuatda "AzərTAc" imzası ilə ilk xəbərlər dərc olunmuşdur. Ona görə də martın 1-i ölkəmizdə rəsmi dövlət teleqraf agentliyinin yaradıldığı gün sayılır.

Təəssüflər olsun ki, dövlət teleqraf agentliyinin ömrü heç 2 ay da çəkmir. Xalq Cümhuriyyətinin

süqutu ilə o da öz fəaliyyətini dayandırır.

Sovet hakimiyyəti dövründə - 1920-ci il iyunun 9-da Rusiya Dövlət Teleqraf Agentliyi (ROSTA) Qafqaz Ölkə Müvəkkilliyinin Azərbaycan şöbəsi yaradıldı. O, Azərbaycan Mətbuat Mərkəzinin tərkibində fəaliyyət göstərirdi. 1921-ci ildən isə şöbə Azərbaycan Teleqraf Agentliyinə çevrildi. 1972-ci ildən Azərinform adlanan bu qurum da, digər müttəfiq respublikalarda olduğu kimi, əslində, SİTA-nın filialı idi.

Ölkəmizin müstəqilliyinin ilk illərində agentliyin fəaliyyətində elə bir nəzərəçarpan dəyişiklik olmamışdır. Doğrudur, keçmişdəkindən fərqli olaraq, ilk dəfə Azərbaycan dilində xəbərlər hazırlanmasına başlanmışdı. O vaxtadək materiallar yalnız rus dilində hazırlanır, sonra isə Azərbaycan dilinə tərcümə edilirdi.

Agentliyin əsil dirçəliş dövrü möhtərəm Heydər Əliyev yenidən respublikada siyasi hakimiyyətə qayıtdıqdan sonra başlanmışdır. Dövlətimizin başçısının 1995-ci il 3 mart tarixli Fərmanı ilə agentliyə rəsmi dövlət informasiya orqanı statusu verildi və o, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Teleqraf Agentliyi adlandırıldı. Agentliyin qısaldılmış adına - AzərTAc abbreviaturasına gəldikdə isə, deyim ki, bu, hələ 1920-ci ildə qəbul olunmuşdur və Azərbaycan Teleqraf Agentliyi deməkdir. Onun qısaldılmış adı "AzərTAg" şəklində dilə





yatmadığına görə, ixtisarda fransızcadan türk dilinə keçmiş "acente" sözündən istifadə edilmişdir.

Xüsusi vurğulamaq istəyirəm ki, möhtərəm Prezidentimiz AzərTAc-ın müasir tələblər səviyyəsində fəaliyyət göstərməsinə çox böyük diqqət yetirir. Dövlətimizin başçısı AzərTAc-ın fəaliyyətinin təkmilləşdirilməsi, işçilərin maddi təminatının yaxşılaşdırılması barədə bir neçə Fərman və Sərəncam imzalamışdır. Bütün bunların sayəsində agentliyin maddi-texniki bazası möhkəmləndirilmiş, ən müasir avadanlıq alınmışdır. Lap bu yaxınlarda, mart ayının əvvəlində AzərTAc üçün xaricdən respublikada, bəlkə də, MDB məkanında oxşarı olmayan fotolaboratoriya alınıb quraşdırılmışdır. Bizə göstərilən bu böyük diqqət və qayğıya görə cənab Prezidentimizə hədsiz minnətdarıq və kollektivimiz bu etimadı doğrultmaq üçün özünün bütün imkanlarından istifadə edərək, daha böyük səylə çalışır.

***- Xarici informasiya agentlikləri ilə əməkdaşlığınız necədir, onlarla informasiya mübadiləsi aparılırmı?***

- Müstəqil dövlətin rəsmi informasiya agentliyi kimi AzərTAc, təbii ki, müxtəlif ölkələrin müvafiq agentlikləri ilə əlaqələr yaratmışdır və bu, gələcəkdə daha da genişləndiriləcəkdir. Biz Türkiyə, İran, Rusiya, Rumıniya, Çin, Pakistan, Qazaxıstan, Ukrayna və bir sıra digər ölkələrin rəsmi

agentlikləri ilə əməkdaşlıq edirik. Lap bu yaxınlarda Çin Xalq Respublikasının Sinxua agentliyi ilə əlaqələri genişləndirmək barədə yeni saziş imzalanmışdır. Onu da əlavə edim ki, Sinxuanın iş təcrübəsi ilə tanış olmaq üçün Pekinə səfər etmək barədə dəvət almışıq və bu imkandan istifadə edəcəyik. Biz bu agentliklərlə, çox geniş olmasa da, müəyyən səviyyədə informasiya mübadiləsi aparır, eyni zamanda, Bakıda fəaliyyət göstərən nümayəndəlikləri və təmsilçiləri ilə müntəzəm əlaqə saxlayırıq. Ümumiyyətlə, bu sahədə işimizi daha səmərəli qurmaq üçün yeni imkanlar axtarırıq.

Bundan əlavə, biz informasiya agentliklərinin müxtəlif regional qurumlarının keçirdikləri tədbirlərdə imkan daxilində iştirak edirik.

AzərTAc-ın fəaliyyətində mühüm istiqamətlərdən biri də Azərbaycanın xarici ölkələrdəki səfirlikləri ilə əlaqələrdir. Ölkəmizin ABŞ, Fransa, Böyük Britaniya, Almaniya, Türkiyə, İran, Çin, Pakistan, Səudiyyə Ərəbistanı və sair ölkələrdəki diplomatik missiyalarının başçıları AzərTAc-la müntəzəm əlaqə saxlayır, mühüm xəbərlərin operativ şəkildə alınıb yayılmasında bizə yaxından kömək göstərirlər. Qəzetinizin verdiyi bu imkandan istifadə edərək, diplomatlarımıza dərin minnətdarlığımızı bildiririk və ümidvarıq ki, qarşılıqlı əməkdaşlığımız gələcəkdə daha da geniş və səmərəli olacaqdır.





***- Çoxdandırmı AzərTAc-da çalışırsınız?***

- 1992-ci ildən buradayam. Əvvəlcə müxbir, sonra baş redaktorun müavini və baş redaktor işləmişəm. 1997-ci ildə cənab Prezidentimizin Sərəncamı ilə baş direktorun birinci müavini təyin edilmişdim. 2002-ci ilin oktyabrında isə dövlətimizin başçısının Fərmanı ilə baş direktor təyin olunmuşam.

***- Agentliyin işində əvvəlki dövrlərə nisbətən daha çox hansı fərqləri hiss edirsiniz? Bu dəyişikliklər iş prosesinə hansı müsbət çalarlar verir? AzərTAc-ın strukturu standart xarakter daşıyır, yoxsa müəyyən özünəməxsusluq var?***

- Əvvəlki dövrlə müqayisə aparmadan bu gün rəhbər tutduğumuz başlıca iş prinsipimizi deyə bilərəm: informasiyaların toplanması, hazırlanması və ötürülməsində maksimum operativliyə, son dərəcə çevikliyə nail olmaq. Bu il yanvarın 1-dən AzərTAc bayram və bazar günləri də daxil olmaqla, fasiləsiz iş rejiminə keçmişdir. Günün istənilən saatında əməkdaşlarımız iş başındadır, kütləvi informasiya vasitələrinə, internet şəbəkəsinə xəbərlər ötürülür. İnformasiyanı toplayan, hazırlayan və operativ yayan çevik qruplar yaradılmışdır.

Strukturda ciddi dəyişikliklər aparmışıq. Özünü doğrultmayan, zamanla ayaqlaşmayan bəzi bölmələr ləğv edilib, vəzifələr ixtisara salınıb, müasir tələblərə uyğun yeni strukturlar yaradılıb. Bayaq

dediyim çevik qrupların tərkibində bu strukturların hamısının nümayəndələri təmsil olunublar. Bütün bunlar həm keyfiyyətə, həm kəmiyyətə, həm də operativliyə müsbət təsir göstərmişdir.

***- Aslan müəllim, fikrimizcə, informasiya baxımından Azərbaycan kiçik məkandır. Belə olan halda, AzərTAc-ın fəaliyyətində ölkə ilə bağlı məlumatların bolluğu nə dərəcədə hiss olunur?***

-İnformasiya agentliyində çalışan jurnalist üçün “məlumat qıtlığı” anlayışı yoxdur. Axı, həyat bir yerdə dayanmır, cəmiyyət inkişafdadır. Hərəkət, inkişaf olan yerdə hansı qıtlıqdan danışmaq olar? Azərbaycan kiçik məkan olsa da, əsil jurnalist üçün kifayət qədər informasiya vardır. İnformasiyanı, faktı görə bilməmək və ya görmək istəməmək isə başqa məsələdir.

Bu gün Bakı başdan-başa tikinti meydançasına çevrilib, iqtisadiyyatda, idarəetmədə əsaslı islahatlar aparılır, struktur dəyişiklikləri həyata keçirilir, elmimiz, təhsilimiz, səhiyyəmiz dünya standartlarına uyğunlaşdırılır, idmanın kütləviliyi üçün böyük işlər görülür, beynəlxalq təşkilatlar, maliyyə qurumları ölkədə onlarca layihə reallaşdırır, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi, “İpək yolu” ideyası gerçəkləşir, Bakı-Tbilisi-Ceyhan neft kəməri tikintisinin bünövrəsi qoyulmuşdur. “İpək yolu” və neft kəməri boyunca yaradılacaq infrastrukturları, müxtəlif sosial-məişət obyektlərini





təsəvvürünüzə gətirin. Siz soruşun ki, jurnalistlərimiz bütün bunları əhatə edə bilirlərmi?

Peşəkar jurnalist üçün informasiya, məlumat azlığı, məkan darlığı ola bilməz və olmamalıdır. Təkrar edirəm, söhbət peşəkarlardan gedir. Peşəkar olmayanın isə KİV-lərdə çalışmağa mənəvi haqqı yoxdur.

***- Bu məsələdə digər informasiya agentliklərinin fəaliyyətini necə qiymətləndirirsiniz? Həmin agentliklərlə əlaqələriniz varmı?***

- Söhbətimizin əvvəlində informasiya blokadasının yarılmasında KİV-lərin roluna toxundum. Həmin sözləri informasiya agentliklərinə də şamil edərdim. Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında onların rolu böyükdür. Təkrar edirəm: həqiqətlərin.

Ölkəmizdə söz və mətbuat azadlığı təmin olunduğu üçün indi kifayət qədər informasiya agentlikləri yaranmışdır. Buna təbii baxıram. Lakin onların bir çoxu fakta, hadisəyə münasibətdə peşə etikası normalarını pozur, kimlərinsə ambisiyasına, siyasi maraqlarına xidmət etməyə çalışır. Hər bir agentlik əməkdaşı fakta vicdanla yanaşmalı, şayiəni informasiyaya çevirib ictimaiyyəti çaşdırmamalıdır. Fakt sifarişlə yozulanda informasiya istər-istəməz qərəzli xarakter daşıyır. Belə informasiyalar isə müstəqilliyini dönməz etməyə çalışan, hüquqi dövlət quran, torpaqlarının bütövlüyünü təmin

etmək istəyən Azərbaycana ancaq ziyan vurur, düşmən dəyirmanına su tökür. Belə fəaliyyəti ancaq ideoloji təxribat adlandırmaq olar.

Əlaqələrimizə gəldikdə isə, biz bütün KİV-lərə informasiya veririk. Özü də pulsuz. Ancaq bayaq fakta vicdanlı münasibət barədə dediklərimi bizim informasiyalara göstərilən münasibətə də aid etmək istəyirəm. Təəssüf ki, bir sıra KİV-lər bizim informasiyaları mənbəyi göstərilmədən, öz məhsulları kimi yayırlar. Unudurlar ki, jurnalist həmkarlarının əməyinə, zəhmətinə, nəhayət, hüququna hörmət bəslənilməlidir.

Yeri gəlmişkən, biz də dünya informasiya agentliklərindən məlumatlar alırıq. Ancaq onları yayanda mütləq mənbəni göstəririk. Bu, jurnalist etikasından əlavə, həm də başqasının əməyinə insani qiymət verməkdir, ən nəhayət, dünya praktikasında qəbul olunmuş norma, qaydadır.

***- Sizcə, AzərTAc-ın digər ölkədaxili agentliklərlə fərqi onun rəsmi dövlət orqanı olmasındadır, yoxsa...***

- Bilirsinizmi, informasiya yayan orqanın mənsubiyyəti, onu kimin maliyyələşdirməsi oxucunu, dinləyicini qətiyyən maraqlandırmır. Hər şeyi əlahəzrət fakt həll edir. İnformasiya agentliyinin vəzifəsi faktı, hadisəni ictimaiyyətə doğru-düzgün çatdırmaqdır. Vicdanlı, qərəzsiz şəkildə. Mahiyyət, dediyim kimi, iş prinsipində, faktlara, hadisələrə yanaşma tərzindədir. Mən





deyərdim ki, bunlar təkcə jurnalistin səriştəsindən yox, həm də dünyagörüşündən, vətəndaş mövqeyindən, mənəvi saflığından da asılıdır.

Jurnalistlərimiz informasiyaya çevirmək istədikləri faktları dəfələrlə, bir neçə mənbədən dəqiqləşdirirlər. Hər bir informasiyanın doğura biləcəyi reaksiyanı nəzərə alırlar. Elə bunun nəticəsidir ki, indiyədək, bir dəfə də olsun, təkzib vermək məcburiyyətində qalmamışıq.

Gördüyünüz kimi, elə bir əsaslı fərq sadalamadım. Dediklərimin hamısı adi jurnalist etikası çərçivəsində gözlənilməsi vacib olan tələblərdir.

***- Aslan müəllim, təqribən beş ay əvvəl Prezidentin Fərmanı ilə siz AzərTAc-a baş direktor təyin edilmisiniz. Daha sonra rəhbərlik etdiyiniz qurumda çalışan işçilərin maaşlarının artırılması haqqında sərəncam imzalandı. Bu, agentliyin işində hansı dönüşə səbəb oldu?***

- Bayaq struktur dəyişikliyi və işimizdəki müsbət çalarlar barədə sualınıza cavab verərkən dönüş, daha doğrusu, bu gün fəaliyyətimizdə rəhbər tutduğumuz prinsip haqqında danışdım. Nail olduğumuz müsbət nə varsa, möhtərəm Prezidentimizin qayğısının nəticəsidir.

Mənim baş direktor təyin olunmağıma, işçilərimizin maaşının artırılmasına təkcə etimad və ya bir qrup insanların sosial vəziyyətinin

yaxşılaşdırılması kimi baxmaq düzgün olmazdı. Söhbət dövlətçiliyə xidmət edən adamların - indiki halda AzərTAc əməkdaşlarının məsuliyyətinin yüksəldilməsindən gedir. Bu məsuliyyəti işdə doğrultmaq üçün ilk gündən qüvvələri səfərbərliyə almışıq. Struktur dəyişiklikləri barədə danışdım. Son zamanlar informasiyalarımızın kəmiyyət və keyfiyyət göstəriciləri də xeyli artıb. Gün ərzində təxminən 50-70 informasiya buraxılır.

Şəxsən cənab Prezident Heydər Əliyevin, qayğısı ilə maddi-texniki bazamız da möhkəmlənib. Fotolaboratoriyadan əlavə, ən müasir rəqəmli fotoaparatlar, agentliyi fasiləsiz enerji ilə təchiz edən yeni avadanlıq alınmışdır. Dünya informasiya agentliklərinin təcrübəsinə uyğun olaraq, kompüterlər, faks aparatları və peyk anteni ilə təmin edilmiş xüsusi zal-studiya yaradılmışdır. Əməkdaşlarımız indi telefon rabitəsi, elektron poçtu, internet şəbəkəsi vasitəsilə istənilən yerlə əlaqə saxlaya bilirlər...

Bu gün AzərTAc-da çalışan jurnalist təkcə zəhmətkeş işçi deyil, o, eyni zamanda müasir dünyagörüşünə malik insan, ən başlıcası isə, Azərbaycan dövlətçiliyinə, bu dövlətçiliyin möhkəmləndirilməsinə yönəlmiş siyasətə xidmət edən vətəndaşdır.

***- Səhv etmiriksə, bu yaxınlarda bir neçə ölkədə yeni müxbir məntəqələrinin də yaradılmasına nail olmusunuz?***





- Möhtərəm Prezidentimizin bizə göstərdiyi diqqət və qayğı, Azərbaycan hökumətinin gördüyü tədbirlər xarici ölkələrdə də müxbirlər şəbəkəsini genişləndirməyə imkan vermişdir. İndi 9 ölkədə xüsusi müxbirimiz fəaliyyət göstərir. Bu yaxınlarda Ukraynada müxbir məntəqəmiz fəaliyyətə başlayıb. İndi növbədə bir çox beynəlxalq təşkilatların iqamətgahlarının yerləşdiyi Avstriyadır. Gələcəkdə bəzi başqa ölkələrdə də müxbir məntəqələri yaratmağı nəzərdə tutmuşuq.

***- İnformasiyanın hazırlanmasında jurnalistin məsuliyyətini necə qiymətləndirirsiniz?***

- Yuxarıda yeri gəldikcə məsələyə münasibətimi bildirmişəm. Konkret onu deyə bilərəm ki, ilk növbədə, jurnalistin fəaliyyət azadlığı, informasiya almaq hüququ qorunmalıdır. Ölkəmizdə bərqərar olmuş mətbuat azadlığı, qəbul edilmiş qanun və qərarlar buna imkan verir.

Bilavasitə jurnalistin informasiya hazırlaması prosesinə gəldikdə isə, hər bir qələm sahibi etik normalara əməl etməlidir. Belə ki, informasiya düzgün və həqiqi olmalıdır, insanların şəxsiyyəti təhqir edilməməlidir; məlumat cinayətkar yolla əldə olunmamalıdır; informasiyalarda faktlar təhrif edilməməli və ya gizlədilməməlidir; mətndə, başlıqda təhrifə yol verilməməlidir; informasiyada irqi, dini və milli mənsubiyyətə görə ayrı-seçkilik olmamalıdır; vətəndaşların şəxsiyyətini ləkələyən

məlumatlara ən qısa müddət ərzində təkzib verilməlidir. Jurnalist unutmamalıdır ki, həqiqətə xidmət edir. Bu xidmətdə isə başlıca prinsip dəqiqlik və obyektivlikdir. İnformasiya mənbəyi mütləq göstərilməlidir. Hər bir jurnalist peşə ləyaqətini gözləməlidir.

Əlbəttə, bunların sayını artırmaq da olar. Lakin mənə elə gəlir ki, normal fəaliyyət göstərib cəmiyyətə namusla xidmət etmək istəyən jurnalist üçün bunlar da kifayətdir...

"Yeni Azərbaycan" qəzeti
28 mart 2003-cü il.





# Azərbaycanı informasiya blokadasından Prezident Heydər Əliyev çıxarmışdır

Bu, tam həqiqətdir və obyektivlik hissini itirməyən hər bir adamda qətiyyən şübhə doğurmur. Lakin bu mövzuda söhbət açmazdan əvvəl yaxın keçmişə nəzər salmaq istərdik.

Gəlin, əvvəlcə XX əsrin 60-cı illərinin sonunu xatırlayaq. Azərbaycanın həmin dövrdəki sosial-iqtisadi vəziyyəti yaşlı nəslin yaxşı yadındadır. Azərbaycan, əslində, keçmiş SSRİ respublikalarının bir çoxundan hər sahədə geridə qalırdı. Daha doğrusu, tənəzzül keçirirdi. Yarım əsr nəhəng bir dövlətin tərkibində olan Azərbaycanı, xalqımızı, nə qədər acınacaqlı da olsa, İttifaqın heç də hər yerində əməlli-başlı tanımırdılar. Çoxları da tamamilə mənfi mənada tanıyırdı. Lakin 1969-cu ilin ikinci yarısında Heydər Əliyev respublika partiya təşkilatının rəhbəri seçildikdən sonra vəziyyət tədricən və nəhayət tamamilə dəyişdi. Dünyanın altıda birini əhatə edən ölkənin nəhəng

potensialından bacarıqla istifadə edən və respublikanın bütün imkanlarını səfərbərliyə alan, kommunist rejiminin xüsusiyyətlərinə dərindən bələd olan, böyük təcrübəyə malik Heydər Əliyev Azərbaycanı həqiqətən tərəqqi yoluna çıxardı. Heydər Əliyev respublikaya rəhbərlik etdiyi həmin dövrdə SSRİ hökumətinin Azərbaycanın hərtərəfli inkişafına yönəldilmiş çox mühüm qərarlar qəbul etməsinə nail oldu. Eyni zamanda, bunların həyata keçirilməsini təmin etdi. Bu isə İttifaq büdcəsindən respublikaya külli miqdarda o vaxtadək görünməmiş məbləğdə vəsaitin ayrılması, yeni müasir istehsal müəssisələri, elm, təhsil, mədəniyyət, səhiyyə ocaqları, Azərbaycanın hər yerində aparılan saysız-hesabsız tikinti işləri və ən nəhayət, xalqımızın yaşayışının ilbəil yaxşılaşması demək idi. Eyni zamanda bu, Azərbaycanın İttifaq miqyasında nüfuzunun sürətlə artması, həmçinin get-gedə dünyada tanınması demək idi. Bu bir həqiqətdir ki, həmin dövrdə Azərbaycanı birinci növbədə Heydər Əliyevə görə tanıyırdılar. Ona görə də qətiyyətlə deyə bilərik ki, respublikaya rəhbərliyinin birinci dövründə cənab Heydər Əliyevin ən böyük xidmətlərindən biri doğma Azərbaycanı və qədim tarixi, zəngin mədəniyyəti olan xalqımızı dünyaya tanıtması olmuşdur. Onun Moskvada SSRİ kimi nəhəng dövlətin ali rəhbərlərindən biri olduğu illər isə bu xidmətin daha yüksək səviyyədə və yeni şəraitdə davamı idi.





Amma çox təəssüflər olsun ki, ötən əsrin 80-ci illərinin axırlarında Azərbaycanda vəziyyət tamam başqa şəkil aldı. Xəyanətkar qonşularımız sərsəm niyyətlərini həyata keçirmək üçün xislətlərinə xas olan min cür fitnə-fəsada əl ataraq, Qorbaçovun qılığına girib Heydər Əliyevin siyasi hakimiyyətdən uzaqlaşdırılmasına nail ola bildilər. Sonra isə Dağlıq Qarabağ hadisələri, qanlı 20 Yanvar faciəsi, nəhayət, sovet rəhbərliyindəki və xaricdəki havadarlarına güvənən Ermənistanın Azərbaycana qarşı açıq hərbi təcavüzü, müharibə, torpaqlarımızın bir qisminin işğalı, qaçqınlar və məcburi köçkünlər... Kiçik bir respublikanın bu cür ağır problemlərlə üzləşməsi, şübhəsiz ki, həm də o illərdə Azərbaycana rəhbərlik edən, daha doğrusu, rəhbərlik edə bilməyən, sadəcə, vəzifə kürsüsündə əyləşən, habelə bu kürsüyə sahib olmaq niyyətləri naminə Vətənin, torpağın, xalqın taleyini hərraca qoyan siyasət dəllallarının xəyanətinin nəticəsi idi. Belə bir dövrdə cənab Heydər Əliyevin hər vəchlə siyasi hakimiyyətə yaxın buraxılmaması Azərbaycana çox baha başa gəldi.

Ancaq həmişə olduğu kimi, tarix yenə də öz sözünü dedi. Məlum həqiqətdir ki, Ulu Yaradan hər hansı xalqı, məmləkəti məhvə məhkum etməyibsə, müqəddəratının həll olunduğu məqamda ona həyan durur, xilaskar yetirir. Bu mənada Vaşinqton, Bismark, Atatürk, Nehru, Adenauer, de Qoll kimi dahi şəxsiyyətləri xatırlamaq kifayətdir. Belə

dahilərdən biri də cənab Heydər Əliyevdir! Bunu bütün dünya bilir və deyir, amma min təəssüf ki, özümüzünkülərin bəziləri yenə də mayası məkrdən tutulmuş siyasi hikkələrini boğa bilmir, bu aşkar həqiqəti dərk etmək istəmir, yaxud da, sadəcə, buna qadir deyillər.

Bəli, XX əsrdə ikinci dəfə müstəqil dövlətini yaratmaq imkanı qazanmış, lakin faciələr girdabında çapalayan Azərbaycanın taleyində, tarixində yeni bir dövr, dönüş başladı. Bu həlledici dönüşün bünövrəsi 1993-cü ilin yayında cənab Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıtması ilə qoyuldu.

İyirminci yüzilliyin 80-ci illərinin axırı - 90-cı illərinin əvvəlində Azərbaycanda baş verən hadisələrə keçmiş İttifaq məkanında və ümumən dünyada münasibətin necə olduğu çoxlarının yadındadır və əksəriyyətimiz o dövrün bilavasitə şahidiyik.

Cənab Heydər Əliyev Naxçıvandan Bakıya dəvət edildiyi və prezident səlahiyyətlərini həyata keçirdiyi, Ali Sovetin sədri olduğu ilk vaxtlardan başlayaraq, Ermənistanın Azərbaycana hərbi təcavüzünün davam etməsini, torpaqlarımızın işğal olunmasını dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara bəyan edirdi. Bu baxımdan 1993-cü il iyulun 26-da BMT Təhlükəsizlik Şurasının sədrinə göndərilmiş, surəti isə BMT baş katibinə ünvanlanmış məktubu xatırlamaq kifayətdir:





"Suveren Azərbaycan dövlətinin ərazicə parçalanmasına yönəldilmiş erməni təcavüzünün davam etdirilməsi və genişləndirilməsi nəticəsində ölkəmdə yaranmış gərgin vəziyyət məni bu məktubla Sizə müraciət etməyə vadar edir...

Dağlıq Qarabağı öz ərazisinə birləşdirmək haqqında xəyanətkar qərarlar qəbul edilməsində ifadəsini tapan siyasi təcavüzdən başlayan və sonra emissarlar, terrorçular və silahlar göndərilməsinə keçən Ermənistan bu gün Azərbaycan torpağında genişmiqyaslı hərbi əməliyyatlar aparır...

Dağlıq Qarabağda fəaliyyət göstərən erməni silahlı birləşmələrinin Ermənistan Respublikasına tabe olmadıqları barədə erməni tərəfinin dedikləri tamamilə əsassızdır..."

Cənab Heydər Əliyev Prezidentliyə başlayandan sonra ilk xarici səfərini 1993-cü ilin dekabrında Fransaya etdi. O vaxtkı Prezident Fransua Mitteranla aparılan danışıqların yekunlarına əsasən, ölkələrimiz arasında dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında müqavilə imzalandı.

Dövlətimizin başçısının ilk səfərini məhz Fransaya etməsi heç də təsadüfi deyildi. Bunun səbəbini cənab Prezident dekabrın 21-də Parisdə mətbuat konfransında verdiyi bəyanatında çox aydın açıqlamışdır: "Mən burada olarkən daha çox yəqin etdim ki, Azərbaycan ilə Fransa arasında əlaqələr son dərəcə zəif olmuşdur, Fransada

Azərbaycan barəsində məlumat olduqca azdır. Bəzən qeyri-obyektiv məlumat ölkəmiz, Azərbaycan dövlətinin tədbirləri barədə yalan-yanlış təsəvvür yaradır. Buna görə də hesab edirəm ki, Fransaya səfər iki ölkənin rəhbərləri arasında sıx qarşılıqlı əlaqələrin, ikitərəfli münasibətlərin gələcək inkişafı üçün bünövrə yaratmaqla yanaşı, Fransada Azərbaycanın daha yaxşı təsəvvür olunması mənasında böyük əhəmiyyətə malikdir".

Fransanın dünyada güclü erməni diasporunun olduğu ölkələrdən biri olduğunu nəzərə alsaq, Azərbaycanın onunla əlaqələr yaratması, Avropada və ümumən dünya siyasətində böyük təsiri və rolu olan Fransada respublikamız haqqında həqiqətlərin yayılmasına nail olmaq çox vacib idi.

Azərbaycan Prezidenti Heydər Əliyevin sonra BMT Təhlükəsizlik Şurasının daimi üzvləri olan daha iki ölkəyə - 1994-cü ilin fevralında Böyük Britaniyaya və mart ayında Çin Xalq Respublikasına rəsmi səfərlərini də bu baxımdan ayrıca vurğulamaq lazımdır. Həmin səfərlər zamanı yüksək səviyyədə aparılan danışıqların dövlətlərarası əlaqələrin inkişafı baxımından tarixi əhəmiyyəti məlumdur. Lakin bu ölkələrin müxtəlif dairələrinin nümayəndələri ilə keçirilən görüşlərin Azərbaycanın təbliği, xalqımızın üzləşdiyi problemlər, ilk növbədə zorla cəlb olunduğumuz müharibə və bunun ağır nəticələri, ümumən





ölkəmiz, onun zəngin təbii ehtiyatları, iqtisadi potensialı, xarici iş adamlarından ötrü sərmayə imkanları barədə geniş təsəvvür yaratmaq baxımından vacibliyi də diqqətdən yayınmamalıdır. Buna misal olaraq, möhtərəm Prezidentimizin Böyük Britaniya Sənayeçiləri Konfederasiyasında, Kral Beynəlxalq Münasibətlər İnstitutunda çıxışlarını, Pekində mətbuat konfransındakı bəyanatını, Pekin İctimai Elmlər Akademiyasında çıxışını göstərmək olar. Qətiyyətlə deyə bilərik ki, bunlar adi protokol çıxışları deyil, müstəqillik yoluna çıxmış, çox ağır və mürəkkəb problemlərlə üzləşən, lakin gələcəyə böyük ümid və inam bəsləyən Azərbaycan haqqında hərtərəfli məlumat, dərin məzmunlu, güclü məntiqə və obyektiv faktlara söykənən klassik mühazirələr idi. Həmin çıxışlardan bir-iki məqama nəzər salaq: "Qarşınızda Azərbaycanın xəritəsi asılmışdır. Siz burada Azərbaycanı, onun sərhədlərini, Naxçıvan Muxtar Respublikasını aydın görürsünüz. 1923-cü ildən Azərbaycanın tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti mövcud olmuşdur. 1987-ci ilin axırlarında - 1988-ci ilin əvvəllərində Qarabağ münaqişəsi deyilən süni surətdə yaradılmış münaqişə baş vermişdir...

Erməni silahlı birləşmələri Dağlıq Qarabağ Muxtar Vilayətinin hüdudlarından çox kənarda Azərbaycan ərazisinin xeyli hissəsini də işğal etmişlər...

Hərbi əməliyyatlar nəticəsində 350 min nəfər əhalisi olan Naxçıvan Muxtar Respublikası tam blokada vəziyyətinə düşmüşdür...

Bütün bunlar Ermənistan tərəfindən aparılan təcavüzkar hərbi əməliyyatların nəticəsidir...

Müstəqil Azərbaycan dövlətinin məruz qaldığı bütün çətinliklərə baxmayaraq, indi daxili siyasi vəziyyət sabit, normaldır. Azərbaycanın ictimai potensialı çox genişdir... Sənayenin, demək olar, bütün sahələrində geniş imkanlara malikik, böyük istehsal fondlarımız var. Azərbaycan bütün ölkələrlə iqtisadi əməkdaşlıq üçün yaxşı ortaq ola bilər".

Bu fikirlər, xüsusən Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün ölkəmiz üçün ağır nəticələri bir neçə ay sonra, Prezident Heydər Əliyevin Brüsselə səfəri zamanı NATO Şurasının iclasındakı və Beynəlxalq mətbuat mərkəzində keçirilən mətbuat konfransındakı çıxışlarında da ətraflı bəyan edilmişdir.

Heydər Əliyevin xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışının ilk bir ili ərzindəki gecəli-gündüzlü gərgin zəhmətinin, o cümlədən gərgin diplomatik səylərinin bəhrəsi tezliklə özünü göstərdi. 1994-cü il sentyabrın 20-də, vaxtilə onun özünün tikdirdiyi "Gülüstan" sarayında Azərbaycan Dövlət Neft Şirkəti ilə dünyanın aparıcı neft şirkətləri arasında ilk müqavilə imzalandı. Dünyada çox böyük əks-səda doğuran və tezliklə "Əsrin





müqaviləsi" adını alan bu sənədin imzalanması, iri neft şirkətlərinin ölkəmizlə iqtisadi əməkdaşlığa başlaması Azərbaycanın dövlət müstəqilliyinin əbədiliyi və dönməzliyi, respublikamızın dünya iqtisadiyyatına inteqrasiyası yolunda Heydər Əliyevin diplomatiyasının ən böyük uğurlarından biri oldu, Azərbaycanın iqtisadi dirçəlişinin başlanğıcını qoydu.

Bu proses sonrakı illərdə daha da böyük vüsət almış, indiyədək Azərbaycan dünyanın 15 ölkəsinin 30 iri neft şirkəti ilə təxminən 60 milyard dollarlıq müqavilələr imzalamışdır. Bunların əksəriyyəti Milli Məclis tərəfindən ratifikasiya olunmuşdur.

Möhtərəm Prezidentimizin müəllifi olduğu yeni neft strategiyasının uğurla həyata keçirilməsinin bu gün üçün zirvəsi kimi, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikintisinin təməlinin qoyulmasını xatırlamamaq olmaz.

Bütün bunları kimlərsə adi axarı ilə gedən dövlət siyasətinin nəticələri hesab edə bilər. Amma bu, əsla belə deyildir. Bundan ötrü daxildə ictimai-siyasi sabitlik yaratmaqla, ölkəni demokratik inkişaf, bazar iqtisadiyyatı yoluna çıxarmaqla yanaşı, dünyanı Azərbaycanda gedən bu proseslərə inandırmaq lazım idi. Bu isə hec də asan məsələ deyildi, turist, jurnalist kimi Azərbaycana gəlib-gedənlərin təəssüratları əsasında buna nail olmaq mümkün deyildi. Bunun yalnız və yalnız bir yolu vardı - ölkəmizin dünyaya açıq olduğunu,

Azərbaycan həqiqətlərini beynəlxalq aləmə çatdırmaq, xarici iş adamlarını respublikamıza sərmayə qoymağın sərfəliliyinə inandırmaq. Mübaliğəsiz, birmənalı deyə bilərik ki, bunlara məhz cənab Heydər Əliyev nail ola bilərdi və nail oldu da.

Bir sözlə, möhtərəm Prezidentimizin BMT-nin, ATƏT-in yüksək tribunalarından etdiyi tarixi çıxışlarından tutmuş, çoxsaylı rəsmi və işgüzar səfərləri zamanı keçirdiyi görüşlər, apardığı danışıqlar yalnız bir məqsədə -Azərbaycanı dünyaya tanıtmağa, ölkəmiz haqqında əsil həqiqətləri, o cümlədən xalqımızın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini, nankor qonşularımızın təcavüzkar siyasətini, əzəli torpaqlarımıza əsassız iddialarını beynəlxalq miqyasda bəyan etməyə, dünyanı buna inandırmağa, müstəqil dövlətimizin dünya birliyində öz layiqli yerini tutmasına nail olmağa xidmət etmişdir. Dövlətimizin başçısı bu yolda heç kimin, o cümlədən bütünlükdə ölkəmizin təbliğat strukturlarının, kütləvi informasiya vasitələrinin görə bilmədikləri işi görmüşdür.

Yeri gəlmişkən, Azərbaycanın dünyaya tanıdılmasında respublikamızın kütləvi informasiya vasitələrinin müəyyən rolu da, ilk növbədə, Prezident Heydər Əliyevin adı ilə bağlıdır. Əvvəla, dövlətimizin başçısı Azərbaycanda söz, fikir,





mətbuat azadlığının təmin olunması üçün hər cür şərait yaratmışdır və KİV-lərə daim diqqət və qayğı göstərir. İkincisi, Azərbaycan Prezidenti KİV təmsilçilərini daim əsas problemlərə istiqamətləndirir, faktlara və hadisələrə obyektiv yanaşa bilmələri üçün dəyərli tövsiyələr verir. Birmənalı deməliyik ki, mətbuatla bağlılıq, jurnalistlərlə sıx ünsiyyətdə olmaq istəyi heç də bütün siyasətçilərə, dövlət xadimlərinə xas olan xüsusiyyət deyildir. Prezident Heydər Əliyev isə bu baxımdan tamamilə fərqlənir. Müqayisə üçün keçmiş Sovet İttifaqı məkanını götürsək, elə bir dövlət başçısı yoxdur ki, jurnalistlər Heydər Əliyevlə olduğu qədər onunla ünsiyyətdə olsunlar və ya buna can atsınlar. Bu mənada cəsarətlə deyə bilərik ki, dövlətimizin başçısı ilə daim ünsiyyətdə olan, onun iştirak etdiyi çoxsaylı tədbirləri, keçirdiyi görüşləri, apardığı danışıqları işıqlandıran Azərbaycan jurnalistləri həqiqətən yeni bir məktəb keçmişlər, Prezident Heydər Əliyevin jurnalistika məktəbində formalaşmışlar. Ona görə də dövlətimizin başçısının "Jurnalistlərin dostu" adına layiq görülməsi tamamilə təbii və qanunauyğundur. Bu da öz bəhrəsini verməkdədir. İndi Azərbaycanın kütləvi informasiya vasitələrinin bir çoxu ölkəmizdə baş verən hadisələri ictimaiyyətə daha obyektiv çatdırmaqla yanaşı, müstəqil dövlətimizin dünyada tanıdılması, Azərbaycanın informasiya blokadasına məruz qalmaması üçün səmərəli fəaliyyət göstərir.

Prezident Heydər Əliyevin Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində, iqtisadi böhrandan inkişaf yoluna çıxarılmasında, ölkəmizin beynəlxalq aləmdə tanınması, və dünya birliyində layiqli yerini tutmasında misilsiz xidmətlərini, bir sözlə, zəmanəmizin ən qüdrətli siyasi və dövlət xadimlərindən biri olmasını dövlət başçıları, məşhur siyasətçilər, diplomatlar da səmimiyyətlə etiraf edirlər. Bu etiraflara çox misal çəkmək olar, lakin biz bu yazıda bir neçəsi ilə kifayətlənirik.

Birləşmiş Ştatların keçmiş Prezidenti Bill Klinton: "Azərbaycanın demokratiya və bazar iqtisadiyyatı yolu ilə gedən bir müstəqil dövlət kimi möhkəmlənməsində, iqtisadi islahatların aparılmasında və böyük inkişaf əldə etməsində Prezident Heydər Əliyevin müstəsna xidməti vardır".

Fransa Prezidenti Jak Şirak: "Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanı böyük gələcək gözləyir".

Ukrayna Prezidenti Leonid Kuçma: "Heydər Əliyev Cənubi Qafqaz regionunda, Avropa qitəsində və dünyada layiqli yer tutan Azərbaycanın şöhrətini öz fəaliyyəti ilə artırmışdır. O, dünyamiqyaslı dövlət xadimidir".

ABŞ-ın keçmiş dövlət katibi Madlen Olbrayt: "Bu vəzifədə olduğum dövrdə ABŞ-da Heydər Əliyev qədər yüksək səviyyədə qarşılanan və uğurlu





səfər edən ikinci prezident hələ görməmişəm".

Almaniyanın ölkəmizdəki keçmiş səfiri Frenk Lanbax: "Heydər Əliyevi yalnız kansler Adenauerlə müqayisə etmək olar".

Konqresmen Qreq Laflin (ABŞ): "Heydər Əliyev Mərkəzi Asiyanın Corc Vaşinqtonudur".

Almaniyanın Bakıdakı keçmiş səfiri Kristian Zibek: "Heydər Əliyev sözün həqiqi mənasında Azərbaycanın müstəqilliyini möhkəmləndirməyə, ölkəni beynəlxalq aləmdə tanıtmağa və parlaq iqtisadi perspektivlər yaratmağa nail olmuşdur".

Xatırladaq ki, cənab Heydər Əliyevin qüdrətli şəxsiyyət, dövlət xadimi olmasını erməni şovinizminin ideoloqları da etiraf etməyə məcbur olmuşlar.

Akademik Georgi Şahnazarov: "Fəaliyyətini bu gün də izlədiyimiz Heydər Əliyevin işinin nəticəsini təhlil etməyə bir neçə institutun gücü çatmaz".

Ermənistan KP MK-nın sabiq şöbə müdiri Onikyan: "Əliyevi aradan götürə bilməməyimizin günahı bizdə deyil. Onun qurduğumuz tələyə düşməməsindədir. Heydər Əliyev məhv olmaq təhlükəsi qarşısında qalan Azərbaycanı yox, məhv olmuş Azərbaycanı yenidən həyata qaytardı".

Gevorq Kirakosyan (Daşnaksutyun partiyasının liderlərindən biri): "Heydər Əliyev Ermənistanla yanaşı, dünyada erməni lobbisini də sarsıtdı".

Bəli, düşmənlərimizin, necə deyərlər, dişləri bağırsaqlarını kəsə-kəsə söylədikləri bu fikirlər

Prezident Heydər Əliyevin xidmələrini, o cümlədən Azərbaycanı dünyaya tanıtmaq sahəsindəki misilsiz roluna bariz misallardır.

Danılmaz həqiqətdir ki, Azərbaycanı hələ ötən əsrin 70-ci illərindən etibarən geniş inkişaf yoluna çıxaran, 1993-cü ilin iyununda yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra da xarici və daxili düşmənlərin ölkəmizi parçalayıb yox etmək planlarının qarşısını alan, dövlətçiliyimizi xilas edən, iqtisadi böhranı aradan qaldıran və Azərbaycanın yüksəlişini təmin edən Heydər Əliyevin misilsiz xidmətləri sayəsində müstəqil respublikamız indi planetin hər yerində tanınır və o, dünya birliyində öz layiqli yerini tutmuşdur, beynəlxalq aləmdə nüfuzu gündən-günə artır, möhkəmlənir.

Fevral 2003-cü il.





# Dünyanı valeh edən əfsanəvi lider

"Mən həyatım boyu, bütün əmək fəaliyyətim dövründə ancaq xalq üçün, insanlar üçün düşünmüşəm, xalq üçün yaşamışam, insanlar üçün yaşamışam".

Bu sözlər xalqımızın dahi oğlu Heydər Əliyevə məxsusdur. İlk baxışda çox adi görünən bu sözlərin arxasında nəhəng şəxsiyyətin mübarizələrlə dolu, dinclik, istirahət nə olduğunu bilməyən mənalı bir ömrü dayanır. Elə bir ömür ki, hər günü, hər ayı, hər ili bütün varlığı ilə sevdiyi, bağlı olduğu xalqına, Vətəninə misilsiz xidmət nümunəsidir.

Bəşər tarixi çox görkəmli şəxsiyyətlər yetirmişdir. Onlar məşhur sərkərdə, siyasi və dövlət xadimi, elm, mədəniyyət, ədəbiyyat və incəsənətin inkişafına misilsiz töhfələr vermiş insanlar kimi tarixə düşmüşlər. Lakin ölkəsinin, xalqının tarixinin ən çətin, ağır dövründə xilaskarlıq missiyasını öz üzərinə götürən və bunu, həqiqətən, yerinə yetirən, ən nəhayət isə, Vətənini tərəqqi yoluna çıxaran, dünyaya tanıdan şəxsiyyətlər heç də yüzlərlə,

minlərlə deyildir. Beləlıri çox azdır. Ona görə də biz fəxr edə bilərik ki, həmin azların sırasında Azərbaycan xalqının yetirdiyi Heydər Əliyev kimi əfsanəvi şəxsiyyətin öz yeri, öz çəkisi, öz şöhrəti var.

Azərbaycanın tarixinin son otuz ildən artıq bir dövrü, sözün həqiqi mənasında, Heydər Əliyevin adı ilə bağlıdır. İlk dəfə 1969-cu ildə respublikada siyasi hakimiyyətə gələn Heydər Əliyev qısa bir müddətdə Azərbaycanın hərtərəfli inkişafını təmin edə bildi. Bu isə heç də asan deyildi. İttifaq hökuməti uzun illər Azərbaycana ölkənin əsas neft mənbəyi kimi baxırdı. Lakin Azərbaycanın qurudakı yataqlarında neft getdikcə tükənməkdə idi. Dənizdə kəşf olunmuş yeni yataqların istismarı isə çox böyük vəsait tələb edirdi. Bilavasitə Azərbaycan neftçilərinin iştirakı ilə SSRİ-nin digər regionlarında kəşf olunmuş zəngin neft yataqları kifayət qədər ucuz "qara qızıl" verirdi və bu səbəbdən də Azərbaycan neft diyarı kimi şöhrətini itirirdi. Respublikada sənayenin digər sahələrinin inkişafı baxımından da irəliləyiş hiss olunmurdu, yüksək texnologiyalara əsaslanan istehsalatlar isə, demək olar ki, yox idi. Kənd təsərrüfatında gerilik hökm sürürdü. Bir sözlə, həmin dövrdə Azərbaycan İttifaq respublikaları arasında ən geridə qalanlardan biri idi. Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin çox düzgün vurğuladığı kimi, "sovet hökumətinin rəsmi dairələri səviyyəsində belə bir fikir vardı ki, məşhur





neft yataqları öz keçmiş əhəmiyyətini itirmişdir və respublikanın neftə yönəldilmiş iqtisadiyyatı elə beləcə sürünməyə məhkumdur...

Həm iqtisadi, həm də mədəni tənəzzülə doğru aparan mənfi hallara qarşı fəal mübarizə məhz Heydər Əliyev hakimiyyətə gələndən sonra başlandı. Bu yorulmaz fəaliyyət sayəsində 1970-1985-ci illər baş vermiş dəyişikliklərin vüsəti, ictimai və iqtisadi sahədə aparılmış köklü islahatların xarakteri və xalqın maddi rifahının keyfiyyətcə yeni səviyyəyə yüksəlməsi baxımından, sözün tam mənasında, müstəqil Azərbaycanın yaranması salnaməsində ən parlaq səhifələrdir".

Həmin illərdə Heydər Əliyev respublikanı SSRİ məkanında öncül yerlərə çıxarmaqla, onun haqqında formalaşmış mənfi imici tamamilə aradan qaldırmaqla yanaşı, Azərbaycanın dünyada tanınması üçün də çox böyük iş görmüşdür. Bu, həmin dövrdə onun ən mühüm xidmətlərindən biri idi. Bir sözlə, müasir Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, dünya iqtisadiyyatına sıx inteqrasiyası prosesi Heydər Əliyevin respublikaya rəhbərliyinin birinci dövründə yaradılmış potensial olmadan mümkün deyildi. Bunu təkcə Azərbaycan müəllifləri deyil, müxtəlif ölkələrin siyasi və dövlət xadimləri də dəfələrlə vurğulamışlar. Bu baxımdan Tatarıstan prezidenti Mintimer Şaymiyevin sözlərini xatırlatmaq yerinə düşər: "Heydər Əliyeviç, məhz

Sizin o illərdə respublikanı yüksəltməyiniz və xalqınızın nüfuzunu qaldırmağınız, o sistem şəraitində gördüyünüz işlər bizim hamımızda, eləcə də məndə heyranlıq hissləri, bəlkə də bir qədər qibtə hissi doğurmuşdur. Bu, belədir. Mən hələ onu demirəm ki, məhz Sizin qayğı və diqqətiniz sayəsində nə qədər görkəmli, yaradıcı adamlar geniş şöhrət qazanmış, keçmiş SSRİ-nin bütün xalqlarının mənəvi inkişafına müsbət təsir göstərmişdir".

Bu, həqiqətən, belədir. Çünki Heydər Əliyev təkcə Azərbaycanın ən yeni tarixinin son qərinəsində deyil, həm də keçmiş SSRİ-nin tarixinin müəyyən bir dövründə silinməz iz qoymuş ən görkəmli şəxsiyyətdir.

Azərbaycan xalqı ötən əsrin 80-ci illərinin ortalarınadək Heydər Əliyevin xidmətlərindən nə qədər bəhrələnmişdisə, SSRİ rəhbərliyindən uzaqlaşdırılmasından sonra, xüsusilə 90-cı illərin əvvəlində onun siyasi səhnədə olmamasının ağrı-acısını da bir o qədər hiss etdi, həllini bu gün də tapmamış Qarabağ dərdinə düçar oldu. Bəli, Azərbaycanın bəlalı günləri elə o vaxt başlandı. Ona görə də görkəmli qazax yazıçısı, ictimai-siyasi xadim, xalqımızın böyük dostu Oljas Süleymenov "mən əminəm ki, 1980-ci illərin axırları - 1990-cı illərin əvvəllərində Heydər Əliyev Azərbaycana rəhbərliyi davam etdirsəydi, Ermənistan-Azərbaycan münaqişəsinə yol verməzdi. 1990-cı ilin





yanvarında general Varennikovun tankları Bakıya yeridilməzdi. Qarabağ itirilməzdi" deyəndə tamamilə haqlıdır.

Azərbaycan xalqı uzun illər həsrətində olduğu müstəqilliyinə yenidən qovuşandan sonra onun bəlaları azalmadı, əksinə, daha da artdı. Qanlı Yanvar qırğınının göynərtisi hələ keçməmiş, Ermənistanın təcavüzünün günbəgün gücləndiyi, torpaqlarımızı bir-birinin ardınca itirdiyimiz vaxtda Azərbaycan həm də parçalanır, ölkədə qardaş qanı tökülürdü. Ən dəhşətlisi isə bu idi ki, Azərbaycan müstəqil dövlət kimi dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qalmışdı. Bunun da səbəbləri hamıya məlum idi. Yenə də Oljas Süleymenovun sözləri ilə desək, "bütün bunlar siyasi qeyri-peşəkarlığın nəticəsidir. Peşəkarlar meydandan çəkilmiş və boşluğu səriştəsiz adamlar, qeyri-peşəkarlar doldurmuşdular. Siyasi nadanlıq milyonlarla insanın faciəsinə gətirib çıxarır. Buna görə də çox vacibdir ki, müstəqilliyin təşəkkül tapdığı məhz bu çətin dövrdə xalqlara Heydər Əliyev kimi yüksək dərəcəli peşəkarlar, bərkdən-boşdan çıxmış insanlar rəhbərlik etsinlər. Çünki belə imkan xalqlara min ildə bir dəfə verilir və onu əldən buraxmaq olmaz. Ondan elə istifadə etmək lazımdır ki, xalq bu dövrdən möhkəmlənmiş halda çıxsın və onun sonrakı nəsilləri irsən müstəqil, sözün əsil mənasında, azad və məğrur insanlar olsunlar. Heydər Əliyev kimi rəhbərlərin xidməti də

məhz bundan ibarət idi".

Bəli, "olum ya ölüm" dilemması ilə qarşılaşan Azərbaycan xalqı müdrikliyini bir daha göstərdi, 1993-cü ilin böhranlı iyun günlərində öz müdrik oğlunu təkidlə yenidən siyasi hakimiyyətə gətirdi və yanılmadı. Bu, böyük Qayıdış, böyük Dirçəlişin başlanğıcı idi.

Heydər Əliyev üzərinə götürdüyü məsuliyyətin ağırlığını çox gözəl başa düşürdü. O, 1993-cü il iyunun 15-də Milli Məclisin iclasındakı çıxışında deyirdi: "Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Bu vəzifəni üzərimə götürərək, öz məsuliyyətimi anlayıram və bunların hamısını rəhbər tutaraq əlimdən gələni edəcəyəm... Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini, harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm".

O, həmişə olduğu kimi, bu dəfə də özünə və sözünə sadiq qaldı. Xalqımızın dahi övladı, vaxtilə Kremlin siyasi hakimiyyət pilləsində ən parlaq sima olan Heydər Əliyev özünün nəyə qadir olduğunu bir daha bütün dünyaya - dostlarımıza da, bədxahlarımıza da sübut etdi. Azərbaycana ən böyük xidmətini göstərdi - ictimai-siyasi sabitliyi bərqərar etdi, dövlət müstəqilliyini qoruyub saxladı, möhkəmləndirdi, onu əbədi və dönməz etdi, iqtisadi böhrana son qoydu, iqtisadiyyatı inkişaf yoluna





çıxardı, ölkəmizin dünya birliyində layiqli yer tutmasını təmin etdi, Azərbaycanı regionun aparıcı dövlətinə çevirdi. Cəmi bir neçə kəlmə ilə sadalamaq mümkün olan bu taleyüklü vəzifələrin yerinə yetirilməsinin arxasında Heydər Əliyev şəxsiyyətinin gecəli-gündüzlü, məqsədyönlü, ağlasığmaz dərəcədə gərgin, son nəticədə sağlamlığına qəsd edən fəaliyyəti dayanır. Həmin illərə ötəri də olsa nəzər salanda hətta onun kimi nəhəng, müdrik, qətiyyətli, polad iradəli insanın ixtiyar yaşında bu qədər işin öhdəsindən necə gələ bildiyinə heyrətlənməmək mümkün deyildir. Amma bu, həqiqətdir. Eyni zamanda, o da həqiqətdir ki, buna yalnız Heydər Əliyev kimi qüdrətli şəxsiyyət qadirdir. Ona görə də 30 ildən artıq bir dövrdə siyasi hakimiyyətin zirvəsində olan Heydər Əliyevi xalqımızın bəxtinə düşmüş Tanrı payı adlandıranlar, Corc Vaşinqton, Franklin Ruzvelt, Uinston Çörçill, Şarl de Qoll, Konrad Adenauer kimi siyasi və dövlət xadimləri ilə müqayisə edərək, hələ sağlığında canlı əfsanəyə çevrilmiş lider hesab edənlər heç də yanılmırlar.

Prezident Heydər Əliyevin Azərbaycan, xalqımız, bütün region üçün gördüyü misilsiz işlər özlüyündə nə qədər böyük və əhəmiyyətli olsa da, biz bunların əzəmətini, bəlkə də, hələ olduğu kimi dərk edə bilmirik. Yəqin ona görə ki, buna hələ zaman gərəkdir və üstəlik Heydər Əliyev kimi dahinin müasiri olduğumuza və onun xidmətləri

gözümüz qarşısında baş verdiyinə görə bütün bunlara adi hal kimi baxırıq və bəzən hesab edirik ki, belə də olmalıdır. Bu baxımdan, xalqımızın görkəmli oğlunun ən yaxın dostları - Ukraynanın Prezidenti Leonid Kuçma "Azərbaycan xalqı Heydər Əliyevin böyüklüyünü hələ bundan sonra daha dərindən dərk edəcəkdir", Qazaxıstan Prezidenti Nursultan Nazarbayev isə "onun öz xalqı qarşısında xidmətlərinin əsil qiymətini gələcək nəsillər verəcəkdir" deməkdə tamamilə haqlıdırlar.

Lakin o da həqiqətdir ki, dünya görkəmli siyasi xadim, mahir diplomat, müdrik dövlət xadimi kimi Prezident Heydər Əliyevin qiymətini artıq vermişdir. Fransada çıxan "Kuryer İnternasional" jurnalının 2003-cü ilin may nömrəsində nəşrin baş redaktoru Aleksandr Adlerin ümummilli liderimiz Prezident Heydər Əliyevin 80 illik yubileyi münasibətilə geniş məqaləsi dərc edilmişdir. Məqalədə deyilir: "Tanrı bu şəxsiyyəti təkcə öz xalqına deyil, həm də başqa xalqlara son dərəcə mürəkkəb bir tarixi məqamda göndərmişdir. O, bir sıra ciddi böhranlar keçirmiş və onları dəf etmişdir. O, hamısına mətanətlə sinə gərmiş və onu mənən və cismən məhv etmək üçün göstərilmiş bütün cəhdlərə baxmayaraq, daha yüksəklərə qalxmışdır".

Bəli, Heydər Əliyev, həqiqətən, yüksəklərə qalxmışdır, əlçatmaz zirvədir. Ona görə də məlum aforizmdə deyildiyi kimi, dağın əzəmətini ətəyindən yox, kənardan baxmaqla görmək mümkündür. Bu





mənada ümummilli liderimiz, xalqımızın dahi oğlu haqqında Azərbaycandan kənarda - dünyanın görkəmli siyasi və dövlət xadimlərinin, biznes nümayəndələrindən tutmuş diplomatlara, ədəbiyyat, elm, mədəniyyət və incəsənət xadimlərinə, jurnalistlərə qədər ən müxtəlif peşə sahiblərinin dilindən səslənmiş fikirlər Heydər Əliyev şəxsiyyətinin, Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin sözləri ilə desək, "siyasət nəhənginin" əzəmətini daha dolğun dərk etməyə imkan verir. Zənnimcə, bu fikirlərdə diqqəti cəlb edən odur ki, bunlar Heydər Əliyev fenomeninə xas olan bütün cəhətləri əhatə edir. Yəni, onu təkcə məşhur siyasi və dövlət xadimi kimi deyil, həqiqətən, dünyanı valeh edən, hərtərəfli istedada malik alicənab insan, əfsanəvi şəxsiyyət kimi səciyyələndirir.

Prezident Heydər Əliyev müstəqil Azərbaycana rəhbərlik etdiyi on il ərzində bütün digər xidmətləri ilə yanaşı, həm də ölkəmizin haqq səsini dünyaya bəyan etmişdir. İki əsrə yaxın bir dövrdə torpaqlarımıza göz dikən məkrli qonşularımızın və onların xaricdəki çox güclü lobbisinin yaxşı təşkil olunmuş təbliğatı öz işini görmüş, düşmənlərimiz dünyada Azərbaycan haqqında mənfi təsəvvür yaratmağa, əslində, nail olmuşdular. Ona görə də tam əsasla deyə bilərik ki, Heydər Əliyev ermənilərin uydurmalarını ifşa etmək, Azərbaycan həqiqətlərini dünyaya bəyan etmək, beynəlxalq

ictimaiyyətə çatdırmaq üçün yalnız nəhəng bir təbliğat maşınının qadir olduğu işi, demək olar, təkbaşına gördü. Bu işdə onun xarici səfərlərinin həlledici rolu olmuşdur. Bunu xarici ölkələrin Azərbaycana az-çox bələd olan təmsilçiləri dəfələrlə etiraf etmişlər. Məsələn, ermənilərin Avropada ən güclü diasporunun olduğu Fransanın ölkəmizdəki ilk səfiri cənab Jan Perrənin on il əvvəl, 1994-cü ildə AzərTAc-ın müxbiri ilə söhbətində dediyi sözlərə nəzər salaq: "Açığını deyim ki, Azərbaycanı Fransaya, sözün əsil mənasında, Heydər Əliyev tanıtdı. Onun Fransaya səfərinə qədər bizim ölkədəki ermənipərəst qüvvələr Azərbaycan əleyhinə təbliğatları ilə müəyyən məqsədlərə çatmağa çalışırdılar. Doğrudur, dövlət səviyyəsində buna məhəl qoyulmurdu. Ancaq görünür ki, məsələyə məhəl qoymamaqla iş bitmirmiş. Əslində, ideoloji mübarizə gərək imiş. Zati-aliləri Prezident Heydər Əliyevin Fransaya səfəri hadisələri öz məcrasına yönəltdi. Onun bizim ölkədəki çıxışları, verdiyi bəyanatlar Azərbaycanın siyasətini və regiondakı siyasi vəziyyəti düzgün qiymətləndirməyə imkan yaratdı. Azərbaycan Fransa üçün daha anlaşıqlı, daha yaxın oldu. İndi Fransadakı erməni azlığı bilir ki, qarşıdurma mənasızdır, ərazi dəyişikliyi baş tutan sövda deyildir".

Dünyanın diqqətini Azərbaycana cəlb etmək Prezident Heydər Əliyevin xarici siyasətinin əsas istiqamətlərindən biri idi və o, zəngin təcrübəsi,





müdrik dövlət xadimi, mahir diplomat kimi buna tədricən nail olurdu. Onun xarici səfərlər zamanı və ölkə daxilində keçirdiyi saysız-hesabsız görüşlər, apardığı danışıqlar günbəgün öz bəhrəsini verirdi. Çünki dünya Heydər Əliyev şəxsiyyətinin qüdrətini daha dərindən dərk edir və ona birmənalı şəkildə inanırdı. Dediklərimizin təsdiqi kimi bir-iki misal çəkək.

ABŞ Prezidenti Corc Buş: Heydər Əliyevin şəksiz liderliyinə, cəsarətinə, misilsiz dünyagörüşünə və nadir natiqlik istedadına valehəm.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin: Mübaliğəsiz demək olar ki, Heydər Əliyev siyasət nəhəngi idi.

Türkiyənin keçmiş Baş naziri Bülənd Ecevit: Heydər Əliyev min ildən bir yetişən dahilərdəndir.

Böyük Britaniyanın Baş naziri Toni Bleyer: Heydər Əliyev kimi görkəmli dövlət xadimi ilə görüşüb danışıqlar aparmaq böyük şərəfdir.

Dünyanın tanınmış liderləri, məşhur siyasi xadimlər Prezident Heydər Əliyevin xidmətlərindən danışarkən onun ölkədə ictimai-siyasi sabitliyin təmin olunması, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, neft strategiyasının işlənib hazırlanması və bütün təzyiqlərə baxmayaraq, onun uğurla həyata keçirilməsi, Şərq-Qərb enerji dəhlizi ideyasının əfsanədən reallığa çevrilməsi sahəsində nümayiş etdirdiyi qətiyyəti, əzmkarlığı da xüsusi vurğulamışlar və yeri gəldikcə, bu gün də xatırlayırlar.

Yenə bir neçə misal çəkək.

Fransa Prezidenti Jak Şirak: Bu qeyri-adi şəxsiyyət Azərbaycanı tərəqqi yoluna gətirib çıxarmışdır. Azərbaycanın bəxti onda gətirib ki, bu ölkəyə Heydər Əliyev kimi müdrik, uzaqgörən və nüfuzlu dövlət xadimi rəhbərlik edir. Azərbaycanın Avropa ölkələri ailəsində özünəlayiq yer tutmasını böyük təcrübəyə malik, şöhrətli dövlət xadimi Heydər Əliyevin uzaqgörən, müdrik siyasətinin gözəl bəhrəsi kimi qiymətləndirirəm.

Özbəkistan Prezidenti İslam Kərimov: Azərbaycan xalqına həsəd aparıram, çünki onun dəqiq, aydın, ardıcıl siyasəti, mövqeyi olan lideri var.

Gürcüstanın keçmiş Prezidenti Eduard Şevardnadze: Prezident Heydər Əliyevin qəhrəmanlığı, müdrikliyi, mətanəti və qarşısına qoyduğu məqsədinə sarsılmaz sədaqəti olmasaydı, Şərq-Qərb enerji dəhlizi gerçəkləşə bilməzdi. Onun boru kəmərlərinin reallığa çevrilməsində göstərdiyi qətiyyət bu böyük və mühüm işlərin düzgün istiqamətləndirilməsini mümkün etmişdir. Dünya miqyaslı dahi siyasətçi cənab Heydər Əliyevin uzaqgörənliyi, dövlətin və ölkə iqtisadiyyatının inkişafının əsas qanunları və yolları haqqında ensiklopedik biliyə malik olması, böyük və misilsiz rəhbərlik təcrübəsi, xalqına sədaqəti və Vətənə sonsuz məhəbbəti ona miqyasına görə dünyada analoqu olmayan çox nəhəng layihəni yaratmaq,





eyni zamanda, bunun həqiqi rəhbəri və bilavasitə əsas icraçısı olmaq imkanı verdi. Bizim bədxahlarımız bu layihənin reallaşmasını istəmirdilər. Ona görə də təxribat aktlarından belə çəkinmirdilər. Məhz Azərbaycan Prezidenti bütün bunlara sinə gərərək, qərarlılığını bir daha dünyaya nümayiş etdirdi.

Belçikanın keçmiş Baş naziri Jan Lük De An: Məhz Prezident Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycanın dünya birliyində layiqli yer tutması, Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsinə dair dünyanın bir çox nüfuzlu şirkətləri ilə müqavilələr imzalanması Azərbaycanın müstəqilliyinin əbədi olmasına böyük təminat yaradır. Prezident Heydər Əliyevin müdrik siyasəti sayəsində Azərbaycan regionda açar rolu oynayan ölkəyə çevrilmişdir.

Prezident Heydər Əliyevin təkcə Azərbaycanda deyil, ümumən Qafqazda sabitliyin qorunmasında göstərdiyi xidmətlər də diqqətdən kənarda qalmamışdır. Bu baxımdan E.Şevardnadzenin sözlərini xatırlayaq: "Qafqazın müstəqilliyi və azadlığı işində Heydər Əliyev fenomeninin indinin özündə nə qədər böyük rol oynadığını xalq hələ sonra biləcəkdir".

Rusiya Xalqları Assambleyasının sədri Ramazan Abdulatipov isə Prezident Heydər Əliyevi Qafqazın layiqli oğullarının ən layiqlisi adlandıraraq deyir ki, o, qafqazlıların istedadını və mərdliyini, düşdüyü

vəziyyətdən, tutduğu vəzifədən və yaşından asılı olmayaraq, həmişə özünü əsil kişi kimi aparmaq bacarığını təcəssüm etdirmişdir. Heydər Əliyev tarixi şəxsiyyət, Qafqazın fəxridir. Onun siyasi istedadı elə ancaq Azərbaycana xeyir gətirmir, bütün Qafqazın sərvətinə çevrilmişdir. Çox təəssüf ki, Heydər Əliyevin potensialından həm bütün Qafqaz, həm də ümumilikdə, bütün region üçün tam istifadə olunmamışdır. O, elə nəhəng adamdır, onun şəxsiyyəti elə çoxşaxəli və intəhasızdır ki, bu dahi insanın Dağıstan üçün, Qafqaz üçün, Rusiya üçün kim olduğunu bu gün anlamaq və qiymətləndirmək çox çətindir. Görünür, bunu, bəlkə də 50 ildən sonra anlamaq, dərk etmək mümkün olacaqdır. O, sözün əsil mənasında, İnsandır, çünki insan həyatının siyasi nəticələrdən qiymətli olduğunu başqalarından daha yaxşı bilir.

Heydər Əliyev şəxsiyyətini səciyyələndirən ən mühüm cəhətlərdən biri - xalq, vətən sevgisi onunla ünsiyyətdə olanların diqqətindən yayınmırdı.

Məsələn, Fransa senatının sədri Kristian Ponsöle bu barədə fikrini belə ifadə etmişdir. Prezident Heydər Əliyev cəsarətli və sarsılmaz iradəyə malik bir şəxsiyyətdir. O, bütün varlığı ilə ölkəsinə bağlı, ölkəsi ilə nəfəs alan, onun bütün çətinlikləri ilə yaşayan bir insandır, xalqın həyat tərzinin yaxşılaşdırılması naminə var gücü ilə çalışır, gerçəkliyi nəzərə alaraq, praqmatik hərəkət edir.

"Azərbaycanı və Azərbaycan xalqını Heydər





Əliyev qədər sevən ikinci adam tanımıram" - deyən məşhur həmyerlimiz, keçmiş SSRİ-nin tanınmış dövlət xadimlərindən biri, Rusiya-Azərbaycan Dostluq Cəmiyyətinin sədri Nikolay Baybakov vurğulayır ki, onun haqqında kitablar yazmaq lazımdır, çünki Heydər Əliyevin gördüyü işlərin vüsətini təkcə çıxışlarda açıqlamaq mümkün deyildir.

Ümummilli liderimizin ən yaxın dostlarından biri, dünya şöhrətli həkim, Bilkənd Universitetinin qurucusu, Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Vəqfinin sədri İhsan Doğramacının bu barədə dedikləri də ibrətamizdir: Heydər Əliyev yaşadığı fırtınalı həyatı boyu hər zaman xalqını, vətənini düşünmüşdür. Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, xalqının xoşbəxtliyi üçün çırpınmışdır. Azərbaycanın ən çətin anlarında vətəni xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmişdir.

Dünyanın müxtəlif ölkələrinin təmsilçilərinin dilindən misal gətirdiyimiz bəzi fikirlər Heydər Əliyev dühası, müdrikliyi barədə deyilənlərin çox cüzi bir hissəsidir. Lakin bunların özü də onun şəxsiyyətinin nə üçün hələ sağlığında əfsanəyə çevrildiyini, qismən də olsa, dərk etməyə imkan verir. Həqiqətən də, Prezident Heydər Əliyev siyasi və dövləti fəaliyyəti ilə dünyanı valeh edən əfsanəvi liderdir. Buna görə dünya da onu olduğu kimi qiymətləndirmişdir və gələcəkdə də qiymətlən-

dirəcəkdir. Fikirlərimizi yekunlaşdırarkən bir-iki misal da çəkək.

ABŞ-ın tanınmış siyasətçilərindən olan keçmiş dövlət katibi xanım Madlen Olbrayt: Bu vəzifədə olduğum dövrdə Amerika Birləşmiş Ştatlarında Heydər Əliyev qədər yüksək səviyyədə qarşılanan və uğurlu səfər edən prezident hələ görməmişəm.

Xalqımızın böyük dostu, məşhur qırğız yazıçısı Çingiz Aytmatov: Heydər Əliyev həqiqətən də tarixi, hətta əfsanəvi bir şəxsiyyətdir. Bu, sovet dövründə də belə idi, bugünkü MDB məkanında, xeyli çətinləşmiş müasir dünya siyasətində də belədir.

ABŞ konqresmeni Qreq Laflin xalqımızın görkəmli oğlunu Mərkəzi Asiyanın Corc Vaşinqtonu adlandıraraq deyir: Məhz Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan bütün dünyaya sübut etdi ki, o, müstəqil yaşamaq istəyir.

Rusiya-Belarus İttifaq dövlətinin dövlət katibi Pavel Borodin isə "dünya siyasi liderlərindən, bəlkə də yalnız Heydər Əliyevi Çörçillə müqayisə etmək olar" - deyərək vurğulamışdır ki, o, təkcə Azərbaycanı deyil, bütün postsovet məkanını idarə etməyə qadir heyrətamiz liderdir.

Prezident Heydər Əliyev nəsillərə örnək olan mənalı, hadisələrlə zəngin ömrünü bütünlüklə doğma Azərbaycanına həsr etmiş, bu yolda göstərdiyi misilsiz xidmətləri ilə nəinki ölkəmizin tarixində, həm də dünya diplomatiyasının tarixində





silinməz iz qoymuşdur. Bənzərsiz fitri istedadı, müdrikliyi, siyasi uzaqgörənliyi ilə dünyanı valeh edən bu əfsanəvi şəxsiyyət hələ sağlığında milyonlarla insanın qəlbində özünə abidə ucaltmışdır. Lakin Prezident Heydər Əliyevin ucaltdığı ən böyük abidə günbəgün tərəqqi edən, işıqlı gələcəyi olan yeni, xoşbəxt Azərbaycandır. Ona görə də nə qədər ki, müstəqil Azərbaycan dövləti var, Azərbaycan xalqı var, Heydər Əliyev də ürəklərdə yaşayacaqdır. Azərbaycanın müstəqilliyi isə əbədidir, Azərbaycan xalqı da tarix durduqca yaşayacaqdır.

2004-cü il.

# Azərbyacanın 85 illik şanlı tarixinin salnaməçisi

***- 85 illik zəngin və mürəkkəb bir yaradıcılıq yolu keçmiş, xalqımızın mübarizələrlə dolu, enişli-yoxuşlu, eyni zamanda çox şərəfli tarixinin qiymətli salnaməçisi haqqı qazanmış Azərbaycan Dövlət Teleqraf Agentliyinin - AzərTAc-ın inkişaf mərhələlərini necə xarakterizə edərdiniz?***

- Bu il martın 1-də Azərbaycan Dövlət Teleqraf Agentliyinin - AzərTAc-ın fəaliyyətə başlamasının 85 ili tamam oldu. Bu, Azərbaycan milli mətbuatının tarixində həqiqətən çox əlamətdar hadisədir. İyul ayının 22-də milli demokratik mətbuatımızın 130 illiyini qeyd edəcəyik. Bu 130 illik dövrün 85 illik mərhələsini, digər mətbu orqanlarımızla bərabər, AzərTAc da tarixin yaddaşına yazmışdır. Bütün Şərqdə ilk demokratik respublikamızın xalqımıza ərməğan etdiyi ən dəyərli milli sərvətlərdən biri AzərTAc olmuşdur.

AzərTAc imzası ilə ilk xəbərlər Azərbaycan





Xalq Cümhuriyyətinin orqanı olan "Azərbaycan" qəzetində 1920-ci il martın 2-də dərc edilmişdir. İndi saralmış qəzet səhifələrindəki həmin xəbərləri gözdən keçirərkən AzərTAc-ın müstəqil dövlətin siyasi, iqtisadi, sosial və mədəni həyatının o vaxtkı yeniliklərinə həssaslıqla yanaşdığının şahidi oluruq.

Təəssüf ki, Xalq Cümhuriyyətinin özü kimi, onun ilk kövrək addımlarını atan müstəqil informasiya qurumu da çox qısa ömür yaşadı. Fəaliyyətinin ilk mərhələsində AzərTAc imzası milli tariximizə təqribən iki aylıq bir zaman kəsiyi ilə daxil olmuşdur.

AzərTAc-ın fəaliyyətinin ikinci mərhələsinin tarixi daha böyükdür. Xalq Cümhuriyyətinin süqutundan sonra bu qurum Sovet İttifaqı Teleqraf Agentliyinin filialı kimi müxtəlif adlar altında 70 il fəaliyyət göstərmişdir. Sovet imperiyası dövründə informasiya işinin təşkili anlayışı indiki meyarlardan tam fərqlənirdi. Həyatın bütün sahələrində olduğu kimi, söz, informasiya, mətbuat üzərində ciddi ideoloji nəzarət var idi. Nədən yazmaq, necə yazmaq imperiyanın sərt qanunları ilə tənzimlənirdi. Həddən artıq ciddi senzura var idi. Bu sədləri keçməyə cəhd edənlərin aqibəti tarixdən bizə yaxşı bəllidir. Stalin repressiyası illərində neçə-neçə ziyalımız, jurnalistimiz azad sözə və fikrə basqının qurbanı olmuşdur. AzərTAc-ın yolu da bu dəhşətli nəzarət və rejim qaydalarının

girdabından keçmişdir.

Sovet hakimiyyəti illərində imperiya ideoloqları azad sözdən, demokratik fikirlərdən çəkindikləri qədər heç nədən qorxmayıblar. Cəsarətlə demək olar ki, Azərbaycanda bu qorxu buzunu məhz ulu öndərimiz, xalqımızın ümummilli lideri Heydər Əliyev siyasi hakimiyyətə gəlişinin birinci mərhələsində çox məharətlə qıra bilmişdir. Təbii ki, o dövrdə rəhbərlikdə olanların arasında da mətbuatın cəmiyyətə təsir gücünün böyük olduğunu bilənlər var idi. Lakin onlarda Heydər Əliyev qətiyyəti, cəsarəti, Heydər Əliyev müdrikliyi, uzaqgörənliyi yox idi. Heydər Əliyevin siyasi irsini, dövlətçilik fəaliyyətini araşdıranlar yaxşı bilirlər ki, müasir tarixdə mətbuatın cəmiyyətə təsir gücünün əhəmiyyətini onun qədər yüksək dəyərləndirən ikinci bir lider tapmaq çətindir. Ulu öndərimiz hakimiyyətə gəldiyi ilk vaxtlardan şərəfli və zəngin ömrünün sonunadək mətbuata həmişə həm böyük yaradıcılıq sərbəstliyi və demokratik mühitdə işləmək imkanı verib, həm də onun ictimai nüfuzunun artmasına, fəaliyyət şəraitinin yaxşılaşdırılmasına xüsusi qayğı və diqqət göstərib, həqiqi mənada azad sözün təminatçısı olubdur.

AzərTAc özünün əsil inkişaf yoluna ulu öndərimizin ötən əsrdə respublikamıza rəhbərlik etdiyi 70-ci illərdə qədəm qoyubdur. Həmin illərdə Azərbaycanda gedən genişmiqyaslı quruculuq





işlərinin canlı şahidləri olan bizim nəslin nümayəndələri yaxşı xatırlayırlar ki, mətbuatın, o cümlədən AzərTAc-ın qaldırdığı hər hansı bir təşəbbüs, ulu öndərimiz Heydər Əliyevin diqqətindən heç vaxt kənarda qalmırdı. Məhz o illərdə AzərTAc-ın, o cümlədən Azərbaycan mətbuatına milli ruh qayıtmış, milli ideologiyanın, azərbaycançılığın təbliği qələm əhlimizin yaradıcılıq amalına çevrilmişdir. Bu mənada Böyük Azərbaycanlı - ümummilli liderimiz milli ruhlu yazarlarımızın ideya ilhamçısı, himayədarı olmuşdur.

Heydər Əliyevin böyük qayğısı və diqqəti sayəsində hələ ötən əsrin 70-80-ci illərində o dövrün ən mükəmməl informasiya texnologiyaları və avadanlığı ilə təchiz edilən AzərTAc keçmiş sovet respublikaları arasında həm maddi-texniki bazasının mükəmməlliyinə, həm də yüksək yaradıcılıq potensialına görə sayılıb-seçilmişdir. Məhz Heydər Əliyevin yüksək nüfuzu, yenilməz iradəsi və qətiyyəti sayəsində Sovet İttifaqında SİTA-dan və Ukrinformdan sonra tamamilə kompüterləşdirilən informasiya agentliyi AzərTAc olmuşdur. AzərTAc o vaxtlar SİTA-nın informasiya buraxılışlarını qəbul edib Cənubi Qafqaz respublikalarına ötürən mərkəz idi.

Amma çox təəssüflər olsun ki, 1987-ci ildə Heydər Əliyevin Moskvada Sovet İttifaqının ali

rəhbərliyindən kənarlaşdırılması ilə bu qüdrətli insanın tükənməz övlad sədaqəti ilə sevdiyi, gərgin əmək, fitri istedad hesabına qurub abadlaşdırdığı, tikib səltənətə çevirdiyi Azərbaycanı "ölüm-dirim" dilemması ilə üz-üzə qoydular. Ölkəmizi Dağlıq Qarabağ münaqişəsinin qanlı girdabına saldılar. Sonra qanlı 20 Yanvar faciəsi törədildi. Nəhayət, havadarlarına güvənən Ermənistan Azərbaycana qarşı total hərbi təcavüzü başladı, Xocalı soyqırımı törədildi, tarixi Şuşa qalası düşmənə təhvil verildi, torpaqlarımızın 20 faizi işğal olundu. Bir milyondan çox azərbaycanlı öz vətənində qaçqına və məcburi köçkünə çevrildi.

Azərbaycanın o illərdə xalqa, Vətənə xəyanət yolu tutmuş rəhbərliyi təkcə maddi sərvətlərimizi deyil, milli ideoloji, milli mənəvi dəyərlərimizi də məhvə məhkum etdilər. Məhz o illərdə AzərTAc da ağrılı-acılı tale yaşadı. Milli mətbuatımıza ögey münasibət ölkənin aparıcı informasiya agentliyinin də taleyindən yan ötmədi. Mətbuat üzərində sovet senzurasından da sərt qaydalar, qadağalar qoyan Vəzirov, Mütəllibov, Müsavat-AXCP hakimiyyəti guya mətbuata müstəqillik vermək adı ilə kütləvi informasiya vasitələrinə arxa çevirdilər. Maddi, mənəvi, siyasi və ideoloji dayaqlardan məhrum olan Azərbaycan mətbuatı, o cümlədən AzərTAc həlli mümkün olmayan problemlərlə üz-üzə qaldı. Bu ağır illərdə Azərbaycanda baş verən hadisələrə





keçmiş İttifaq məkanında və ümumən dünyada münasibətin necə olduğunu o dövrün canlı şahidləri kimi yaxşı xatırlayırıq.

Belə bir məşəqqətli məqamda Xilaskarımız yenidən qayıtdı və məmləkətimizi, dövlətçiliyimizi, xalqımızı dəhşətli bəlalardan xilas etdi. Ulu öndərimizin hakimiyyətə xalqın təkidli tələbi ilə ikinci qayıdışından sonra AzərTAc-ın da həyatında inkişaf, tərəqqi, yüksəliş mərhələsi başlandı. Bu möhtəşəm qayıdışdan iki il sonra Azərbaycan Prezidenti Heydər Əliyevin 1995-ci il 3 mart tarixli Fərmanı ilə AzərTAc-a dövlət agentliyi statusu verildi. 2000-ci il 17 yanvar tarixli Fərmanla isə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Teleqraf Agentliyi Azərbaycan Dövlət Teleqraf Agentliyi adlandırıldı.

Ulu öndərimizin böyük qayğısı və diqqəti sayəsində AzərTAc-ın maddi-texniki bazası qısa müddətdə dünyanın aparıcı informasiya agentlikləri ilə bərabər səviyyəyə yüksəldi. Dünya informasiya məkanına sürətlə inteqrasiya edən AzərTAc xarici ölkələrdə bir-birinin ardınca müxbir məntəqələrini açdı. İndi MDB ölkələrinin agentlikləri arasında yeganə olaraq AzərTAc-ın ən müasir dünya standartları səviyyəsində fotoinformasiya laboratoriyası, internet şəbəkəsinə sürətli çıxışı təmin edən server avadanlığı, cərəyan kəsilsə belə, çoxşəbəkəli lokal kompüter sistemini

üç saat ərzində işlədə bilən ən mükəmməl yardımçı enerji təchizatı vardır. Məhz bunların nəticəsidir ki, hazırda istər ölkənin daxilindəki, istərsə də xaricdəki informasiya istehlakçılarına AzərTAc hər üç dəqiqə yarımdan bir informasiya göndərə bilir. İndi AzərTAc dünyanın 80-dən çox ölkəsinə ingilis və rus dillərində xəbərlər göndərir və qəbul edir.

Ulu öndərimiz Heydər Əliyevin qurub-yaratdığı, siyasi memarı olduğu yeni müstəqil Azərbaycanın inkişaf sükanı etibarlı əllərdədir. Ümummilli liderimizin siyasi xəttini, milli inkişaf konsepsiyasını, ideoloji məfkurəsini çox böyük uğurla davam etdirən dövlətimizin başçısı İlham Əliyevin diqqət və qayğısı sayəsində AzərTAc informasiya işinin təşkilində daha böyük uğurlar qazanacaqdır. AzərTAc-ın 85 illik yubileyi münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamları ilə agentliyimizin 18 əməkdaşının yüksək dövlət mükafatına - "Tərəqqi" medalına və "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülməsi bu qayğının bariz təzahürüdür.

***- Milli demokratik mətbuatımızın "Əkinçi" qəzeti tərəfindən bəyan edilmiş başlıca prinsipləri - maarifləndirmə, müasirləşmə, ümummilli məqsədlərin təbliği, bəşəri dəyərlərin milli ənənələrlə üzvi vəhdəti, ədəbi dilin danışıq dilinə yaxınlaşması, hadisələrin obyektiv işıqlandırılması - dövlətçilik tariximizdə mühüm xidmət göstərmiş AzərTAc-ın əsrə yaxın fəaliyyətində bir təməl daşı kimi hansı rolu oynamış və həmin ənənələr hazırda necə davam və inkişaf etdirilir?***





- Mətbuat cəmiyyətdə həmişə ictimai proseslərə böyük təsir göstərən qüvvə olubdur. Bu mənada milli mətbuatımız, o cümlədən onun aparıcı qurumlarından biri olan AzərTAc "Əkinçi" qəzetinin bəyan etdiyi prinsiplərə 85 illik fəaliyyəti dövründə həmişə sadiq qalmağa çalışıbdır. Maarifləndirmə, məfkurə saflığı, ümummilli məqsədlərin təbliği, bəşəri dəyərlərin milli ənənələrlə üzvi vəhdəti, ədəbi dilin qorunması, hadisələrin işıqlandırılması, sözün əsil mənasında, Azərbaycan mətbuatı üçün özünəməxsus məktəb olan AzərTAc-ın fəaliyyətinin bütün mərhələlərində xüsusi yer tutmuşdur. İstər Xalq Cümhuriyyəti dövründə, istər 70 ildən artıq bir dövrü əhatə edən sovet hakimiyyəti dönəmində, istərsə də müstəqillik illərində həmin prinsiplər AzərTAc-da çalışan jurnalistlərin daim diqqət mərkəzində olmuşdur. Sovet hakimiyyəti illərində partiyalı mövqedən çıxış etməsinə baxmayaraq, AzərTAc-da çalışan vətənpərvər jurnalistlər oxucuların maariflənməsi, ədəbi dilin informasiya dilinə yaxınlaşdırılması, faktlara və hadisələrə obyektiv münasibət meyarlarını daim qorumağa çalışmış, bu amilləri zənginləşdirmişlər. Mətbuatımızın milli ənənələrinə sədaqətin nəti-

cəsidir ki, sovet dönəmində ideoloji buxovlara baxmayaraq Azərbaycan mətbuatı, o cümlədən AzərTAc milli jurnalistikamızın varlığını qoruyub saxlamış, zəngin ənənələri davam və inkişaf etdirərək, respublikamızın ictimai-siyasi həyatında mühüm rol oynamışdır.

Ən başlıcası odur ki, milli mətbuatımız indi həmin prinsipləri hər hansı bir ideoloji qurumun göstəriş və ya tapşırıqları ilə deyil, ulu öndərimiz Heydər Əliyevin rəhbərliyi ilə qəbul olunmuş və beynəlxalq norma və tələblərə cavab verən ən mükəmməl hüquqi normativ akt - "Kütləvi informasiya vasitələri haqqında" Qanun çərçivəsində yaşadır və inkişaf etdirir.

Ümummilli liderimiz Heydər Əliyev kütləvi informasiya vastələrinin əməkdaşları ilə istər rəsmi, istərsə də qeyri-rəsmi görüşlərində bütün bu məsələlərə xüsusi önəm verirdi. Tale elə gətirib ki, ulu öndərimizin dövlət başçısı kimi uzun illər xarici ölkələrə səfərlərindən materialları mən hazırlamışam. Bu səfərlərin hər birində möhtərəm Heydər Əliyev jurnalistlərə xüsusi həssaslıqla yanaşır, tövsiyə və tapşırıqlarını verirdi. Adi bir xəbərdə belə dilimizin incəliklərini gözləməyi, məfkurə saflığını qorumağı, Azərbaycan haqqında həqiqətləri beynəlxalq ictimaiyyətə doğru-dürüst çatdırmağı, bəşəri dəyərlərlə milli ənənələri uzlaşdırmağı tövsiyə edirdi. Bu mənada mübaliğəsiz





demək olar ki, Azərbaycan jurnalistlərinin böyük bir nəsli "Heydər Əliyevin jurnalistika məktəbi"nin yetirməsidir. Qeyri-adi zəka, geniş dünyagörüşü və zəngin dövlətçilik təcrübəsi olan ulu öndərimiz jurnalistləri daim öyrətməyə, Vətənə və xalqa sədaqətlə xidmət etməyin yollarını mənimsətməyə çalışırdı. Tövsiyə edirdi ki, hər bir mətbu orqan öz fəaliyyətində xalqımızın və dövlətimizin milli maraqlarnı göz bəbəyi kimi qorumalıdır.

Böyük Heydər Əliyev milli mətbuatımızın ənənələrini zənginləşdirən üç mühüm prinsipi müəyyənləşdirmişdir. Birincisi, dövlətçiliyə xidmətdir. Heydər Əliyev Azərbaycan mətbuatına, o cümlədən AzərTAc-ın jurnalistlərinə milli dövlətçiliyə xidmət amalı aşılamışdır.

Ulu öndərimiz Heydər Əliyevin milli mətbuatımızın əbədiyaşar ənənələrinə əlavə etdiyi yeni dəyərlərdən biri də Azərbaycan və azərbaycançılıq ideologiyasının təbliğidir.

Ən nəhayət, ümummilli liderimizin bizə miras qoyub getdiyi vacib məsələ ümumbəşəri dəyərlərə hörmətlə yanaşmaq prinsipidir. Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət qurulur. Azərbaycan dünya birliyinə inteqrasiya edir, nüfuzlu beynəlxalq qurumların üzvüdür. Mətbuatımız dünya birliyinin tamhüquqlu üzvü olan Azərbaycanın imicini qorumağa borcludur. AzərTAc milli mətbuatımızın tarixi ənənələrini

yaşatmaqla bərabər, xalqımızın böyük oğlu, ulu öndərimiz Heydər Əliyevin müəyyənləşdirdiyi bu prinsipləri fəaliyyətində əsas normaya çevirmişdir. Agentliyimiz milli mətbuatımızın ənənələrini bu prinsiplər əsasında inkişaf etdirir.

***- AzərTAc-ın yeni informasiya məkanları ilə yaxın ünsiyyət, dünyanın bir sıra ölkələrinin aparıcı informasiya agentlikləri ilə sıx əməkdaşlıq səylərini qloballaşma vüsəti ilə seçilən əsrimizin obyektiv oxucuları, təbiidir ki, böyük maraq və ümidlə izləyirlər. Bu sahədə görülən işlər barədə nə deyə bilərsiniz?***

- Hazırda AzərTAc-ın dünyanın istənilən ölkəsi ilə birbaşa əlaqə saxlamaq, informasiya mübadiləsi aparmaq üçün ən müasir texniki imkanlara malik bazası, ən mükəmməl elektron poçt şəbəkəsi və internet saytı vardır. İndi hər gün AzərTAc-ın internet saytına dünya üzrə 6-8 min giriş olur. Aparıcı dövlətlərin milli informasiya agentlikləri AzərTAc-la əməkdaşlığa böyük maraq göstərirlər. Agentliyimizin hazırda Türkiyənin, Rusiyanın, İtaliyanın, Bolqarıstanın, Çinin, Qazaxıstanın və digər ölkələrin aparıcı informasiya agentlikləri ilə əməkdaşlıq müqavilələri vardır. Bu müqavilələrin bir çoxu Azərbaycan Prezidenti İlham Əliyevin xaricə səfərləri zamanı dövlət və hökumət rəhbərlərinin iştirakı ilə imzalanmışdır.





Yeni müqavilələr bağlamaq barədə xarici ölkələrin rəsmi informasiya qurumlarından təkliflər almışıq. AzərTAc ötən il dünyanın 34 ölkəsinin təmsil olunduğu Mərkəzi Asiya və Sakit okean regionunun informasiya agentliklərinin qurumu olan OANA-ya üzv qəbul edilmişdir. İndi agentliymiz bu qurumun üzvü olan hər bir ölkəyə hər gün 15-20 informasiya göndərir və qəbul edir. Hazırda agentliyimiz Avropa ölkələri informasiya Agentliklərinin nüfuzlu regional qurumu olan EANA-ya üzv qəbul edilmək üçün intensiv iş aparır. Bu məqsədə nail olandan sonra AzərTAc-ın dünya informasiya məkanına operativ çıxmaq, Azərbaycan həqiqətlərini beynəlxalq ictimaiyyətə çatdırmaq üçün imkanları daha da genişlənəcəkdir.

***- AzərTAc-ın müxtəlif dövlətlərdə fəaliyyət göstərən müxbirləri xaricdə baş verən aktual siyasi-iqtisadi mövzularla yanaşı, vacib ədəbi-mədəni hadisələrə dair operativ materiallar göndərməklə hərtərəfli əlaqələrimizin daha da möhkəmlənməsinə mühüm kömək göstərmiş olurlar. Bu istiqamətdə hansı yeniliklər gözlənilir?***

- Bir qədər əvvəl qeyd etdiyim kimi, ulu öndərimiz Heydər Əliyevin diqqət və qayğısı sayəsində hazırda AzərTAc-ın dünyanın doqquz ölkəsində müxbir məntəqəsi var, yaxın gələcəkdə

onların sayı daha da artacaqdır. Xarici məmləkətlərdəki müxbirlərimiz təkcə həmin ölkələrin deyil, region dövlətlərinin də həyatında baş verən ictimai-siyasi və mədəni yenilikləri operativ surətdə Azərbaycan oxucusuna çatdırmağa səy göstərirlər. Biz çalışırıq ki, bu iş birtərəfli istiqamətdə getməsin. Xaricdəki müxbirlərimiz Azərbaycan haqqında ən önəmli informasiyaları çalışdıqları ölkələrin yerli informasiya agentlikləri vasitəsilə əcnəbi oxuculara çatdırsınlar. Azərbaycanla, AzərTAc-la fəaliyyət göstərdikləri ölkələr arasında, necə deyərlər, ünsiyyət körpüsü rolunu oynayan xarici müxbirlərimizin işini canlandırmaq üçün təsirli tədbirlər görülür.

"Ədəbiyyat qəzeti",
18 mart 2005-ci il.



## MÜNDƏRİCAT

Ön söz əvəzi .......... 3
Fərmanlar, Sərəncamlar,
Qərarlar, Məktublar .......... 7
Heydər Əliyev və AzərTAc .......... 90
Prezident Heydər Əliyevin jurnalisitika dərsi .......... 107
AzərTAc-ın əsil dirçəliş dövrü Prezident
Heydər Əliyevin adı ilə bağlıdır .......... 115
Azərbaycanı informasiya blokadasından
Prezident Heydər Əliyev çıxarmışdır .......... 133
Dünyanı valeh edən əfsanəvi lider .......... 147
Azərbaycanın 85 illik şanlı tarixinin salnaməçisi .......... 164

**Aslan Aslanov**
Heydər Əliyev və AzərTAc
*(Azərbaycan dilində)*
Bakı, "Nurlan" nəşriyyatı, 2005. - 178 səh.

| | |
|---|---|
| Korrektoru | *Bətul Eyvazlı* |
| Kompüter dizaynı | *İradə Qafurova* |
| | *Cəvani Ağayev* |
| | *Etibar Tağıyev* |
| Foto: | *Oqtay Məmmədov* |
| | *Yaşar Xəlilov* |
| | *Rafiq Bağırov* |
| | *Ədalət Abbasov* |

AzərTAc-ın kompüter mərkəzində yığılıb səhifələnmiş,
Çapa imzalanmışdır 27.04.2005. Formatı 84x108.
Şərti çap vərəqi 11,1. Sifariş 102. Sayı 500.